# 26 İYUN SİLAHLI QÜVVƏLƏR GÜNÜDÜR!


Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 136 (8159) ÇƏRŞƏNBƏ, 26 iyun 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# Güclülər sırasında yer alan Azərbaycan Ordusu

## Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz özünün döyüş qabiliyyətini və imkanlarını sürətlə artırır

21 ildir ki, iyunun 26-sı - Azərbaycan Silahlı Qüvvələrinin yaradıldığı gün ölkəmizdə ümumxalq bayramı kimi təntənəli şəkildə qeyd edilir. Bu günün bayram kimi tarixiləşməsinin müəllifi müasir Azərbaycan Ordusunun qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevdir. Ulu öndərin 1998-ci il mayın 22-də imzaladığı fərmanla 1918-ci ildə Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan edildi. Ümummilli lider Heydər Əliyevin bu fərmanı tarixi həqiqətin təsdiqi və Milli Ordu quruculuğunda varislik ənənələrinin bərpası istiqamətində çox mühüm sənəddir.

1998-ci il iyunun 25-də Azərbaycan Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində ulu öndər bu barədə demişdir: *"Biz 26 iyun gününü bayram elan etmişik. Bu, tam əsaslıdır, məqsədəuyğun, qanunauyğundur. Çünki 80 il bundan öncə məhz bu gün Azərbaycan Xalq Cümhuriyyətinin - ölkəmizin müstəqilliyini elan edən Xalq Cümhuriyyətinin, müstəqil Azərbaycanı qurub-yaradan, hələ Gəncədə fəaliyyət göstərən hökumətin ilk addımlarından biri Azərbaycanın Milli Ordusunun yaranması haqqında verdiyi qərar olmuşdur. Həmin qərara, addıma böyük hörmət əlaməti olaraq biz 26 iyun gününü Azərbaycanın Silahlı Qüvvələri, ordusu günü elan etmişik".*

Ordu ölkənin suverenliyi və ərazi bütövlüyünü təmin etmək üçün əsas qüvvə olaraq dövlətçiliyin sütunlarından biridir. Odur ki, Azərbaycanın zəngin dövlətçilik tarixində güclü ordunun vacibliyi hər zaman prioritet məsələlərdən olmuşdur. Müasir Azərbaycan dövlət müstəqilliyinin bərpasına 1991-ci ildə nail olsa da, vahid komandanlığa əsaslanan nizami və mütəşəkkil, ən əsası müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yarana biləcək hər hansı təhdidin qarşısını almağa qadir olan ordunun yaradılması ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra mümkünləşdi. Ulu öndərin rəhbərliyi ilə dövlətçilik ənənələrimizə söykənərək 1993-cü ildən ölkəmizdə həyata keçirilən dövlət quruculuğunun ən şərəfli və parlaq səhifələrindən biri bu gün qüdrətlənən gücü ilə qürurlandığımız Azərbaycan Ordusudur.

Ulu öndərin qanunsuz silahlı dəstələrin fəaliyyətinə son qoymaqla başlatdığı ordu quruculuğunun effektiv nəticələri artıq 1993-cü ilin sonu, 1994-cü ilin əvvəllərində özünü göstərməyə başladı. Başlanğıcını 1993-cü il noyabrın 2-dən - ulu öndərin xalqa müraciətindən götürən və tarixə Heydər Əliyevin ordu quruculuğu kimi düşən bu dönəmin ilkin çağlarında yeni yaradılan və mərkəzi komandanlığa tabe olan hərbi birləşmələr nəinki Ermənistanın güclənən hücumlarının qarşısını böyük mətinliklə aldılar, eyni zamanda bu birləşmələr 1993-cü ilin sonu, 1994-cü ilin əvvəllərində Füzuli istiqamətində, Murovda yüksək peşəkarlıqla uğurlu hərbi əməliyyatlar keçirərək çoxsaylı yaşayış məntəqələrini, strateji əhəmiyyət kəsb edən yüksəklikləri düşməndən azad etdilər.

Heydər Əliyev müdrik siyasətçi və böyük sərkərdə idi. Onun Ali Baş Komandanlığı ilə tezliklə hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırıldı. Dövlətçiliyi və hərbi andı hər şeydən uca tutan, hərbçi olmağı şərəf bilən, mənəvi baxımdan sağlam olan zabitlər hərbi hissələrin rəhbərliyinə cəlb edildilər. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi. Ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri olan qanunlar qəbul edildi, Silahlı Qüvvələrin mükəmməl qanunvericilik bazası və hərbi təhsil sistemi yaradıldı.

Heydər Əliyevin ölkənin təhlükəsizliyi və ordu quruculuğu ilə bağlı müəyyən etdiyi strateji vəzifələr bu gün də sürətlə yerinə yetirilir.


**Ardı 5-ci səh.**


# Prezident İlham Əliyev Ramil Usubovu Təhlükəsizlik Şurasının katibi vəzifəsinə təyin olunması münasibətilə qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Ramil Usubovu Təhlükəsizlik Şurasının katibi vəzifəsinə təyin olunması münasibətilə qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Ramil Usubovun uzun illər daxili işlər naziri vəzifəsini uğurla icra etdiyini bildirdi. Bu gün Azərbaycanda ictimai-siyasi sabitliyin təmin olunduğunu vurğulayan Prezident İlham Əliyev ölkə qarşısında duran vəzifələrin lazımi səviyyədə icrası üçün təhlükəsizlik tədbirlərinin daim gündəlikdə olmasının önəmini qeyd etdi. Prezident İlham Əliyev Ramil Usubovun Təhlükəsizlik Şurasının katibi kimi məsul vəzifənin öhdəsindən layiqincə gələcəyinə əminliyini ifadə etdi və ona fəaliyyətində uğurlar arzuladı.

Ramil Usubov ona etimad göstərib Təhlükəsizlik Şurasının katibi kimi məsul vəzifəyə təyin edilməsi ilə əlaqədar dövlət başçısına minnətdarlığını ifadə etdi. O bildirdi ki, daxili işlər naziri vəzifəsində çalışdığı uzun illər ərzində rəhbərlik etdiyi nazirlik öz fəaliyyətində xalqımızın ümummilli lideri Heydər Əliyevin, sonrakı dövrlərdə isə Prezident İlham Əliyevin yüksək diqqət və qayğısını daim hiss edib. Ramil Usubov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sabitliyin, əmin-amanlığın təmin olunması istiqamətində həyata keçirilən tədbirlərin böyük əhəmiyyət daşıdığını xüsusi olaraq vurğuladı. O, Təhlükəsizlik Şurasının katibi vəzifəsində ona göstərilən yüksək etimadı doğrultmaq üçün səylərini əsirgəməyəcəyini bildirdi.

# Azərbaycanda əhaliyə xidmət işi dünyaya nümunə göstərildi

## Rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində BMT-nin xüsusi mükafatı Birinci vitse-prezident Mehriban Əliyevaya təqdim edildi



İki gün əvvəl Heydər Əliyev Mərkəzində Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə reallaşan BMT-nin Dövlət Xidmətləri Forumu uğurlu işi ilə dünyanın diqqətini cəlb etdi.

190-dan çox ölkədən 500-dən artıq nümayəndənin iştirak etdiyi bu foruma müxtəlif ölkələrin dövlət idarəçiliyi, dövlət xidmətləri üzrə nazirləri, yerli idarəetmə orqanlarının, akademik dairələrin və özəl sektorun rəhbər şəxsləri qatılmışdılar. Bu forumun ölkəmizdə keçirilməsinə zəmin yaradan önəmli amillərdən biri dövlət xidmətləri sahəsində qazanılmış nailiyyətlər, "ASAN xidmət"in uğurlu fəaliyyəti və 2015-ci ildə BMT-nin Dövlət xidmətləri mükafatına layiq görülməsidir.

Qürurverici haldır ki, nəinki Cənubi Qafqazın, eyni zamanda bütün dünya ictimaiyyətinin maraqla izlədiyi bu forumda Azərbaycan BMT tərəfindən xüsusi mükafata layiq görüldü. Mükafatın əsas təyinatı odur ki, Azərbaycan "ASAN xidmət" modeli ilə dövlət xidmətləri sahəsində ciddi bir islahata imza atıb. Bu mötəbər tədbirin Azərbaycanda keçirilməsi həm də ona görə əhəmiyyətlidir ki, Bakı Şərqi Avropada Dövlət Xidmətləri Forumunun keçirildiyi ilk şəhər kimi tarixə düşdü.

Forumu Azərbaycan üçün əhəmiyyətli edən amillərdən biri də Beynəlxalq ASAN Assosiasiyasının təsis olunmasıdır. Bu, bütün ölkələrin dövlət xidmətlərinin birləşdiyi bir təşkilat olacaq. Qurumun adı da ASAN olacaq. Bu isə o deməkdir ki, "ASAN xidmət" təkcə Azərbaycanın intellektual brendi deyil, həm də beynəlxalq bir təşkilatın adına çevriləcək. Bu addımın məqsədi "ASAN xidmət" modelinin digər dövlətlərdə tətbiqi ilə bağlı mübadilə aparmaqdır.

Bu mötəbər tədbirin açılış mərasimində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva çıxış etmişdir. Birinci vitse-prezident Mehriban xanım Əliyeva vurğulamışdır ki, "ASAN xidmət" Azərbaycan Prezidentinin təşəbbüsü ilə genişmiqyaslı dövlət idarəçiliyi islahatlarının bir hissəsi kimi 2012-ci ildə təsis edildi. Xalq isə dərhal bu islahatları alqışladı. "ASAN xidmət" Bakıda kiçik pilot layihə ilə fəaliyyətə başladı.


**Ardı 8-ci səh.**


# Dövlətin sosial siyasətinin davamlı olduğu növbəti dəfə təsdiqləndi

## Prezidentin yeni sərəncamları 2 milyondan çox insanın rifahının daha da yaxşılaşdırılmasını təmin edəcək

Bu ilin əvvəlindən Prezident İlham Əliyev tərəfindən ölkə əhalisinin rifah halını daha da yaxşılaşdırmaq məqsədilə iki dəfə sanballı sosial paket təqdim edilib. Əvvəla, insanların güzəranını, dolanışıq səviyyəsini yüksəltmək üçün bir ildə iki dəfə, həm də aralarındakı vaxt məsafəsi bir neçə ay olmaqla, mühüm sərəncamların imzalanmasının özü nadir haldır. Prezidentin imzaladığı bu sərəncamlar dövlətin sosial sahədə apardığı siyasətin ardıcıllığını təsdiqləyir, davamlı tədbirlərin növbəti mərhələsi kimi dəyərləndirilir.

Son illərdə Azərbaycanda insanların rifah halının yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılıb. Bu da ölkəmizin dinamik iqtisadi inkişafından, maliyyə resurslarının artmasından və dövlətimizin vətəndaşın rifahına yönəldilən sosial siyasətindən qaynaqlanır. Son 15 il ərzində maaşların 7, pensiyaların 9 dəfə artırılması deyilənlərə misaldır.

Azərbaycanın əldə etdiyi gəlirlər imkan verir ki, sosial məsələlər daha ardıcıl həll olunsun. Beləliklə, ilin əvvəlində Prezidentin sərəncamı ilə böyükhəcmli sosial paket təqdim və təsdiq edildi. Həmin sosial paket çərçivəsində imzalanan qanunvericilik aktları 3 milyon nəfərə yaxın insanın sosial müdafiəsinin gücləndirilməsi sahəsində inqilabi addım oldu. Həmin məqsədlər üçün 1,5 milyard manat vəsait ayrıldı. Nazirlər Kabinetinin cari ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı demişdir: "Bu prosesə hazırlığı biz keçən ildən başlamışıq və prezident seçkilərindən sonra andiçmə mərasimində əslində, görüləcək işlərlə bağlı mənim tərəfimdən göstərişlər verildi, yeni yanaşmanın konturları müəyyən edildi. Əlavə maliyyə vəsaiti imkan verir ki, biz sosial sahəni daha da gücləndirək".


**Ardı 5-ci səh.**




# Qafqazın modernləşən və qüdrətlənən ordusu

## 101 illik yubileyini təntənə ilə qeyd edən Azərbaycan Silahlı Qüvvələrinin ön xətdəki hər bir əsgərinin qələbə əzmkarlığı, döyüş ruhu çox yüksəkdir

*Tarix - 26 iyun...*

*Qəlbində Vətən, yurd sevgisi olan, dövləti və onun güclü ordusu ilə qürur duyan, uğuruna ürəkdən sevinən hər bir vətəndaş üçün bu tarix son dərəcə şərəfli və əlamətdardır. Milli ruhda köklənən, tarixi təməl üzərində sürətlə inkişaf edərək regionun ən qüdrətli silahlı qüvvələrinə çevrilmiş Azərbaycan Ordusu möhtəşəm bir hadisəni - yaranmasının 101 illik yubileyini təntənə ilə qeyd edir. Xalq da bu əlamətdar bayramın xoş ovqatına köklənib.*

*Ulu öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli qərarına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olunub. Respublikada bu gün rəsmi dövlət bayramı kimi qeyd edilir.*

*Təntənəli yubiley ərəfəsində Azərbaycan əsgərinin mənəvi-psixoloji durumu, hərbi və maddi-texniki təchizatı, döyüş hazırlığı, bir sözlə, ümumi vəziyyəti ilə əyani surətdə tanış olmaq, qazanılan uğurların canlı şahidlərinə çevrilmək üçün yenə də ön xəttə döyüş tapşırığını yerinə yetirən "N" saylı hərbi hissələrimizdən birinə üz tutduq...*

### Qürur duyulacaq hərbi infrastruktur, şanlı döyüş yolu

...Qatardan düşüb hərbi təyinatlı avtomobillə üzü dağlara tərəf yollanırıq. Hava çox istidir. Yol boyu gözəl və əsrarəngiz təbiət, yaşıl çəmənlər, sıx meşələr ovqatımızı daha da yüksəldir. Bu heyrətamiz mənzərəyə tamaşa edə-edə möhtəşəmliyi və əzəməti ilə diqqəti uzaqdan cəlb edən silsilə dağların ətəyində düşmənin atəş mövqeyindən görünməyən, səngərdən bir qədər aralıda yerləşən hərbi hissəyə yetişirik.


**Ardı 6-cı səh.**

# "Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarının (dövlət orqanlarının strukturuna daxil olan qurumların) siyahısı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1280-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarının (dövlət orqanlarının strukturuna daxil olan qurumların) siyahısı" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2019-cu il*

# İsmayıllı rayonunun Qaraməryəm-İsmayıllı-Şəki (27 km)-Quşencə-Zoğallıq avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Üç min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Qaraməryəm-İsmayıllı-Şəki (27 km)-Quşencə-Zoğallıq avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 2,9 milyon (iki milyon doqquz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2019-cu il*

# Şirməmməd Ağaməmməd oğlu Hüseynov



Azərbaycan jurnalistikasına ağır itki üz vermişdir. Görkəmli alim, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, əməkdar jurnalist, Bakı Dövlət Universiteti Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının professoru **Şirməmməd Ağaməmməd oğlu Hüseynov** 2019-cu il iyunun 24-də ömrünün 95-ci ilində vəfat etmişdir.

Şirməmməd Hüseynov 1924-cü il dekabrın 17-də Şəki şəhərində anadan olmuşdur. 1940-cı ildə Şəki şəhəri Mirzə Fətəli Axundov adına 2 saylı orta məktəbi bitirmiş, 1940-1942-ci illərdə Şəki ikiillik Müəllimlər İnstitutunun Fizika-riyaziyyat fakültəsində oxumuşdur. O, 1945-1950-ci illərdə indiki Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin Jurnalistika şöbəsində ali təhsil almışdır. Universiteti fərqlənmə diplomu ilə başa vuran Şirməmməd Hüseynov Mixail Vasilyeviç Lomonosov adına Moskva Dövlət Universiteti Jurnalistika fakültəsinin aspiranturasına daxil olmuş, 1954-cü ildə təhsilini tamamlayıb dissertasiya müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi almışdır.

1954-cü ildən indiki Bakı Dövlət Universiteti Filologiya fakültəsinin Jurnalistika kafedrasında elmi-pedaqoji fəaliyyətə başlayan Şirməmməd Hüseynov həyatını universitetə bağlayaraq ömrünün sonunadək burada baş müəllim, dosent, 1962-1969-cu illərdə Filologiya fakültəsinin dekan müavini, 1970-1976-cı illərdə Jurnalistika fakültəsinin dekanı, 1976-1988-ci illərdə Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının müdiri olmuş, 1988-ci ildən isə həmin kafedranın professoru vəzifəsində çalışmışdır.

Elmi fəaliyyətini, əsasən, Azərbaycan jurnalistikası tarixinin öyrənilməsinə həsr edən Şirməmməd Hüseynov mətbuatşünaslığa dair 30-dan çox kitab və monoqrafiyanın, 800-dən artıq elmi və elmi-publisistik məqalənin müəllifidir.

Şirməmməd Hüseynov bir alim və pedaqoq kimi Azərbaycan klassik jurnalistikasının görkəmli simaları Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Əhməd Ağaoğlu, Cəlil Məmmədquluzadə irsini hərtərəfli araşdıraraq yetişməkdə olan nəslə çatdırılmasında təqdirəlayiq xidmətlər göstərmişdir. Alimin Azərbaycan Xalq Cümhuriyyəti qurucularının fəaliyyətinə dair araşdırmalarının Azərbaycan tarixinin öyrənilməsində xüsusi əhəmiyyəti vardır.

Şirməmməd Hüseynov Azərbaycan klassik publisistika məktəbi ənənələrini müstəqillik dövründə yeni bir məktəb səviyyəsinə yüksəltmişdir. Yüzlərlə jurnalistin ustadı kimi şöhrət qazanmış alimin elmi kadrların yetişdirilməsində də böyük əməyi olmuşdur. Azərbaycançılıq ideologiyasının təbliğində, gənc nəsil jurnalistlərin milli təəssübkeşlik, vətəndaşlıq ləyaqəti, obyektivlik ruhunda tərbiyə olunmasında Şirməmməd Hüseynovun xidmətləri əvəzsizdir. Bu gün də onun tələbələri Bakı Dövlət Universitetində, eləcə də digər elm və təhsil müəssisələrində, kütləvi informasiya vasitələrində öz müəllimlərinin yolunu uğurla davam etdirirlər.

Şirməmməd Hüseynovun Azərbaycan jurnalistikasının inkişafında uzunmüddətli səmərəli fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, bir sıra mükafatlara layiq görülmüş, Azərbaycan Respublikasının "Şərəf" ordeni ilə təltif olunmuşdur.

Görkəmli alim, pedaqoq və publisist, əsl ziyalı Şirməmməd Ağaməmməd oğlu Hüseynovun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Allah rəhmət eləsin!

**İlham Əliyev, Mehriban Əliyeva, Novruz Məmmədov, Oqtay Əsədov, Ramiz Mehdiyev, Əli Əhmədov, Əli Həsənov, Eldar Əzizov, Ceyhun Bayramov, Akif Əlizadə, Aslan Aslanov, Elçin Babayev, Əflatun Amaşov, Cahangir Məmmədli**

# Birinci vitse-prezident Mehriban Əliyeva görkəmli alim Şirməmməd Hüseynovun hüzr mərasimində iştirak edib

İyunun 25-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva görkəmli alim, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Şirməmməd Hüseynovun hüzr mərasimində iştirak edib.



AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva görkəmli alim, əməkdar jurnalist, Bakı Dövlət Universitetinin professoru Şirməmməd Hüseynovun hüzr mərasimində iştirak etmək üçün paytaxtdakı Təzə Pir məscidinə gəldi.

Mehriban Əliyeva Şirməmməd Hüseynovun ailə üzvləri ilə görüşdü, Prezident İlham Əliyevin adından və öz adından onlara dərin hüznlə başsağlığı verdi.

# Müdafiə naziri Silahlı Qüvvələr Günü ərəfəsində xidməti müşavirə keçirib



Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Mərkəzi Komanda Məntəqəsində nazir müavinləri, qoşun növləri komandanları, baş idarə, idarə və xidmət rəisləri, birlik komandirlərinin iştirakı, eləcə də videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birləşmə komandirləri və digər məsul zabitlərin də iştirakı ilə xidməti müşavirə keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Silahlı Qüvvələr Günü münasibətilə müşavirə iştirakçılarına təbriklərini çatdıran nazir Zakir Həsənov hərbi qulluqçuların sosial müdafiəsini gücləndirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin imzaladığı sərəncamın ordumuzun bütün şəxsi heyəti tərəfindən dərin minnətdarlıq hissi və böyük ruh yüksəkliyi ilə qarşılandığını vurğulayıb. Nazir dövlətimizin bu sahədə gördüyü işlərin davamlı olacağından əminliyini ifadə edib.

General-polkovnik Zakir Həsənov qoşunların təmas xəttində əməliyyat şəraitinin ciddi nəzarətdə saxlanılması, şəxsi heyətin sayıqlığının artırılması və təhlükəsizliyinin təmin edilməsi məsələlərinə xüsusi diqqət yetirilməsi barədə vəzifəli şəxslər qarşısında tapşırıq qoyub. Nazir həmçinin hava şəraitini nəzərə alaraq şəxsi heyət arasında istilik və günvurma hallarının qarşısının alınması, onların sağlamlığına diqqətin artırılması və hərbi hissələrdə yanğın təhlükəsizliyi tədbirlərinin görülməsi barədə də göstəriş verib.

# Ali hərbi rütbələrin təqdimetmə mərasimi olub

İyunun 25-də müdafiə naziri, general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamına əsasən ali hərbi rütbələrlə təltif olunan Müdafiə Nazirliyinin hərbi qulluqçuları ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirliyin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı və müdafiə nazirinin müvafiq əmri təntənəli şəkildə oxunub. Sonra hərbi qulluqçulara ali hərbi rütbələrin təqdimetmə mərasimi keçirilib.

Ali Baş Komandanın təbriklərini hərbi qulluqçulara çatdıran müdafiə naziri onlara xidmətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini çatdırıb.

# Monteneqronun Baş nazirinin Azərbaycana rəsmi səfəri başa çatıb

Monteneqronun Baş naziri Duşko Markoviçin Azərbaycan Respublikasına rəsmi səfəri iyunun 25-də başa çatıb.



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Monteneqro hökuməti başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Monteneqronun Baş naziri Duşko Markoviçi hava limanında Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Həsənov və digər rəsmi şəxslər yola saldılar.

# Görkəmli alim və pedaqoq Şirməmməd Hüseynov son mənzilə yola salınıb





İyunun 25-də Bakı Dövlət Universitetində (BDU) görkəmli alim, BDU-nun Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının müəllimi, professor, "Şərəf" ordenli Şirməmməd Hüseynovla vida mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, vida mərasimində dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, elm və mədəniyyət xadimləri, ziyalılar, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərhumun cənazəsi Bakı Dövlət Universitetinin matəmsayağı bəzədilmiş böyük akt zalında postament üzərinə qoyulmuşdu.

Alimin tabutu önünə Azərbaycan Respublikasının Prezidenti adından əklil qoyulmuşdu. Cənazənin ətrafına hökumət təşkilatları və müxtəlif kollektivlər adından da əklillər düzülmüşdü.

Şirməmməd Hüseynovun həmkarları, dostları, tələbələri, tanınmış elm xadimləri axın-axın universitetin binasına gəlir, görkəmli alimə və gözəl insana son borclarını verirdilər.

Vida mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev deyib ki, bu gün Azərbaycan elmi, təhsili, ziyalı təbəqəsi üçün çox ağır gündür. Hamının yaxşı tanıdığı, hörmət bəslədiyi, sevdiyi Şirməmməd Hüseynovla vidalaşırıq. Azərbaycan mətbuat tarixinin yorulmaz tədqiqatçısı, müasir jurnalistikamızın inkişafında misilsiz xidmətləri olan Ş.Hüseynovun zəngin yaradıcılıq yolu hamıya yaxşı məlumdur.

Rektor vurğulayıb ki, Ş.Hüseynovun həyatının böyük hissəsi Bakı Dövlət Universiteti ilə bağlı olub. 1950-1954-cü illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Jurnalistika fakültəsinin aspiranturasında təhsil alan Şirməmməd Hüseynov vətənə ilk azərbaycanlı alim-jurnalist kimi dönüb. Gənc jurnalistlərin yetişməsində, püxtələşməsində böyük xidmətləri olan Şirməmməd müəllim elmi-pedaqoji fəaliyyətini ləyaqətlə, vicdanla, yorulmadan davam etdirib. O, hər zaman tələbələrlə müəllimləri bir komanda kimi ətrafında birləşdirə bilib.



Şirməmməd Hüseynovun azərbaycançılıq ideologiyasının sadiq keşikçilərindən biri olduğunu bildirən rektor vurğulayıb ki, o, Azərbaycan Xalq Cümhuriyyəti qurucularının irsinin araşdırılmasında xüsusi xidmətlər göstərib. Daim həqiqətin, ədalətin, azad sözün tərəfdarı olub. Buna görə də təkcə elmi ictimaiyyətin deyil, sadə insanların da böyük hörmətini qazanıb.

BDU-nun Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri, professor Cahangir Məmmədli, akademik Vasif Babazadə, "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov və Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov çıxış edərək Şirməmməd Hüseynovu müəllimlər müəllimi kimi xarakterizə ediblər.

Bildirilib ki, Azərbaycan jurnalistlərinin müdrik ağsaqqalı, görkəmli alim və pedaqoq Şirməmməd Hüseynov uzun illər milli mətbuatımızın qatı açılmamış səhifələrini arxivlərdən çox böyük vətənpərvərliklə, tədqiqatçı inadkarlığı ilə arayıb-axtarıb, üzə çıxararaq nəşr etdirib. Onun müəllifi olduğu kitabların böyük əksəriyyəti sanballı, ensiklopediya səviyyəsində olan əsərlərdir. Bu nəşrlərin hər biri istər alimlər, istər tələbələr, istərsə də oxucular üçün zəngin xəzinədir. Ədalətlilik, prinsipiallıq, qətiyyətlilik, nəciblik, xeyirxahlıq kimi insani keyfiyyətlər Şirməmməd Hüseynovun xarakterinə xas olan xüsusiyyətlər idi.

Şirməmməd Hüseynov "Həqiqət və ədalət carçısı", "M.Ə.Rəsulzadə", "Mənəvi irsimiz və gerçəklik", "Mətbu irsimizdən səhifələr", "Parlament hesabatları" və digər dəyərli kitabların və əsərlərin, həmçinin çoxsaylı dərslik və dərs vəsaitlərinin müəllifidir. Çoxsaylı kitabları içərisində "Parlament hesabatları" onun şah əsəri hesab edilir. Şirməmməd müəllim milli yaddaşımızın daşıyıcısı idi, öz əsərləri ilə Azərbaycanın dünəni və bugünü arasında mənəvi körpü yaradıb.

Xüsusi olaraq qeyd edilib ki, Prezident İlham Əliyevin 2014-cü il 16 dekabr tarixli sərəncamına əsasən professor Şirməmməd Hüseynovun "Şərəf" ordeni ilə təltif edilməsi onun bu və digər xidmətlərinə verilən yüksək qiymətdir.

Ailəsi adından çıxış edən Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva Bakı Dövlət Universitetinin atası üçün müqəddəs məkan olduğunu və BDU-nu evi qədər sevdiyini söyləyib. Qeyd edib ki, Ş.Hüseynovun ömrünün 60 ili universitet ilə bağlı olub. O, Bakı Dövlət Universitetini Azərbaycanın kiçik modeli hesab edirdi.

Fərəh Əliyeva atasının xatirəsinə göstərilən hörmət və ehtirama görə Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlığını bildirib.

Vida mərasimi başa çatandan sonra görkəmli alimin ruhuna dualar oxunub və cənazəsi son mənzilə yola salınıb.

Mərhum ikinci Fəxri xiyabanda torpağa tapşırılıb.

Allah rəhmət eləsin.

# Azərbaycan qadınları ictimai həyatın bütün sahələrində fəallıqları ilə seçilirlər



Azərbaycanda qadınlara tarixən xüsusi hörmət, ehtiram olub və bu, indi də davam edir. Azərbaycan dövləti qadın hüquqlarının qorunması sahəsində fəaliyyətini davam etdirir və bu işdə böyük nailiyyətlər qazanılıb.

AZƏRTAC xəbər verir ki, bu sözləri Baş nazirin müavini Əli Əhmədov BMT-nin Qadınlar Təşkilatının Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Alia El Yassir ilə görüşdə deyib.

Əli Əhmədov qeyd edib ki, bu gün Azərbaycan qadınları ictimai həyatın bütün sahələrində fəallıqları ilə seçilirlər.

Alia El Yassir Bakıda BMT-nin Dövlət Xidmətləri Forumunun yüksək səviyyədə təşkili üçün Azərbaycan hökumətinə minnətdarlığını bildirib. Ölkəmizə ilk dəfə səfər etdiyini bildirən qonaq BMT ilə Azərbaycan hökuməti arasında əlaqələrin inkişaf etməsinin nəticəsi olaraq bu kimi səfərlərin mütəmadi hal alacağına əmin olduğunu deyib.

# Azərbaycan hökuməti BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı ilə sıx əlaqələrə malikdir



Azərbaycan hökuməti BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə sıx əlaqələrə malikdir. Kənd təsərrüfatının inkişafı Azərbaycan dövlətinin diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Baş nazirin müavini Əli Əhmədov iyunun 25-də BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Avropa və Mərkəzi Asiya üzrə regional direktorunun müavini Nabil Qanqi ilə görüşdə deyib.

Baş nazirin müavini qeyd edib ki, Azərbaycan öz ərzaq təhlükəsizliyini təmin edə bilib. Bu sahədə heç bir çatışmazlıq yoxdur. Azərbaycan kənd təsərrüfatı məhsullarının ixracı ilə də bağlı işlər görür. Bundan başqa, Azərbaycanda Qida Təhlükəsizliyi Agentliyi yaradılıb. Bu təşkilat əhalinin təhlükəsiz qida ilə təmin olunması ilə yanaşı, məhsulların ixracı istiqamətində də işlər görür.

Nabil Qanqi Azərbaycanın qısa müddətdə kənd təsərrüfatı sahəsində xeyli uğurlar əldə etdiyini söyləyib. O vurğulayıb ki, Azərbaycan bu sahə ilə bağlı, eyni zamanda, beynəlxalq gündəlikdə olan məsələlərin həllində də yaxından iştirak edir.




# Bakıda Azərbaycan-Monteneqro biznes forumu keçirilib





İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə iyunun 25-də Bakıda Azərbaycan-Monteneqro biznes forumu keçirilib. Tədbirdə hər iki ölkə hökumətlərinin yüksək vəzifəli rəsmiləri ilə yanaşı, iqtisadiyyatın müxtəlif sahələri üzrə fəaliyyət göstərən iş adamları iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, forumun açılış tədbirindən əvvəl Azərbaycan Respublikası hökuməti və Monteneqro Respublikası hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan tərəfindən həmsədri - əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Monteneqronun Baş naziri Duşko Markoviçi və digər qonaqları forumda təqdim edilən Azərbaycan stendi ilə tanış edib, ölkəmizin iqtisadi inkişafı, ixrac imkanları, mühüm iqtisadi layihələri və s. barədə məlumat verib.

Forumun açılışında çıxış edən S.Babayev hər iki tərəfin işgüzar dairələri arasında baş tutacaq bugünkü görüşün Azərbaycan və Monteneqronun iqtisadi əməkdaşlığının sərhədlərini daha da genişləndirəcəyinə və hər iki dövlətin biznes potensialının inkişafı üçün yeni imkanlar yaradacağına ümidvar olduğunu deyib.

Nazir Azərbaycanın Monteneqroda ən böyük investorlardan biri olduğunu deyib, Azərbaycan şirkətləri və investorlarının fəaliyyətinin həyata keçirilməsi üçün əlverişli mühitin yaradılması və saxlanılmasına görə Monteneqro hökumətinə təşəkkürünü ifadə edib. O, bank, energetika, turizm və digər sahələrdə yeni layihələrin həyata keçirilməsi barədə də davamlı danışıqlar aparıldığını, Monteneqronun Herseq-Novi şəhərində “Azmont İnvestments” şirkəti tərəfindən turizm kompleksinin tikinti işlərinin davam etdirildiyini, 2016-cı ildən Monteneqroda Azərbaycan bankı olan “Nova Bank”ın fəaliyyət göstərdiyini qeyd edib.

İki ölkə arasında ticarət əlaqələrinin inkişaf etdirilməsinin iqtisadi əməkdaşlığın əsas istiqamətlərindən biri olduğunu deyən nazir bu sahədə dinamik artım tempini statistik məlumatlar əsasında diqqətə çatdırıb. Bildirib ki, əsas məqsəd ticarət həcmini daha da artırmaq və onun strukturunu şaxələndirməkdir. Azərbaycan-Monteneqro Hökumətlərarası Komissiyası bu istiqamətdə ciddi işlər aparacaq ki, bu da, öz növbəsində, ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafına yeni təkan verəcək.

Nazir ümummilli lider Heydər Əliyevin müdrik siyasi kursunun 2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. O bildirib ki, iqtisadi və sosial sahədə mühüm nailiyyətlər əldə edən Azərbaycanın xarici iqtisadi əlaqələrinin coğrafiyası da genişlənib. Ölkənin ixrac imkanlarının artırılması, ticarətin əmtəə strukturunun təkmilləşdirilməsi məqsədilə sistemli tədbirlər həyata keçirilib. Bunun nəticəsidir ki, indiyə qədər Azərbaycan iqtisadiyyatına 260 milyard dollardan artıq investisiya yatırılıb ki, bunun da yarısı xarici investisiyaların payına düşür.

Ölkənin ixrac imkanlarının artırılması, “Made in Azerbaijan” brendinin xarici bazarlarda təşviqi, müxtəlif ölkələrdə Azərbaycan Ticarət evlərinin yaradılması və s. sahələrdə aparılan işləri qeyd edən S.Babayev yaxın zamanda Monteneqroda da Azərbaycan Ticarət Evinin açılacağına ümid etdiyini deyib. O, bugünkü görüşün turizmin inkişafına da yeni təkan verəcəyini və bu sahənin nümayəndələrinin qarşılıqlı faydalı layihələri müzakirə edə biləcəklərini diqqətə çatdırıb.

S.Babayev bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasət və görülmüş işlər nəticəsində cari ilin birinci rübündə ölkəmizdə ümumi daxili məhsul 3 faiz artıb və bu, son bir neçə il ərzində ən yüksək göstəricidir. Sənaye istehsalında 4,4 faiz, qeyri-neft sektorunda sənaye istehsalında 15,6 faiz, kənd təsərrüfatında 3,6 faiz, əhalinin gəlirlərində isə 5,5 faiz artım özünü göstərib. İnflyasiya aşağı səviyyədə - 2,1 faizdir. Ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayə yatırılıb, bunun 2 milyardı ölkəmizin qeyri-neft sektoruna yatırılıb. Cari ilin fevral ayının sonuna ölkəmizin valyuta ehtiyatları 47 milyard dollara yaxın olub.

Son illər ölkəmizdə qeyri-neft sektorunun davamlı və rəqabətqabiliyyətli inkişafı istiqamətində görülən mühüm işləri diqqətə çatdıran nazir Azərbaycanın xarici investorların fəaliyyəti üçün əlverişli investisiya məkanına çevrildiyini vurğulayıb. O, Azərbaycanda həyata keçirilən iqtisadi islahatların müsbət nəticələrinin beynəlxalq maliyyə qurumlarının hesabatlarında da öz əksini tapdığını, Dünya Bankı tərəfindən hazırlanmış “Doing Business” hesabatına əsasən 2018-ci ildə 57-ci yeri tutan Azərbaycanın 2019-cu ildə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşdığını deyib. Bildirib ki, Azərbaycan hesabat göstəricilərini yaxşılaşdırmış 10 ölkədən biri olub. Həmin 10 ölkə əsasən biznesin başlanması, kredit almaq və vergilərin ödənilməsi sahəsində 62 islahat həyata keçirib. Azərbaycan 10 göstəricinin 8-i üzrə islahatlar apararaq öz mövqeyini yaxşılaşdırıb və islahatların sayına görə dünyada birinci yeri tutub.

S.Babayev Azərbaycanla Monteneqro arasında iqtisadiyyatın bir çox sahələrində əməkdaşlıq imkanlarının geniş olduğunu vurğulayıb, hər iki ölkənin işgüzar dairələrini bu imkanlardan yararlanmağa və qarşılıqlı faydalı birgə layihələri həyata keçirməyə dəvət edib, biznes forumun bütün iştirakçılarına uğurlar arzulayıb.

Monteneqronun Baş naziri Duşko Markoviç çıxış edərək iki ölkə arasında dostluq münasibətlərinə əsaslanan əməkdaşlıq əlaqələrinin getdikcə genişlənməsinin məmnunluq doğurduğunu qeyd edib. O, Monteneqro iqtisadiyyatına investisiya qoyuluşuna görə Azərbaycanın ön sıralarda dayanan ölkə olduğunu diqqətə çatdırıb. Ölkəsinin Azərbaycanla bütün sahələrdə əlaqələrin inkişafına xüsusi önəm verdiyini və gələcəkdə ikitərəfli əməkdaşlığın daha geniş miqyas alacağına əminliyini bildirib.

D.Markoviç və digər çıxış edənlər hazırkı forumun, eləcə də Azərbaycan Respublikası hökuməti və Monteneqro Respublikası hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın bu gün Bakıda keçiriləcək ikinci iclasının qeyd olunan sahədə növbəti irəliləyişlərə imkan yaradacağını vurğulayıb.

# Azərbaycan və Monteneqro arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın yekunlarına dair protokol imzalanıb



Bakıda Azərbaycan Respublikası hökuməti və Monteneqro Respublikası hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın ikinci iclası keçirilib.

Birgə Komissiyanın həmsədrləri - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Monteneqro Respublikasının İqtisadiyyat naziri xanım Draqitsa Sekuliçdir.

AZƏRTAC xəbər verir ki, iclasda S.Babayev iki ölkə arasında 11 il əvvəl qurulan əlaqələrin inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə çatdığını, Monteneqronun Azərbaycanda diplomatik nümayəndəliyinin (2019-cu il aprel) açılışının bütün sahələrdə əməkdaşlığın dərinləşdirilməsinə və inkişafına təkan verəcəyini qeyd edib. O bildirib ki, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn müvafiq normalarına və dövlətlərin ərazi bütövlüyü çərçivəsində ədalətli həlli ilə bağlı Monteneqronun mövqeyini yüksək qiymətləndirir. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20 faizi işğal edilib və 1,2 milyon soydaşımız qaçqın və məcburi köçkün olub. Azərbaycan münaqişənin beynəlxalq hüquq normaları və prinsipləri, BMT Nizamnaməsi və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri çərçivəsində həllini dəstəkləyir. Bu məqsədə nail olmaq üçün Azərbaycanın işğal olunmuş əraziləri qeyd-şərtsiz azad edilməlidir, bu ərazilərdə Azərbaycanın suverenliyi tamamilə bərpa olunmalı və məcburi köçkünlər öz doğma torpaqlarına qayıtmalıdırlar.

S.Babayev vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə mühüm tarixi nailiyyətlər əldə edən Azərbaycan bu gün, eyni zamanda, Avropanın müasir dəyərlərini və Şərqin zəngin ənənələrini özündə birləşdirən yeganə cəmiyyətə malikdir. Cəmiyyətimizin bu xüsusiyyətləri Xəzər dənizi regionunda, eləcə də Mərkəzi Asiya ölkələrində Avropa dəyərlərinin inkişafında vacib rol oynayır. Bu baxımdan Avropanın vacib və etibarlı tərəfdaşı olan Azərbaycan Avropanın enerji təhlükəsizliyinə töhfəsini vermək üçün enerji ixracat marşrutlarını diversifikasiya edib. Azərbaycan və Monteneqro arasında əməkdaşlığa dair 17 sənəd imzalanıb, daha 5 layihə də hazırlanır.

Xanım D.Sekuliç ölkəsinin Azərbaycanla olan dost münasibətlərinin iki ölkə arasında bütün sahələrdə əlaqələrin geniş miqyas almasına səbəb olduğunu qeyd edib. O, bir çox sahələri əhatə edən əməkdaşlıq təcrübəsindən bəhs edərək, mövcud potensial müqabilində əməkdaşlığın genişlənməkdə davam edəcəyinə ümidvar olduğunu, bu istiqamətdə böyük perspektivlərə doğru məqsədyönlü işlərin aparıldığını bildirib. Xanım D.Sekuliç ilk iclasın müsbət nəticələrini, əməkdaşlıq müstəvisində birgə layihələri və bu sahədə gələcək prioritetləri qeyd edib, hazırda keçirilən iclasın səmərəli nəticələrinin olacağına əminlik ifadə edib.

İclasda ticarət, investisiya qoyuluşu, sənaye, enerji, nəqliyyat, kommunikasiya və İKT, əmək və sosial müdafiə, təhsil, kənd təsərrüfatı, turizm, mədəniyyət, ətraf mühitin mühafizəsi və digər sahələrdə əməkdaşlığın mövcud vəziyyəti və gələcək inkişafına dair müzakirələr aparılıb.

S.Babayev və D.Sekuliç iclasın yekunlarına dair protokolu imzalayıblar.

# Moskvada Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin 10 illiyi münasibətilə Mədəniyyət Günü keçirilib

İyunun 24-də Moskvada Azərbaycan Mədəniyyəti Günü keçirilib. Tədbir Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı (RAGB) tərəfindən bu qurumun 10 illiyi münasibətilə təşkil edilib. Heydər Əliyev Fondunun vitse-prezidenti, RAGB-nin sədri Leyla Əliyeva tədbirdə iştirak edib.











AZƏRTAC xəbər verir ki, Azərbaycan Mədəniyyəti Günü Moskvanın ən mənzərəli guşələrindən birində - M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin "Aptekarski oqorod" Nəbatat bağında keçirilib.

RAGB-nin sədri Leyla Əliyeva Azərbaycan Mədəniyyəti Gününün təntənəli açılış mərasimində çıxış edib. Leyla Əliyeva mərasim iştirakçılarını təşkilatın 10 illik yubileyi münasibətilə təbrik edərək deyib: "Çox xoşdur ki, bugünkü tədbir dünyanın ən gözəl bağlarından birində - MDU-nun Nəbatat bağında keçirilir. Bu bağı belə ecazkar edən nədir? Bu, Aleksey Reteyumun rəhbərlik etdiyi bütün kollektivin bitkilərə sevgi ilə qulluq etməsidir. Sevgi dünyanın bəzəyidir, onu daha xeyirxah, daha ədalətli və başlıcası, həqiqi edir. Buna görə də mənə xüsusilə xoşdur ki, Rusiyanın Azərbaycanlı Gənclər Birliyi (RAGB) sevgi deməkdir. Bu isə öz növbəsində o deməkdir ki, biz həmişə beləcə nurlu, xeyirxah və güclü olacağıq".

RAGB sədri bildirib ki, birlik 10 il ərzində çox böyük işlər görüb. Rusiya Federasiyasının 49 regionunda bu təşkilatın Azərbaycan gənclərinin 2500-dən çox təşəbbüskar və kreativ nümayəndələrini birləşdirən 55 bölməsi fəaliyyət göstərir. Leyla Əliyeva deyib: "Bizim faydalı layihə və tədbirlərimiz çoxdur, məsələn, RAGB-nin hər il keçirilən "Gələcəyə addım" və "İxtisas qazanılmasına kömək" mövzularında payız və qış liderlik məktəbləri. Bundan əlavə, RAGB gənclərin və tələbələrin 2017-ci ildə Soçidə keçirilmiş XIX Ümumdünya festivalının iştirakçısı olub. RAGB-nin bu tədbirdə iştirakı bizim işimizə verilən yüksək qiymətdir. Festival təcrübə və ideyalar mübadiləsi, yeni tanışlıqlar və dostluq əlaqələri qurulması üçün gözəl məkandır. Siz hər hansı şəxslə yalnız üzbəüz ünsiyyətdə olarkən onu tanıya, onun haqqında həqiqəti öyrənə bilərsiniz. Bu, həm də bizim gənclərin Azərbaycanın zəngin, qədim mədəniyyətini, tarixini və ənənələrini təbliğ etmək üçün bir fürsətidir".

RAGB sədri vurğulayıb ki, Azərbaycan ilə Rusiyanı ortaq tarix, mədəniyyət, habelə iki xalq arasında ənənəvi dostluq telləri birləşdirir. O deyib: "Azərbaycanda böyük rus mədəniyyətinə, incəsənətinə, ədəbiyyatına və poeziyasına dərin sevgi ilə yanaşırlar. Çox sevindirici faktdır ki, bizim gənclər Rusiya cəmiyyətinə inteqrasiya edir və eyni zamanda, öz ənənəvi köklərini qayğı ilə qoruyub saxlayırlar. RAGB-nin başlıca vəzifəsi xeyirxah və faydalı işlər görməkdir. Biz artıq neçə ildir ki, "Qanın milləti yoxdur" adlı təmənnasız qanvermə aksiyaları keçirir, təhsil əlaçılarını dəstəkləyir və həvəsləndirir, Rusiyada keçirilən peşə müsabiqələrində iştirak edir, "Nə? Harada? Nə vaxt?", Şən və Hazırcavablar Klubu (ŞHK) kimi populyar intellektual oyunlar təşkil edir, uşaq evlərinə, qocalar evlərinə baş çəkir, ehtiyacı olanların hamısına kömək əlimizi uzadırıq".

Leyla Əliyeva vurğulayıb ki, birliyin üzvləri sağlam həyat tərzinə xüsusi diqqət yetirməlidirlər. O deyib: "Təbiətin qoynunda çoxlu vaxt keçirən, sağlam qida qəbul edən, siqaret çəkməyən, idmanla məşğul olan, hərəkətdə olan, ən başlıcası, öz beynini mənfi informasiya və fikirlərlə doldurmayan insanın həkimə ehtiyacı olmayacaq, belə insan həmişə sağlam olacaq. Artıq neçə ildir ki, RAGB mini-futbol üzrə çempionat, Heydər Əliyev adına Kubok, RAGB Universiadası, idman oyunları və turizm toplantıları keçirir. Rusiyalı gənclər bizim bütün tədbirlərdə məmnuniyyətlə iştirak edirlər və buna görə mən sizə çox təşəkkür edirəm. Əminəm ki, bizim dostluğumuz daha da möhkəmlənəcək".

Bəşəriyyətin gələcəyinin bir sıra ekoloji problemlərin həllindən asılı olduğunu vurğulayan Leyla Əliyeva deyib: "Təbiət çoxdandır ki, bizə siqnal verir, bizim onu müdafiə etməyimizə çox ehtiyac var. Yer kürəsi bizim ümumi evimizdir, buna görə də planetimizin qorunub saxlanması və abadlaşdırılması məsələsi birgə həll edilməlidir. Soçidə bəbirlərin populyasiyasının bərpası mərkəzi ilə bizim ekoloqların birgə səyləri buna misaldır. Mən çox ümidvaram ki, biz vəhşi heyvanların bu nadir növünü qoruyub saxlamaq üçün əlimizdən gələni edə biləcəyik. Bizim IDEA Beynəlxalq kampaniyamız Həştərxanda körpə nərə balıqlarının Xəzər dənizinə buraxılması üzrə ekoloji tədbirdə iştirak edib. Çox ümid edirəm ki, biz ən qədim və maraqlı heyvanlardan biri olan Xəzər nərəsinin populyasiyasını bərpa edə biləcəyik. Bu yaxınlarda biz Vyaçeslav Fetisovla birlikdə Azərbaycanda nərə balıqlarını Xəzər dənizinə buraxdıq. İnsan bunu öz əli ilə edəndə keçirdiyi hissləri sözlə ifadə etmək çətindir".

RAGB sədri ümidvar olduğunu bildirib ki, birliyin üzvləri ağacəkmə aksiyası keçirəcəklər. O deyib: "Bu günə qədər IDEA Azərbaycanda 5 milyondan çox ağac əkib. IDEA suya qayğıkeş münasibət və plastik tullantıların ətraf mühitə təsiri mövzusunda seminarlar keçirir. Ən başlıcası, hər birimiz yadda saxlamalıyıq ki, əgər biz öz həyat tərzimizə bəzi dəyişikiliklər etsək, onda özümüz təbiətin və planetin qorunmasına çox böyük töhfə verə bilərik".

Leyla Əliyeva vurğulayıb ki, RAGB-nin qapıları milliyyətindən, dini etiqadından və yaşından asılı olmayaraq hər kəsin üzünə həmişə açıqdır. RAGB sədri sonda deyib: "Bu qapılar xeyirxah işlər görməyi, dünyamızın daha parlaq və daha yaxşı olmasını arzu edən hər kəs üçün açıqdır. Biz bir insana yaxşılıq edəndə, ilk növbədə, özümüzə hədiyyə edirik. Arzum budur ki, biz həmişə birlikdə olaq və dostluğumuzu genişləndirək. Ən başlıcası, hər birimiz özümüzə inanaq, öz qəlbimizin səsini eşidək, heç vaxt ümidsizliyə qapılmayaq və ruhdan düşməyək. Yadda saxlayın, səhvlər onun üçündür ki, biz daha yaxşı olaq, axı həqiqətən, səhv etməyən insan irəliyə getmir. Özünüzə, bizə, yaxşılığa, işığa, sevgiyə inanın. Həyata inanın, çünki bu, bizim malik olduğumuz ən qiymətli nemətdir. Tanrı bizim hamımıza cansağlığı, xoşbəxtlik və bol sevinc bəxş etsin. Tanrı bizim ölkələrimizə uğurlar və firavanlıq bəxş etsin!"

M.V.Lomonosov adına MDU-nun rektoru Viktor Sadovniçi çıxış edərək dedi ki, bu gün MDU-nun Nəbatat bağında mühüm bir hadisə baş verir, çünki bu hadisə gəncliklə bağlıdır. Rektor Azərbaycan Prezidentinin Bakıda MDU-nun filialının açılmasına göstərdiyi köməyə görə ona təşəkkürünü bildirib. "Filial gözəl ali təhsil müəssisəsidir. O, yeni ərazidə tikilib, onun kampusu unikaldır, filialda oxuyan tələbələr isə Moskva Universitetinin diplomunu alırlar. Əlbəttə, bu, ölkənin elm və təhsil elitasıdır. Mən taleyimdən çox razıyam ki, Heydər Əliyev ilə şəxsən tanış olmaq şərəfinə nail olmuşam. Onunla görüşlərimdən biri barədə danışmışam. Protokol üzrə bu görüş üçün 20 dəqiqə planlaşdırılırdı, amma biz iki saatdan çox söhbət etdik, həyatımızın hələ Sovet İttifaqı dövrünə aid çoxsaylı epizodlarını xatırladıq. Heydər Əliyev mənim nəzərimdə nurlu insandır, Azərbaycan tarixində onun rolunu yaxşı başa düşürəm" deyən Viktor Sadovniçi daha sonra vurğuladı ki, RAGB öz qarşısına çox nəcib məqsəd və vəzifələr qoyur. Rektor dedi: "İstərdim ki, xeyirxahlıq, gözəllik naminə çalışan, ekologiyanı xilas edən təşkilatlar çox olsun".

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu çıxış edərək dedi: "Çox vacibdir ki, Rusiyada yaşayan azərbaycanlıların yeni nəsli özlərini bu böyük ölkənin vətəndaşları kimi hiss etsinlər, işləsinlər, inkişaf etsinlər". Səfir daha sonra dedi: "Leyla xanım gənclərin üstünlük verməli olduğu dəyərləri çox düzgün təyin etdi. Bu gün biz bu gözəl bağda buraya gələrkən Leyla xanımla fikir mübadiləsi etdik ki, bu gözəl bağa hökmən Azərbaycandan gətirilmiş ağacları hədiyyə etmək lazımdır, bu ağaclar bitəcək, bizim xalqlarımızın və dövlətlərimizin dostluğunun rəmzinə çevriləcək. Arzum budur ki, RAGB bundan sonra da Leyla Əliyevanın rəhbərliyi ilə fəal işləsin".

BMT-nin Ətraf Mühit Proqramının xoşməramlı səfiri, əfsanəvi xokkeyçi Vyaçeslav Fetisov Bakıya səfəri barədə söhbət açdı və qeyd etdi ki, həmin səfər müddətində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ilə ekologiya barədə çox söhbət edib. V.Fetisov dedi: "Leyla Əliyeva uzun illərdir ki, bu məsələ ilə məşğul olur. Mən BMT-nin ətraf mühit üzrə səfiri kimi deyə bilərəm ki, gənclər bizim hamımızı gələcək barədə düşünməyə və ola bilsin, gələcəyə münasibətdə bütün dünya nizamını dəyişməyə məcbur edəcək. Leyla Əliyeva dedi ki, Yer kürəsi bizim ümumi evimizdir. Mən Leylaya təşəkkür edirəm ki, o, həyatın mənasını anlayır. RAGB-nin son on ildə gördüyü işlər hər kəsə nümunədir".

V.Fetisov qeyd etdi ki, Bakıya hər dəfə böyük məmnuniyyətlə gedir. Əfsanəvi idmançı dedi: "Bakıya çoxdan vurulmuşam, hər dəfə oraya gələndə başa düşürəm ki, Azərbaycan xalqının qonaqpərvərliyi bu xalqın həyat tərzidir".

Mədəniyyət Günü çərçivəsində RAGB fəallarının mükafatlandırılması mərasimi keçirilib. RAGB-nin sədri Leyla Əliyeva fərqlənənlərə "RAGB-nin ən fəal könüllüsü", "RAGB-nin ən uğurlu idmançısı", "Ən yüksək müvəffəqiyyət dərəcəsi olan tələbə", "Ən fəal regional bölmələr", "Təşkilatın həyatında səmərəli fəaliyyətinə görə" nominasiyalarında xatirə diplomları təqdim edib.

Bayram tədbiri ustad dərslərinin, sərgilərin keçirildiyi, milli atributlar, musiqi alətləri, geyimlər və xalçalarla bəzədilmiş xüsusi fotozonaların təşkil olunduğu bir neçə məkanda davam edib. Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin fəaliyyəti ilə tanış olmaq üçün "AMOR" jurnalının 10 il ərzində çapdan çıxmış nömrələrinin, habelə Azərbaycan klassiklərinin kitablarının təqdim edildiyi oxucu guşəsi yaradılıb.

Tədbir "Qolos" layihəsinin finalçısı Emil Qədirovun, "Qolos deti" şousunun finalçısı Azər Nəsibovun, "Qarabağ" rəqs ansamblının iştirakı ilə açıq səma altında konsertlə başa çatıb.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Çeçenistanın başçısı Ramzan Kadırovla görüşündən danışıb

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Minskdə keçirilən II Avropa Oyunları çərçivəsində Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovla görüşündən danışıb.




AZƏRTAC "Vestnik Kavkaza" agentliyinə istinadla xəbər verir ki, Leyla Əliyeva Azərbaycan Respublikası və Çeçenistan Respublikası arasında ekologiya və ətraf mühitin mühafizəsi sahəsində yeni birgə layihələrin hazırlanıb həyata keçiriləcəyinə ümidvar olduğunu bildirib.

"Bizim aramızda qısa və təsadüfi görüş oldu. Ramzan Kadırov çox xoş, səmimi və pozitiv insandır" deyən Leyla Əliyeva Çeçenistan başçısının bu görüşdən sonra özünün Vkontakte səhifəsində Azərbaycan haqqında yazdığı sözlərdən sevindiyini qeyd edib.

Leyla Əliyeva Çeçenistana səfər edəcəyinə ümidvar olduğunu bildirib. Heydər Əliyev Fondunun vitse-prezidenti qeyd edib: "Biz birlikdə bir çox sahələrdə, o cümlədən ekologiya və ətraf mühitin mühafizəsi üzrə xeyirxah işlər görə bilərik. Həmçinin himayəyə ehtiyacı olan uşaqlarla bağlı birgə fəaliyyət göstərmək olar. Ümidvaram ki, Heydər Əliyev Fondu adından həmin respublikaya səfərim və bu cür birgə layihələrdə iştirakım mümkün olacaq".

Heydər Əliyev Fondunun vitse-prezidenti əlavə edib: "Mən bilirəm ki, Çeçenistanda musiqiyə böyük qiymət verirlər, axı məhz musiqi dünyanı gözəlləşdirir. Ona görə də bu respublikada konsert də təşkil etmək olar".

Qeyd edək ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovla Minskdə keçirdiyi görüş haqqında Çeçenistan rəhbərinin Vkontakte səhifəsində bəhs edilib. Ramzan Kadırov vurğulayıb ki, Azərbaycan ən yaxın qonşu və Rusiya üçün dost ölkədir. O yazıb: "Dövlətlərimiz arasında bütün sahələrdə ən yaxın əlaqələr yaranıb və inkişaf edir. Bu, Rusiya və Azərbaycanın liderləri - prezidentlər Vladimir Putin və İlham Əliyevin böyük xidmətlərinin nəticəsidir. Mənimlə İlham Heydər oğlu arasında olduqca səmimi münasibətlər formalaşıb. Ona görə də Minskdə Azərbaycan Milli Məclisinin Sədri Oqtay Əsədov və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ilə görüşməyimə çox şad oldum. Leyla İlham qızı gözəl təhsilli, ziyalı qız kimi bütün həyatını dünyada xeyirxahlıq və şəfqət ideyalarının yayılmasına həsr edib və bu yolda böyük uğurlar əldə edib. O, İslam Konfransı Təşkilatının Gənclər Forumunun baş əlaqələndiricisidir. Leyla İlham qızı şeirlər yazır, jurnal redaktorudur. Bütün bunlar Azərbaycanın dünyada müsbət imicinin yaranmasına kömək edir. Mən İlham Heydər oğlu ilə görüşlərimlə bağlı öz xatirələrimi minnətdarlıq hissi ilə bölüşdüm. Biz Azərbaycan və Çeçenistan arasında dostluq əlaqələrinə yeni təkan vermək barədə razılıq əldə etdik. Bu il Leyla İlham qızını Qroznıda qarşılamağa şad olacağıq, mədəni, idman və humanitar əlaqələri genişləndirəcəyik".

# UNESCO-ya üzv ölkələrin Milli Komissiyalarının fəaliyyəti barədə illik hesabat dərc olunub

Məlum olduğu kimi, UNESCO-nun katibliyi tərəfindən hər il təşkilata üzv ölkələrin Milli Komissiyalarının fəaliyyəti haqda "Milli Komissiyaların İllik Hesabatı" dərc olunur.

Bu nəşrin məqsədi Milli Komissiyalar arasında informasiya və ən yaxşı təcrübələrin paylaşılması, eyni zamanda, onların yerli, regional və beynəlxalq səviyyədə gördüyü işləri və UNESCO ideyaları haqda ictimaiyyəti və təşkilatları məlumatlandırmaqdan ibarətdir.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sözügedən illik hesabatın 2018-ci ilin yekunlarına həsr olunan buraxılışında UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının da fəaliyyəti əks olunub.

İllik hesabatda 2018-ci ilin ölkəmiz ilə UNESCO arasında dinamik inkişaf əlaqələrinin bir sıra mühüm hadisələrlə yadda qaldığı vurğulanır və bu səpkidə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın 2018-ci il mayın 18-də Fransaya səfəri və səfər çərçivəsində təşkilatın baş direktoru Odre Azule ilə görüşü və UNESCO-nun keçmiş baş direktoru Koişiro Matsuuranın 80 illik yubileyində çıxış etməsi qeyd olunur.

Eyni zamanda, illik hesabatda həyata keçirilən bir sıra qarşılıqlı rəsmi səfərlərə də diqqət yetirilir. Belə ki, ötən il oktyabrın 25-26-da keçirilmiş VI Bakı Beynəlxalq Humanitar Forumunda UNESCO-nun baş direktorunun müavini Xinq Qunun iştirakı, tədbirin açılış mərasimindəki çıxışı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qəbul edilməsi və xarici işlər naziri Elmar Məmmədyarov ilə görüşü barədə məlumat verilir.

İllik hesabatda ötən il ərzində həyata keçirilən bir sıra uğurlu tədbirlərdən və əldə olunan yeni nailiyyətlərdən bəhs olunur. Ötən müddətdə ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunan rəsm sərgisi, Milli Komissiyanın illik görüşü, Beynəlxalq Caz Günü ilə bağlı tədbir, ölkəmizin UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinə üzv seçilməsi, Bakının Dünya İrs Komitəsinin 43-cü sessiyasına evsahibliyi etməsi qərarı və AR xarici işlər nazirinin müavini Ramiz Həsənovun rəhbərlik etdiyi nümayəndə heyətinin 2018-ci ilin 26 noyabr - 1 dekabr tarixlərində Mavriki Respublikasının Port Luis şəhərində keçirilən UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 13-cü sessiyasında iştirak etməsi və sessiya zamanı "Çövkən-ənənəvi Qarabağ atüstü oyunu" faylı ilə bağlı milli hesabatımızın qəbul olunması, eyni zamanda, "Dədə Qorqud/Korkyt Ata/Dede Korkut irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" adlı çoxmillətli nominasiyanın siyahıya daxil edilməsi qeyd olunur.

İllik hesabatda uğur hekayəsi kimi, UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 13-cü sessiyası zamanı "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" adlı nominasiyasının Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilməsi və adıçəkilən qrup rəqsləri haqda məlumat verilib.

Hesabatın sonunda isə 2019-cu ildə Milli Komissiyanın yaradılmasının 25 illiyi münasibətilə qeyd olunacaq silsilə tədbirlərdən və onun gələcək fəaliyyətindən bəhs edilir.

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və müavinləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq iyunun 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Şəki, sədrin müavinləri Səyavuş Heydərov Qəbələ, Gündüz İsmayılov isə Oğuz rayonunda vətəndaşları qəbul ediblər.

AZƏRTAC xəbər verir ki, qəbullarda vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maariflәndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Qəbula gələn vətəndaşların müraciət və təklifləri diqqətlə dinlənilib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində konkret tapşırıqlar verilib.

* * *

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin rəhbərliyi tərəfindən növbəti vətəndaş qəbulları keçirilib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin və onların müavinlərinin şəhər və rayonlarda 2019-cu ilin iyun ayında vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, iyunun 25-də Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə Oğuz rayonunda, nazirin birinci müavini Əli Abdullayev Qəbələdə vətəndaşlarla görüşüb.

Nazirin qəbulunda Oğuz və Şəki rayonları, nazirin birinci müavininin qəbulunda Qəbələ sakinlərinin müraciətlərinə baxılıb.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin rəhbərliyi nəqliyyat, telekommunikasiya, poçt xidmətləri və digər məsələlərlə bağlı vətəndaşları dinləyib.

Bir sıra vətəndaş müraciətləri yerindəcə öz müsbət həllini tapıb. Araşdırılması tələb olunan müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq həlli ilə əlaqədar nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib.

Eyni zamanda, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin fəaliyyət sahələrinə aid olmayan müraciətlər müvafiq qurumlara ünvanlanması üçün qeydiyyata alınıb.

* * *

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin iyun ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, iyunun 25-də Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədr müavinləri Zakir Quliyev Salyan rayonunda, Rafiq Aslanov isə Hacıqabul rayonunda vətəndaşları fərdi qaydada qəbul ediblər.

ASC-dən AZƏRTAC-a bildirilib ki, müraciətlər əsasən suvarma suyuna tələbatın ödənilməsi, yeni subartezian quyularının qazılması, nasos stansiyalarının tikintisi və təmiri, suvarma kanallarının lildən təmizlənməsi və müxtəlif məsələləri əhatə edib.

Sədr müavini Zakir Quliyev Salyan rayonunda keçirdiyi qəbulda 13, sədr müavini Rafiq Aslanov isə Hacıqabulda 14 vətəndaşı qəbul edib.

Qəbulda hər bir vətəndaşın müraciətini dinləyən Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədr müavinləri şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə məsul işçilərə müvafiq tapşırıqlar veriblər. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll edilib, araşdırılmasına ehtiyac olan müraciətlər isə nəzarətə götürülüb.

Azərbaycan dövləti də güclü dövlətdir, ordusu da güclü ordudur. Azərbaycan Ordusu, Azərbaycan əsgəri, zabiti böyük işlərə qadirdir, qəhrəmandır.

İlham ƏLİYEV

GILAN HOLDING

Azərbaycan xalqını və ordusunu

26 İyun - Silahlı Qüvvələr Günü

münasibətilə təbrik edir, Ali Baş Komandanın hər bir əmrinə müntəzir olan rəşadətli ordumuzun əsgər və zabitlərinə Böyük Qələbə sevinci arzulayır



# Güclülər sırasında yer alan Azərbaycan Ordusu

*Əvvəli 1-ci səh.*

Hələ 2003-cü ildə andiçmə mərasimindəki nitqi zamanı Prezident İlham Əliyev deyirdi: *“Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir”.*

Ötən 16 il Azərbaycanda bütün sahələrdə Heydər Əliyev ideyalarının zəfər çalması ilə əlamətdardır. Hər bir sahədəki yüksəliş, inkişaf göstəriciləri ulu öndərin müəyyən etdiyi strateji kursun Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurlu davamının məntiqi nəticəsidir. Ordu quruculuğu da bu sırada xüsusilə diqqəti çəkir. Bu dövrdə Azərbaycan Ordusu regionun ən qüdrətli hərbi gücünə çevrilib və İlham Əliyevin hələ 16 il əvvəl qarşıya qoyduğu məqsədlər bu gün real həyatda öz təcəssümünü tapır.

Azərbaycanda ordu quruculuğunun müasir standartlara uyğun həyata keçirilməsinin, döyüş hazırlığının ən müasir tələblərə cavab verə biləcək səviyyəyə çatdırılmasının prioritet vəzifələr kimi müəyyənləşdirilməsi ölkə ictimaiyyəti tərəfindən razılıqla qarşılanır. Çünki ordu məsələlərinə yüksək diqqət yetirilərək onun gücləndirilməsi Ermənistanla aparılan danışıqların ölkəmiz üçün ədalətli şəkildə yekunlaşmayacağı təqdirdə, işğal altında olan ərazilərin azad edilməsi üçün Azərbaycanın üstünlüyünü təmin edir. Ermənistanda bunu yaxşı bilir və haqlı olaraq narahatlıq keçirirlər. 2016-cı ilin aprel hadisələri bunun əyani təsdiqi oldu. Atəşkəs rejimi ərzində ayrı-ayrı vaxtlarda cəbhə xəttində düşmən tərəfindən təxribatlar çox olub və bunların hər birinin qarşısı ordumuz tərəfindən qətiyyətlə alınıb. Aprel hadisələri zamanı isə cəbhənin Tərtər və Füzuli istiqamətlərində baş verənlər, yəni erməni hərbi birləşmələrinin təxribatlarının qarşısının alınması zamanı keçirilən hərbi əməliyyatlar Azərbaycan Silahlı Qüvvələrinin gücünün praktik təsdiqi oldu.

Naxçıvanda Günnüt kəndinin işğaldan azad olunması və Ermənistanla sərhəddə strateji yüksəkliklərin ələ keçirilməsi Azərbaycan Silahlı Qüvvələrinin 2016-cı ilin Aprel qələbəsindən sonra növbəti zəfəri oldu. Xalq Cümhuriyyətinin və ordumuzun yaradılmasının 100-cü ildönümünə təsadüf edən bu hadisə cəmiyyətimizin xoş ovqatını daha da artırdı, düşmən üzərindəki qələbə gününün o qədər də uzaqda olmadığını göstərdi. Hər birimiz növbəti dəfə ordumuzdakı qalibiyyət əzminin şahidi olduq.

Azərbaycan vətəndaşları Silahlı Qüvvələrimizdə baş verən keyfiyyət və kəmiyyət dəyişikliklərini ordumuzun keçirdiyi təntənəli hərbi paradlarda da görüb. Ölkəmizin hərbi qüdrətinin nümayişi olan belə paradlarda xalqımız və beynəlxalq ictimaiyyət Azərbaycanın mükəmməl hərbi gücə malik olduğuna şahidlik edib. Təsdiq olunub ki, Azərbaycan Ordusu arsenalını ən modern silah və digər hərbi texnika ilə zənginləşdirir. Və dünyanın hərbi baxımdan inkişaf etmiş dövlətlərinin malik olduqları strateji silahlar ölkəmizdə də var. Ən müasir tanklar, piyada döyüş maşınları, zirehli transportyorlar, zenit raket sistemləri, artilleriya qurğuları, reaktiv yaylım atəşi sistemləri, taktiki raket və minaatan kompleksləri, ağır odatan sistemlər, pilotsuz uçuş aparatları və digər texnikalar Azərbaycana öz hərbi potensialını əhəmiyyətli dərəcədə yüksəltməyə imkan verib. O cümlədən hava hücumundan müdafiə sistemimiz hava məkanımızı inamlı şəkildə nəzarətdə saxlayır. Bu istiqamətdə ordumuzun döyüş qabiliyyəti ən yaxşı silah istehsalçılarının texnologiyaları ilə güclənib.

Bu gün Azərbaycanın güclü ordusu var. Dünyanın 50 ən güclü ordusu sırasında yer alan Azərbaycan Silahlı Qüvvələri müasir texnika ilə təchiz edilmiş, qarşısında duran bütün vəzifələri həll etməyə qadir, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam-intizama malik qüdrətli, peşəkar və mübariz hərbi gücdür. Ordu quruculuğu prosesi isə davamlıdır. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında bu işlər səngimədən, dayanmadan, sürətlə və uğurla davam etdirilir. Təbii ki, ölkəmizin iqtisadi inkişafı dərinləşdikcə, dövlətimizin maliyyə imkanları çoxaldıqca ordumuz daha da qüdrətlənəcək. Ən əsası sülh danışıqları nəticə verməyəcəyi təqdirdə Azərbaycan Ordusu öz şərəfli missiyasını layiqincə yerinə yetirəcək.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

## Monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyunun 25-də Ağdam rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç, Saymon Tiller və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun (YSPQ) nümayəndəsi polkovnik-leytenant Harri Okonnor keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru, Gennadi Petrika, Martin Şuster və YSPQ-nin nümayəndəsi polkovnik-leytenant Ralf Bosshard aparıblar.

## Qoşunların təmas xəttində nisbi sakitlik müşahidə olunub

Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.

GCM GLOBAL ENERGY AZERBAIJAN

“Global Energy Azerbaijan” şirkəti və onun törəmə şirkətləri

“Absheron Operating Company”
“Binagadi Oil Company”
“Karasu Operating Company”
“Shirvan Operating Company”
“Neftechala Operating Company”

26 İyun - Silahlı Qüvvələr Günü

münasibətilə Azərbaycan xalqını təbrik edir, işğal altında olan torpaqların tezliklə azad olunmasını arzulayır!

# Dövlətin sosial siyasətinin davamlı olduğu növbəti dəfə təsdiqləndi

## Prezidentin yeni sərəncamları 2 milyondan çox insanın rifahının daha da yaxşılaşdırılmasını təmin edəcək

*Əvvəli 1-ci səh.*

Bu ilin əvvəlində sözügedən paketlə minimum əməkhaqqı və minimum pensiyalar təxminən 40 faiz, sosial müavinətlər orta hesabla 2 dəfə, məcburi köçkünlərə verilən müavinət 50 faiz artmışdır. Artım eləcə də tələbələrin təqaüdündə, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə verilən müavinətlərdə özünü göstərmişdir.

Xatırladaq ki, keçən il prezident seçkilərindən sonra dövlət başçısının imzaladığı ilk fərman şəhid ailələrinin sosial müdafiəsi ilə bağlı oldu. Fərmanın icra edilməsi 12 mindən çox şəhid ailəsinin dövlət tərəfindən 11 min məbləğində vəsait alacağını nəzərdə tuturdu ki, bu da öz müsbət həllini tapdı. Daha bir önəmli məsələ problemli kreditlərlə bağlı idi. Bu məsələ də dövlətimiz tərəfindən cari ildə yüksək səviyyədə həll olundu.

Bütün bu və ya digər tədbirlər Azərbaycan dövlətinin siyasətinin mərkəzində vətəndaşın dayandığını sübut edir. Bu siyasət təkcə maaşların, pensiyaların, təqaüd və müavinətlərin artırılması ilə ifadə olunmur. Gündəmdə duran vacib məsələlərdən biri yeni iş yerlərinin yaradılmasıdır və bu proses də uğurla davam etdirilir. Son 15 ildə 2 milyon yeni iş yeri yaradılıb. Prezident İlham Əliyev iş yerlərinin yaradılmasının daimi proses olmasını prioritetlərdən biri kimi elan edib: “İş yerlərinin yaradılması üçün sərmayə qoyuluşu əsas vəzifədir. Dövlət tərəfindən yaradılan iş yerləri, sadəcə olaraq, sosial xarakter alır. Biz bunu edirik və edəcəyik. Ancaq bu missiyanı özəl sektor sərmayə qoyuluşu hesabına öz üzərinə götürməlidir. Sərmayə qoyuluşu olmasa, iş yerləri necə yaradıla bilər?! Dövlət daim iş yerlərini yarada bilməz. Biz, sadəcə olaraq, işsizliyin azaldılması üçün bu işləri görürük. Bildirməliyəm ki, bu il 40 min ödənişli ictimai iş yeri açılır. Mənə verilən məlumata görə, artıq 35 min insan bu il ödənişli ictimai işlərlə təmin edilib. Bu, yenə də deyirəm, sosial təşəbbüsdür, sosial dəstəkdir”.

Əhalinin rifahına yönəldilən əməli tədbirlərdən biri də məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasıdır. Son illərdə ölkənin müxtəlif şəhər və bölgələrində bu insanlar üçün yüzdən çox şəhərcik salınıb. Təkcə keçən il 5800-dən çox məcburi köçkün ailəsinə yeni evlər və mənzillər verilib. Bu göstərici ondan əvvəlki illərdə verilən ev və mənzillərin sayını üstələyib. Bununla yanaşı, şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün 620-dən çox mənzil təqdim edilib. Bu proses də davamlıdır. Yəni cari ildə də bir sıra məcburi köçkünlərin mənzil şəraiti yaxşılaşdırılacaq.

Dövlətin siyasətinin mərkəzində Azərbaycan vətəndaşının sosial təminatının və rifahının dayandığını özündə ehtiva edən digər addım, Prezidentin cari ilin iyun ayında imzaladığı çoxsaylı sərəncamlardır. Bu sərəncamlar 2 milyondan çox insanı əhatə etməklə, həm dövlət orqanlarında, həm də özəl sektorda çalışan insanların maddi vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq. Belə ki, həmin sərəncamlardan birinə əsasən, minimum əməkhaqqının məbləği 40 faizə yaxın artırılaraq 250 manata çatdırılıb. Qeyd edək ki, bu, özəl sektorda çalışan 350 min vətəndaşla yanaşı, dövlət sektorunda Vahid Tarif Cədvəli əsasında əməkhaqqı alan 600 minə yaxın insanın əməkhaqqının artmasına səbəb olacaq.

İmzalanmış sərəncamlar, eləcə də dövlət qulluqçularının aylıq vəzifə maaşlarının 50 faiz, hərbi və hüquq mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin əməkhaqlarının 40 faiz artırılmasını təmin edəcək. Dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin vahid aylıq vəzifə maaşlarının orta hesabla 20 faiz artırılması nəzərdə tutulub. Dövlət büdcəsindən maliyyələşən digər təşkilatlarda çalışan əməkçilərin aylıq vəzifə maaşları indikindən orta hesabla 40 faiz artıq olacaq. Bu təşkilatların sırasında AMEA-nın Rəyasət Heyəti və aparatı, Gəncə bölməsinin aparatı, Heydər Əliyev Mərkəzi, “Azərbaycan Milli Ensiklopediyası” Elmi Mərkəzi və digərləri var.

Nazirlər Kabinetinə sözügedən vəzifə maaşlarının bu il sentyabrın 1-dən artırılmasını təmin etmək tapşırılıb.

Bütün bunlar Prezident İlham Əliyevin bəyan etdiyi sosial islahatların başlıca prinsipi, iqtisadi sahədə əldə edilmiş böyük uğurların sosial sferaya transformasiyası, ölkə vətəndaşlarının rifahına qayğının göstəricisi deməkdir. Bunlar ölkədə dövlət-vətəndaş etimad mühitini dərinləşdirir və Azərbaycanda aparılan sosial siyasətin alternativsiz olduğunu göstərir.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

## Ön cəbhədən reportaj

# Qafqazın modernləşən və qüdrətlənən ordusu

### 101 illik yubileyini təntənə ilə qeyd edən Azərbaycan Silahlı Qüvvələrinin ön xətdəki hər bir əsgərinin qələbə əzmkarlığı, döyüş ruhu çox yüksəkdir

*Əvvəli 1-ci səh.*

Avtomobildən düşəndə sanki havanın temperaturu bir anlıq bizi payıza qaytarır. Bu da əlbəttə ki, təbiidir, dağlar qoynunda yayın istisi o qədər də hiss olunmur axı...

Hava kimi hərbi hissə ilə ilk tanışlıq da xoş təsir bağışlayır. Çünki hərbi hissə sosial infrastrukturu, maddi və hərbi-texniki təchizatı, hərbi təyinatlı tikililəri səliqə-sahmanı, təmizliyi ilə diqqəti çəkir. Düşmənlə üz-üzə dayanan əsgər və zabitlərin bütün zəruri ehtiyacları çətin dağ relyefinin imkan verdiyi qədər nəzərə alınıb.

Hərbi hissənin şəxsi heyəti tribunanın qarşısındakı sıra meydanında düzülüb. Komandanlığın hərbi salamından sonra tapşırıqlar verilir və bölüklər, taqımlar müxtəlif istiqamətlərə hərəkət edərək döyüş tapşırığı, sıra və atəş hazırlığı məşğələlərinə başlayırlar. Biz isə hərbi hissə ilə ətraflı tanış oluruq.

Hərbi hissə komandirinin ideoloji və mənəvi-psixoloji təminat üzrə müavini, zabit Rüfət Məmmədov deyir ki, hərbi hissə müstəqilliyin bərpasından sonra yaranan ilk hərbi hissələrdən biridir. Birinci Qarabağ müharibəsində cəbhənin müxtəlif istiqamətində şəxsi heyətinin göstərdiyi böyük şücaətə görə adını hərb tariximizin şanlı səhifəsinə yazdıran bu hərbi hissənin döyüş yolu təlatümlü olsa da, haqqında fəxrlə danışa biləcəyimiz tarixçəsi var. Çətin döyüş tapşırıqlarını yerinə yetirərək bir çox yüksəkliklərin, vacib ərazilərin düşməndən geri qaytarılmasında böyük qəhrəmanlıq göstərən hərbi hissənin əsgər və zabitləri müxtəlif orden və medallarla təltif ediliblər. Azərbaycan torpaqlarının müdafiəsi uğrunda gedən döyüşlər zamanı iki hərbçisi şəhid olub.

Son illərdə isə hərbi hissənin yüzlərlə zabiti qüsursuz xidmətə görə müxtəlif dərəcəli medallarla təltif olunub.

### Təkbaşına iki erməni əsgərini girov götürən igid

İlk tanışlığa qərargahdan başlayırıq. Qərargah binasında Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna diqqət və qayğısını, hərbçilərlə görüşlərini əks etdirən fotostendlər, müxtəlif hərbi kitablar, Milli qəhrəmanların şəkilləri, Aprel döyüşləri zamanı geri qaytarılmış ərazilərin görüntülərindən ibarət guşə yaradılıb.

Əsgərlərin hərbi hazırlıq səviyyəsinin yüksəldilməsinə xidmət edən xüsusi hərbi təlimatlar, döyüş tapşırığı planı, eyni zamanda divar qəzeti maraq doğurur. Divara vurulmuş lövhələrdə Silahlı Qüvvələrin hərbi andının və Azərbaycanın Dövlət himninin mətnləri ilə tanış olmaq mümkündür.

Əməliyyat növbətçisi, zabit Zaur Gülüyev çox diqqətlidir. Çünki tez-tez ön xətdən düşmənin atəşkəsi pozması ilə bağlı xəbərlər daxil olur. Növbətçi həmin məlumatları dərhal komandanlığa məruzə edir. 2012-ci ildən orduda zabit kimi xidmət edən hərbçi həm də Aprel döyüşlərinin iştirakçısıdır. 4 günlük müharibə zamanı artilleriya batareyasında bölmə komandiri kimi çalışan zabit düşmənin Talış yüksəkliyi istiqamətindəki əks-hücumunun qarşısının alınmasında bölmə ilə bərabər qəhrəmanlıq göstərib: "Tapşırığa uyğun olaraq düşmənin hücumunun qarşısını almalı idik. Həm atıcı silahlar, həm də minaatanlardan istifadə etməklə tapşırığı yerinə yetirdik. 20-yə yaxın düşmənin canlı qüvvəsini məhv etmişdik. Bu döyüşlərdən sonra bizdə əminlik yarandı ki, düşməni istənilən zaman Azərbaycan torpaqlarından qovmağa məcbur edə bilərik. İndi hər bir hərbçinin arzusudur ki, Ali Baş Komandan İlham Əliyevin verəcəyi hücum əmrinin iştirakçısı olsun".

Nizami hissənin kargüzarlıq xidmətinin də işi bir qədər çətindir. Bütün əmrlər, raportlar, məktublar və digər sənədlər burada yazılır. Burada xidmət edən gizir Rəşad İsayev deyir ki, bu işdə diqqətli olmaq vacib şərtlərdən biridir. Çalışdığı müddətdə heç bir səhvə yol verməyib.

Zabit Rüfət Məmmədov diqqətimizə çatdırır ki, Rəşad İsayev 2009-cu ildə Ali Baş Komandan tərəfindən "İgidliyə görə" medalı ilə təltif edilib. Amma bu işində deyil, təmas xəttində göstərdiyi şücaətə görə. Səbəbini öz dilindən eşidək: "Mən 6 il ön xətdə manqa komandiri, post başçısı kimi xidmət etmişəm. 2009-cu ildə bir hadisə baş verdi. Həmin vaxt manqa komandiri idim. Müşahidə apararkən gördüm ki, 2 erməni əsgəri bizim əraziyə keçib. Dərhal manqaya hazırlıq komandası verdim. Ancaq gördüm ki, erməni əsgərlərinin başı yaman qarışıb. Özümdən asılı olmadan səngərdən çıxıb onlar tərəfə qaçmağa başladım. Gizlənə-gizlənə qaçırdım ki, görməsinlər. Bir neçə dəqiqəyə onlara çatdım və ilk zərbəmlə birini yerə sərdim. İkincisi üstümə gəldi və əlbəyaxa olduq. Onu da zərərsizləşdirmişdim. Amma qaçmağa can atırdılar ki, arxadan manqamın bir əsgəri özünü yetirib silahı onlara tərəf tuşladı. Hər ikisini gətirib komandanlığa təhvil verdik. Müdafiə Nazirliyinə məruzə edildi və Ali Baş Komandanımız tərəfindən "İgidliyə görə" medalı ilə təltif edildim.
















Rəşad İsayev bundan sonra Aprel döyüşlərində də manqa komandiri kimi iştirak edib. Düşmənin qəfil hücumunun qarşısının alınmasında ön xətdə olan hərbçilərimizə dəstək olub.

Cəbhə xəttinə, döyüş tapşırığını yerinə yetirən hərbi hissələrimizə hər dəfə baş çəkib. Vətənin belə igid oğullarını tanıdıqca həqiqətən çox qürurlanır insan. Azərbaycan Silahlı Qüvvələri sırasında yüzlərlə belə mərd, igid oğullarımız var. Hələ neçə-neçə belə qəhrəmanlar tanıyacağıq.

### Dayanıqlı rabitənin təmini vacib şərtlərdən biridir

Qərargahdan ayrılıb rabitə qovşağına baş çəkirik. Növbətçi telefonçu, əsgər İntiqam Qəniyev çox diqqətlidir. Növbətçi hərbi hissə komandanlığının bölmələrlə əlaqəsini təmin edir. Gün ərzində növbəli şəkildə döyüş növbətçiliyi təşkil edilir.

Rabitə növbətçisi, gizir Rəşad Allahverdiyev gün ərzində qovşaq növbətçisi kimi bütün növ rabitənin təşkil olunmasına nəzarət edir. Fasilələr yarandıqda dərhal komandanlığın vasitəsilə tədbirlər görür.

Qovşaq rəisi, zabit Məmməd Qasımov vəzifəyə yeni təyin olunub. Ancaq buna baxmayaraq işində çox tələbkar və məsuliyyətlidir. Gün ərzində rabitənin dayanıqlığının təmin edilməsi işini peşəkarlıqla yerinə yetirir.

Zabit deyir ki, burada daha çox növbətçi telefonçu diqqətli olmalıdır. Çünki mütəmadi olaraq komandanlıq müxtəlif bölmələrlə əlaqə yaradır. Növbətçinin fikri dağınıq olarsa, verilən tapşırığı düzgün icra edə bilməz. Ona görə də rabitəçi əsgərlərə ciddi təlimatlar verilir, vaxtlı-vaxtında istirahətləri təmin edilir.

### Nizam-intizam sıra hazırlığından başlayır

Sıra meydanında da bir qrup şəxsi heyət plana uyğun olaraq sıra hazırlığı və atış məşqi ilə məşğuldur. Kənardan sıra hazırlığı məşğələsini izləyirik. Əsgərlərin nizami addımlarla hərəkəti, rəisə yaxınlaşaraq hərbi salam vermələri şəxsi heyətin nizam-intizamlı olmasından xəbər verir.

Yüksək nizam-intizam hərbi hissənin qarşısına qoyulan ilkin tələblərdən biridir. Şəxsi heyətin nizam-intizamını və sıra vərdişlərini təkmilləşdirmək məqsədilə sıra hazırlığı məşğələsi keçirilir.

Zabitin elan etdiyi fasilədən yararlanaraq onlarla həmsöhbət oluruq. Bölmə komandiri, zabit Namiq Quliyev 7 ildən artıqdır ki, hərbi qulluqçu kimi xidmət edir. Bugünkü dərsin məzmununa gəldikdə isə, zabit deyir ki, hər bir əsgər üçün vacib olan prosesdən biri də sıra hazırlığıdır. Çünki nizam-intizam birinci növbədə sıra hazırlığından başlayır: "Ona görə də hər həftə təyin olunmuş vaxtda sıra meydanında müxtəlif mövzularda sıra hazırlığı ilə məşğul oluruq. Bugünkü məşğələdə əsgərlərə səfər və sıra addımlarının fərqini, rəisə hərbi salam vermə qaydalarını və sırada duruş qaydalarını öyrədirik. Artıq məşğələmizin əsas hissəsi bitib. Sonda şəxsi heyət tribuna qarşısından sıra addımlarıyla keçərək bacarıqlarını nümayiş etdirəcək. Burada əsas məsələ addımların və qolların hərəkətidir. Verilən əmri cəld və düzgün yerinə yetirsən, o, səndə vərdiş halı alacaq".

Əsgər Alim Şahverənli bir neçə aydır xidmətdə olmasına baxmayaraq, kifayət qədər bilik əldə etdiyini deyir. Biləsuvar rayonundan hərbi xidmətə çağırılan əsgər sıra hazırlığını döyüş hazırlığının vacib elementi hesab edir: "Zabitlərimizin keçdikləri dərslərdə hamımız fəal iştirak edirik. Sıra hazırlığında öyrəndiklərimiz təntənəli mərasimlərdə, bayram günlərində sərbəst olmağımıza, həyəcansız tribuna önündən keçməyimizə kömək edir. Buradan əsl hərbçi kimi evimizə yollanmaq istəyirəm".

Artıq bir ildir ki, burada hərbi xidmətdə olan əsgər Yunus Rzayev isə deyir ki, sıra hazırlığı olmayan bir bölmənin döyüş hazırlığından danışmaq olmaz. Çalışırıq ki, bütün dərslərdə olduğu kimi, sıra hazırlığı məşğələsində də yüksək əzmkarlıq göstərək. Özünüz də görürsünüz ki, əsgərlərin dərslərə böyük həvəsi var".

Həqiqətən də müşahidələrimiz əsgərlərin sıra hazırlığının yüksək səviyyədə olduğunu deməyə əsas verir. Ancaq onu da qeyd etməliyik ki, təkcə bu hərbi hissədə deyil, bütün ordumuzda döyüş hazırlığının digər növləri kimi sıra hazırlığı da yüksək səviyyədədir. Buna həm keçirilən paradları, həm də tədbirlərdə yüksək nizam-intizamı ilə sırada dayanan şəxsi heyəti nümunə göstərmək olar.

### Kazarmalardakı səliqə-sahman, əsgərin informasiya təminatı

Əsgərlərlə söhbətləşdikdən sonra kazarmalara baş çəkirik. Ön cəbhədə hərbi hissənin əsgər kazarmalarındakı səliqə-sahmana və təmizliyə də söz ola bilməz. Burada hərbi qulluqçuların istirahəti üçün hər cür şərait var. Əsgərlərin şəxsi bacarığının üzə çıxarılması məqsədilə yaradılan guşələrdə onların yaradıcılıq nümunələri, divar qəzeti, Aprel döyüşlərində şəhid olan hərbi qulluqçuların, Milli qəhrəmanların fotoları, hərbi qaydalar haqqında stendlər asılıb.

Əsgər çarpayıları yüksək keyfiyyətli döşəklərlə və yastıqlarla təchiz olunub. Eyni zamanda hərbçilərin televiziya vasitəsilə həm informasiya təminatı ödənilir, həm də maraqlarında olan verilişləri izləmələri təmin edilir.

Belə ucqar yerdə normal infrastruktura malik kazarma, isti və soyuq suyu olan hamam və sanitariya qovşağının, hərbi tələblərə cavab verən yeməkxananın inşa olunması xoş təəssürat yaradır. Bu, hərbi hissənin komandanlığının düşmənlə təmas xəttində hərbi xidmət keçən əsgər-zabit heyətinin maddi-texniki və hərbi təchizatına əsasnamədə nəzərdə tutulmuş ciddiliklə, son dərəcə məsuliyyətlə yanaşmasının göstəricisidir.

### Əsgərin qida rasionu

Nahara az qalır. Bir azdan şəxsi heyət hərbi orkestrin barabanının müşayiəti ilə yeməkxanaya doğru irəliləyəcək. Biz isə yeməkxanadakı hazırlıq prosesini izləməyə yollanırıq. Burada da səliqə-sahmana və təmizliyə tam riayət edilir. Bütün avadanlıqla təchiz edilmiş yeməkxanada mətbəx, təsərrüfat otaqları, eləcə də ərzaq və əşya anbarları yaradılıb. Hərbi hissələrdə şəxsi heyətin qidalanmasının keyfiyyətinin yaxşılaşdırılması və bişirilən yeməklərin çeşidinin artırılması məqsədilə milli yeməklərin hazırlanmasına üstünlük verilir. Qadın aşpazların qayğıkeş münasibəti sayəsində yeməklər ev yeməyindən heç də fərqlənmir.

Şəxsi heyət üçün normaya uyğun olaraq gündə üç dəfə yemək hazırlanır. Günortanın qida rasionu artıq hazırdır - mərci şorbası, mal ətindən hazırlanmış kotletlə qarabaşaq süzməsi, soyuq qəlyanaltı, meyvə şirəsi.

Şəxsi heyət üçün hazırlanan gündəlik yeməyin çeşidi zəngindir. Səhər qida rasionunda hər gün kərə yağı, pendir, meyvə cemi, yumurta, şirin çay mütləqdir. Bundan başqa müxtəlif günlərdə səhərlər südlü düyü, vermişel sıyığı, çəkilmiş mal əti ilə qarabaşaq, südlü makaron, pomidor-yumurta, kolbasa verilir.

Nahar rasionu da çoxçeşidlidir. Həftənin müxtəlif günlərində çeşidi dəyişməklə sulu yeməklərdən mərci, lobya, noxud, yaşıl noxud şorbası, borş, küftə, mal və toyuq ətindən souz, bozbaş hazırlanır. Quru yeməklərdən qovrulmuş ətlə makaron, qarabaşaq, düyü, vermişel, kartof qızartması, mal və toyuq ətindən kotlet, kələm dolması bişirilir.

Şam yeməyində isə lobyalı düyü, qarabaşaq qiymə ilə, balıq konservi, kartof püresi, düyü sıyığı və qızartma balıq olur. Həmçinin hərbçilər mövsümi tərəvəz salatları və şirələrlə təmin edilirlər.

Yeməkxananın rəisi, gizir Coşqun Quliyev deyir ki, bayram günlərində qida rasionu bir qədər də zənginləşir. Bayramlarda əsgərlərə plov, küftə-bozbaş, kartof qızartması ilə kotlet, kələm və ya tərəvəz dolması, qızartma toyuq əti, mövsümə uyğun salatlar, meyvə şirələri verilir.

Burada üç növbəli sistemlə mülki işçilər çalışırlar. Əksəriyyəti qadındır.

Bişirilən yeməklərin dadına gəldikdə isə, bunu əsgərlərin xörəkləri necə iştahla yediklərindən hiss etmək mümkün idi. Birlikdə süfrə arxasına əyləşdiyimiz əsgərlərdən Nahid Nəzərov, Zəlimxan Əliyev və Fuad Vəliyevin etiraflarından da bəlli olur ki, həqiqətən burada bol çeşidli yeməklər çox dadlı bişirilir. Hərbi xidmətə başladıqları gündən yeməklə bağlı problem yaşamayıblar.

Əlbəttə ki, ön xətdəki hərbi hissədə yaradılmış bu şərait şəxsi heyətin yüksək mənəvi-psixoloji ovqatda köklənməsinə, döyüş və mübarizə əzminə də müsbət təsir göstərir.

### Mənəvi-psixoloji cəhətdən möhkəm, fiziki cəhətdən güclü

Bir qədər istirahətdən sonra bölmələrin müxtəlif ərazilərdə məşğələləri başlayır. Bir neçə bölmə isə sıra meydanında atış məşqi keçir. Bu məşğələ zamanı əsgərlərə müxtəlif vəziyyətlərdə silahdan nişanalma qaydaları öyrədilir. Məşğələlər yekunlaşdıqdan sonra idman saatı başlayır.

Şəxsi heyətin fiziki sağlamlığının təmini məqsədilə yaradılmış idman şəhərciyində lazımi idman qurğuları quraşdırılıb. Ümumiyyətlə, düşmənlə təmas xətti özünəməxsus çətinlikləri, ciddi nizam-intizamı ilə seçilir. Burada xidmət keçən əsgər və zabitlərin mənəvi-psixoloji cəhətdən möhkəm, fiziki cəhətdən güclü olması vacib şərtlərdəndir. Elə bu səbəbdən də fiziki hazırlığa xüsusi önəm verilir.

Əsgərlər zabitlərin göstərişləri ilə müxtəlif hərəkətləri yerinə yetirirlər. Kimisi qaçır, kimisi turnikdə, kimisi paralel qollarda məşq edir. Bütün bunlar hərbçiləri daha sağlam, gümrah saxlayır.

Hərbçilərimizin əzmkarlığı bizim də əhvalımızı yüksəldir və xoş təəssüratla hərbi hissəni tərk edirik.

### Azərbaycan əsgərinin baxışları qələbə ovqatını ifadə edir

Əlbəttə ki, bütün bunlarla tanışlıq zamanı Azərbaycan Ordusunun yüksək inkişaf mərhələsində olduğunu bir daha görür, fəxarət hissi keçirirsən. Bu inkişaf orduda aparılan islahatların öz bəhrəsini verdiyini bir daha təsdiqləyir.

Elə bunun nəticəsidir ki, bu gün Azərbaycan əsgərinin baxışları qələbə ovqatını ifadə edir. Əsgərlərimizin döyüş əzmi, qələbə ruhu olduqca yüksəkdir. Hər biri Ali Baş Komandanın döyüş əmrinin intizarındadır.

Orduda döyüş hazırlığının yüksək tələblərə cavab verən səviyyəyə çatdırılmasını prioritet vəzifə kimi müəyyənləşdirən Ali Baş Komandan, Prezident İlham Əliyevin, müdafiə naziri general-polkovnik Zakir Həsənovun təmas xəttində yerləşən bölgələrimizə mütəmadi səfərləri, əsgərlərimizlə keçirdikləri görüşlər onları Vətəni qorumağa, işğal altındakı torpaqlarımız uğrunda hər an savaşa qalxmağa ruhlandırır. Bununla da güclü ordu potensialımız bizi əsas məqsədimizə, işğal edilən torpaqlarımızın azad olunmasına daha da yaxınlaşdırır. Hər bir əsgərin qayğısına qalan, onun döyüş ruhunu yüksəldən, maddi-texniki bazasını gündən-günə yaxşılaşdıran dövlət bütün imkanlarını bu istiqamətdə səfərbər edir.

Bu gün yaranmasının 101 illik yubileyini təntənə ilə qeyd edir Azərbaycan Ordusu. Dünyanın ən güclü 50 ordusu sırasında çəkilir Azərbaycan Ordusunun adı. Bu da sübut edir ki, tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan güclü iqtisadiyyatla yanaşı, peşəkar, modern orduya sahibdir. Peşəkar ordusu olan xalqın isə müstəqilliyi əbədidir və bu ordunun gücünün əsasında xalqına, dövlətinə sədaqət və Vətən sevgisi durur.

Bayramın mübarək, Azərbaycan əsgəri!

***Rəşad BAXŞƏLİYEV,***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***










# BMT-nin Dövlət Xidmətləri Forumu işini sessiyalarla davam etdirib

## Dayanıqlı İnkişaf Məqsədləri 16: şəffaflıq, inklüzivlik və iştirakçılıq ilə institutların daha səmərəli olmasını təmin etmək

Birləşmiş Millətlər Təşkilatının və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə keçirilən BMT-nin Dövlət Xidmətləri Forumu iyunun 25-də işini davam etdirib.

AZƏRTAC xəbər verir ki, forumun ikinci günü "Dayanıqlı İnkişaf Məqsədləri 16: şəffaflıq, inklüzivlik və iştirakçılıq ilə institutların daha səmərəli olmasını təmin etmək" mövzusunda interaktiv panel müzakirəli plenar sessiya ilə başlayıb.

BMT-nin İqtisadi və sosial məsələlər üzrə departamentinin Dövlət institutları və rəqəmsal hökumət sektorunda DİM şöbəsinin müdiri David Le Blankın moderatorluğu ilə keçən sessiyada Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova, BMT-nin Qadınlar Təşkilatının Avropa və Mərkəzi Asiya regionu üzrə direktoru Alia El Yassir, Liberiya Respublikasının Paynesvil şəhərinin meri Pam Belçer-Taylor və Bəhreyn Dövlət İdarəçilik Akademiyasının direktoru Raed Ben Şams çıxış ediblər.

Natiqlər müasir dövrdə dövlət xidmətləri sahəsində innovasiyaların tətbiqinə böyük ehtiyacın olduğunu vurğulayıb, Azərbaycanın "ASAN xidmət" modelini bu istiqamətdə yaxşı təcrübə kimi qiymətləndiriblər. Qeyd ediblər ki, dövlət xidmətlərinin göstərilməsi prosesinin təkmilləşdirilməsi sahəsində müxtəlif tədbirlər görülür. Bu sahədə vahid mexanizmin yaradılması üçün fikir mübadiləsi aparmaq və qazanılan təcrübələri paylaşmaq baxımından bu forum əhəmiyyətli platformadır.

Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün görülən işlərlə bağlı məlumatlılığın artırılması baxımından Bakı Forumunun əhəmiyyətini vurğulayan natiqlər tədbirin təşkilinə görə Azərbaycan hökumətinə təşəkkür ediblər. Vurğulanıb ki, bu məqsədlərə çatmaq üçün hökumətlər, media, yerli cəmiyyətlər və beynəlxalq təşkilatlar birgə fəaliyyət göstərməlidirlər. Bunun üçün yeni konsepsiyalar hazırlanmalıdır.

Sonda iştirakçıların sualları cavablandırılıb.

## Heç kim kənarda qalmadan inklüziv və bərabər xidmətlərin göstərilməsi

Forum çərçivəsində "Heç kim kənarda qalmadan inklüziv və bərabər xidmətlərin göstərilməsi" mövzusunda seminarın sessiyaları keçirilib.

Əvvəlcə Keniyanın su sektoru transformasiyasının əməkdaşı ölkəsi və onun təbiəti barədə məlumat verib. Sonra o, Keniyada yoxsul əhali üçün uğurlu sanitar xidmətin göstərilməsi ilə bağlı ərsəyə gətirdikləri layihə haqqında danışıb, bu istiqamətdə gördükləri işlərin nəticələrini diqqətə çatdırıb.

Braziliyada bələdiyyənin dəstəyi ilə həyata keçirdikləri layihə barədə məlumat verən braziliyalı nümayəndə tullantılarla bağlı proqram hazırladıqlarını deyib. O, bu proqram nəticəsində tullantı sektorunda çalışan şəxslərin iş şəraitinin daha da yaxşılaşdığını, tullantıların təkrar emalından daha çox gəlir əldə edildiyini söyləyib.

Avstraliyanın Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı da ilkin olaraq ölkəsinin təbiəti barədə danışıb. O bildirib ki, kənd təsərrüfatına vəhşi dovşanların vurduğu ziyanı aradan qaldırmaq üçün xüsusi proqram hazırlanır. Bu ziyanın həcmi kənd təsərrüfatı sahəsində böyük məbləğlərlə müşahidə edilir.

Prezident Administrasiyasının məsul əməkdaşı Vüsal Şıxəliyev Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın fəaliyyəti barədə iştirakçıları məlumatlandırıb. O bildirib ki, komissiyada 19 işçi qrup fəaliyyət göstərir və bu işçi qruplar da təkcə dövlət qurumları nümayəndələrindən deyil, həm də özəl sektorun, beynəlxalq təşkilatların və akademik dairələrin nümayəndələrindən təşkil olunub. Azərbaycanda iqtisadi siyasətin inklüzivliyi, açıqlığı və səmərəliliyi təmin edilir. Biznes mühiti və beynəlxalq reytinqlər üzrə komissiya çərçivəsində dövlət-özəl sektor dialoqunun forması, çərçivəsi, əhatə dairəsi müəyyənləşir.

Sonda iştirakçıların sualları cavablandırılıb.













## Dövlət sektorunda əlaqələndirilmiş yanaşmaların təmin olunması

"Dövlət sektorunda əlaqələndirilmiş yanaşmaların təmin olunması" mövzusunda seminarın növbəti iki sessiyası maraqlı müzakirələrlə yadda qalıb.

Avstriya Federal Kanslerliyinin ətraf mühit və dayanıqlı inkişaf üçün 2030 Gündəliyi sektorunun rəhbəri Ana Jakil-Holzerin moderatorluğu ilə keçən ilk sessiya iqlim dəyişikliklərinə həsr olunub.

Sessiyada çıxış edən ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev bildirib ki, dünyadakı 11 iqlim qurşağından 9-u Azərbaycanda müşahidə edilir: "Bu unikallığın üstünlükləri ilə yanaşı, çətinlikləri də var. Dünyada baş verən iqlim dəyişiklikləri ölkəmizdən də yan keçməyib. Son 30 il ərzində Azərbaycanda havanın orta temperaturu 1,4 dərəcə artıb. Bununla yanaşı, son 10 il ərzində Xəzər dənizinin səviyyəsi 1,2 metr azalıb.

Azərbaycanda 1847-ci ildə neft hasilatına başlanılıb. Bu proses dənizdə 1949-cu ildə həyata keçirilib. 170 illik tarixə malik neft hasilatı iqlim dəyişmələrində rol oynayıb. Xəzər dənizində 5 sahilyanı ölkə neft hasilatı ilə məşğuldur. Həmin ölkələr mənfi təsirlərin qarşısını almaq üçün birgə səy göstərməlidir.

Azərbaycan əhalisinin 40 faizi Bakıda və Abşeron yarımadasında məskunlaşıb. Neft hasilatının 70 faizi buradadır. Burada su ilə təminat məsələsi qarşımızda duran ən vacib məsələlərdən biridir. Bunun üçün yeni su mənbələrinin tapılması vacibdir. Həmçinin burada yaşıllıq az olduğu üçün yeni ağacların əkilməsinə ehtiyac var.

O vaxtlar neft hasilatı zamanı bütün proseslər primitiv üsullarla həyata keçirildiyindən Abşeron yarımadasında 100 min hektardan çox ərazi neftlə çirklənib".

Nazir həmçinin qeyd edib ki, atmosferə atılan tullantıların 70 faizdən çoxu avtonəqliyyat vasitələrinin payına düşür. Təkcə paytaxt Bakıda 700 min avtomobil var. Çirklənmənin qarşısını almaq üçün əhali maarifləndirilir, hibrid maşınlar, elektromobillərin istifadəsi təşviq edilir. Məqsəd atmosferə atılan zərərli qazların təsirini azaltmaqdır.

Avropa ölkələrində ətraf mühitin qorunması üçün ekoloji standartların mövcud olduğunu deyən nazir iqlim dəyişikliyinin qarşısının alınması üçün bütün ölkələrin ona riayət etməsinin vacibliyini vurğulayıb.

Liberiyanın Paynesvil Bələdiyyəsinin sədri Pam Belçer-Taylorun moderatorluğu ilə keçən ikinci sessiya dayanıqlı şəhərlər və icmalara həsr olunub.

Sessiyada çıxış edən Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Samir Nuriyev ölkədə şəhərsalma və memarlıq sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması istiqamətində görülmüş tədbirlər barədə məlumat verib. Sədr vurğulayıb ki, bu sahədə aparılan islahatların əsas məqsədi ölkədə davam edən urbanizasiya prosesinin və şəhərsalma fəaliyyətinin planlı və sistemli təşkil olunmasını təmin etməkdir.

Samir Nuriyev Azərbaycanın bu sahədə sistemli yanaşmasının beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirildiyini bildirib.

Komitə sədri ölkə şəhərlərinin dayanıqlı və sistemli inkişafını təmin etmək məqsədilə baş planların hazırlanması istiqamətində işlər görüldüyünü də diqqətə çatdırıb.

Sessiyalar zamanı həmçinin müxtəlif ölkələrin nümayəndələri öz təcrübələrini bölüşüb, görülən işlər barədə ətraflı məlumat veriblər.

## Səmərəli və məsuliyyətli dövlət qurumlarının inkişafı

Dövlət Xidmətləri Forumu çərçivəsində "Səmərəli və məsuliyyətli dövlət qurumlarının inkişafı" mövzusunda seminar işini sessiyalarla davam etdirib.

AZƏRTAC xəbər verir ki, seminarda Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olmaq üçün səmərəli və məsuliyyətli dövlət qurumlarının inkişaf etdirilməsi məsələsi müzakirə olunub.

BMT-nin İstanbul Regional Mərkəzində korrupsiyaya qarşı mübarizə və dövlət idarəçiliyi üzrə regional məsləhətçi İrakli Kotetişvilinin moderatorluğu ilə keçən seminarda çıxış edən Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın katibi Kamal Cəfərov Azərbaycanda korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi sahəsində həyata keçirilən tədbirlər haqqında məlumat verib. O bildirib ki, korrupsiyaya və onun mənfi təzahürlərinə qarşı mübarizə məsələləri müasir dövrümüzün ən aktual problemlərindən biridir. Korrupsiyaya və onun törətdiyi mənfi nəticələrə qarşı səmərəli mübarizə olmadan ictimai rifah, vətəndaş məmnuniyyəti və dayanıqlı inkişafdan danışmaq mümkün deyil. Ənənəvi antikorrupsiya tədbirləri həyata keçirmək üçün güclü siyasi iradə, ixtisaslaşmış təsisatlar olmalıdır və bu istiqamətdə fəaliyyətlər əlaqələndirilməlidir.

Tədbirdə çıxış edən müxtəlif ölkələrin nümayəndələri öz ölkələrində DİM-in tətbiqi, ölçülməsi, monitorinqi, o cümlədən onun korrupsiyaya qarşı mübarizə ilə bağlı məqsədlərinə dair məsələlərdən danışıblar. Onlar dövlət idarəçiliyində korrupsiyanın qarşısının alınması istiqamətində uğurlu təcrübə mübadiləsi aparmaq məqsədilə vasitələr təklif ediblər.

Seminar çərçivəsində "Bütün formalarda korrupsiya və rüşvətxorluğu əhəmiyyətli dərəcədə azaltmaq", "Hər səviyyədə effektiv, məsuliyyətli və şəffaf dövlət qurumlarının inkişaf etdirilməsi", "Hər səviyyədə operativ, inklüziv, iştirakçı və təqdim oluna biləcək qərarların verilməsini təmin etmək", "İctimai informasiyaya əlçatanlığı təmin etmək" mövzularında keçirilən sessiyalarda müzakirələr aparılıb, suallar cavablandırılıb.

## Dayanıqlı İnkişaf Məqsədləri üçün rəqəmsal transformasiyaya keçid

"Dayanıqlı İnkişaf Məqsədləri (DİM) üçün rəqəmsal transformasiyaya keçid" mövzusunda paralel seminarın sessiyalarında Dayanıqlı İnkişaf Məqsədlərinin və hədəflərinin tətbiqinin dəstəklənməsi üçün rəqəmsal hökumətin və qabaqcıl texnologiyaların necə istifadə ediləcəyi məsələsi nəzərdən keçirilib.

Seminarın əsas məqsədləri rəqəmsal hökumət sahəsində mövcud qlobal və regional tendensiyaların, o cümlədən dövlət sektorunda yeni texnologiyaların tətbiqinin DİM-ə nail olunmasında yardımçı, artan və sürətləndirici rolu ilə bağlı problemləri və imkanları təhlil etmək olub.

Elektron Hökumətin İnkişafı Mərkəzinin (EHİM) direktoru Fariz Cəfərov bildirib ki, cari ilin 1 iyun tarixindən "myGov" portalı fəaliyyətə başlayıb: "myGov" "mənim hökumətim" deməkdir. Yeni hökumət bütün xidmətləri vətəndaşa bir pəncərədən təqdim edir, əlçatanlıq təmin olunur. Vətəndaş heç yerə getmədən xidmətdən yararlana bilir. "myGov" portalının məqsədi reaktiv elektron hökumətdən proaktiv elektron hökumətə keçidi təmin etmək, təqdim edilən elektron xidmətlər vasitəsilə vətəndaşların işlərini asanlaşdırmaq, şəffaflıq və operativliyi təmin etməkdən ibarətdir".

EHİM-in direktoru qeyd edib ki, "qabaqlayıcı hökumət" konsepsiyası əsasında hazırlanmış portal şəxsi kabinet əsaslı olacaq və vətəndaşlara proaktiv xidmətlər göstərəcək: "Burada məqsəd vətəndaşların elektron xidmətlərin mövcudluğu barədə məlumatlandırılmasına nail olmaqdır. Bununla əlaqədar olaraq "ASAN xidmət"in rəqəmsal versiyasının formalaşması istiqamətində işlər gedir. Vətəndaşlar istəsələr, "ASAN xidmət"ə gəlib xidmətlərdən yararlana bilərlər. Həmçinin alternativ rəqəmsal platforma üzərindən həftənin 7 günü 24 saat ərzində xidmətlərdən istifadə edə bilsinlər".

Digər çıxış edənlər öz ölkələrində rəqəmsal transformasiyaya keçid sahəsində görülən işlərdən danışıblar.

## Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün gender əsaslı dövlət xidmətlərinin təşviqi

BMT-nin Dövlət Xidmətləri Forumu çərçivəsində təşkil edilən "Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün gender əsaslı dövlət xidmətlərinin təşviqi" mövzusunda seminar öz işini sessiyalarla davam etdirib.

Seminarın əsas məqsədi siyasətçilərin və təcrübəçilərin məlumat mübadiləsinin və potensialının gücləndirilməsinə kömək etmək, dövlət xidmətlərinin gender həssaslığını artırmaq üçün innovativ təcrübələr əsasında sahələrarası və ölkələrarası biliyi əhatə etmək, xidmətlərin bütün qadın və qızlara, xüsusən də müxtəlif ayrı-seçkilik formalarına məruz qalanlara çatmasının necə təmin oluna biləcəyini müzakirə etmək olub.

BMT-nin Qadınlar Təşkilatının Türkiyə ofisinin proqram meneceri Zeynəb Aydəmir Koyuncunun moderatorluğu ilə keçən sessiyada əvvəlcə gender bərabərliyinə həsr olunan videoçarx nümayiş olunub.

Daha sonra mövzu ilə bağlı müxtəlif suallardan ibarət interaktiv oyun təşkil edilib və sessiya iştirakçıları suallarla bağlı öz fikirlərini bölüşüblər.

BMT-nin Qadınlar Təşkilatının regional müşaviri Ermira Lubani, Serbiya üzrə rəhbəri Milana Rikanoviç çıxış edərək gender balansının qorunması, qadınların ictimai həyatda fəallığının artırılması istiqamətində görülən işlər, dövlət qurumlarının gender əsaslı dövlət xidmətləri, rolları və məsuliyyətləri üçün əsas çərçivələr barədə danışıblar.

## Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün həssas qrupların sosial müdafiəsi ilə bağlı yeniliklər

"Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün həssas qrupların sosial müdafiəsi ilə bağlı yeniliklər" mövzusundakı seminar çərçivəsində keçirilən sessiyalarda qərarvermədə, dövlət xidmətinin və ictimai xidmətin çatdırılmasında həssas qrupların roluna dair fikir mübadiləsi aparılıb.

BMT-nin ətraf mühitin inkişafı şöbəsinin müdiri Katinka Vaynbertgerin moderatorluğu ilə keçən seminarda çıxış edənlər Cənub-Şərqi Asiya və Sakit okean regionu ölkələrində rəqəmsal bərabərsizlik hallarının çoxluğu, Nepalda hökumət orqanları, bələdiyyələr və özəl sektorla birgə həssas qruplarla aparılan iş, Malayziyada sahibkarlıq subyektləri ilə əməkdaşlıq fonunda həyata keçirilən tədbirlər barədə danışıblar. Afrika Gənclər Komissiyasının sədri Natalya Mükundane ən həssas qruplara aid olan uşaq və gənclərə göstərilən diqqət və qayğı, həmin təbəqələrə məxsus olanlar arasında regionda mövcud olan stiqma, fiziki məhdudiyyətli gənclərin problemləri barədə məlumat verib.

Müzakirələr zamanı Koreyada həssas qruplardan sayılan ahıllar, xüsusilə qadınlara qarşı zorakılıq halları, sosial ayrı-seçkilik, həmin qrupa məxsus olanların bir qrupunun səhiyyə xidmətindən kənarda qalması, İndoneziyada zəka məhdudiyyətli insanlara göstərilən xidmətlər, onların üzləşdikləri problemlər, Sinqapurda ahıllar arasında həyata keçirilən fitnes, eləcə də rifah və qidalanma proqramları, sunami hadisələri zamanı vəziyyətdən çıxış yolları barədə bəhs olunub. Filippin Universitetinin professoru Benjamin Abalos fiziki məhdudiyyəti olanlara göstərilən səhiyyə xidməti, autizmli uşaqların cəmiyyətə inteqrasiyası, onların peşə hazırlığına cəlb edilməsindən danışıb.

Müzakirə olunan məsələlərlə əlaqədar sual-cavablar aparılıb.

## Dövlət qulluqçularının düşüncə tərzinin dəyişdirilməsinə kömək edən strategiya, bilik və amillər

BMT-nin Dövlət Xidmətləri Forumu çərçivəsində 2030-cu il Gündəliyinin həyata keçirilməsi üçün dövlət qulluqçularının tam hazırlanması mövzusundakı seminarın sessiyalarından biri "Strateji inkişaf hədəflərinin həyata keçirilməsi üçün dövlət qulluqçularının düşüncə tərzinin dəyişdirilməsinə və potensialın artırılmasına kömək edən strategiya, bilik və amillər" mövzusuna həsr edilib.

AZƏRTAC xəbər verir ki, sessiyanın moderatoru Birləşmiş Biznes İnstitutlarının dekanı professor Munira Aminova mövzunun aktuallığı barədə danışıb.

BMT-nin İctimai əlaqələr komitəsinin eksperti Lamiya Mobayed təmsil etdiyi beynəlxalq təşkilatın mövzu ilə bağlı həyata keçirdiyi layihələr barədə məlumat verib. O qeyd edib ki, dövlət qurumlarının qüsursuz fəaliyyət göstərməsi üçün əməkdaşlıq və inklüziv fəaliyyət önəmlidir.

BMT-nin proqram rəhbəri Adriana Alberti vurğulayıb ki, dövlət qurumları ilə cəmiyyət əməkdaşlıq şəraitində çalışmalıdır.

Beynəlxalq ekspert Stefan Mergenhaler bildirib ki, son dövrlərdə yeni texnologiya sayəsində dövlət qurumları müsbət dəyişikliklər edə bilər. Müasir dünyada dəyişikliklər sürətlə gedir. Dünyada fəaliyyət göstərən beyin institutlarının hazırladığı layihələrdə prosesin dayanmadan inkişaf etdiyini deyən Stefan Mergenhaler əlavə edib ki, bu, sosial və iqtisadi sahələri daha çox əhatə edir.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının iqtisadi idarəetmə ofisinin rəhbəri Faysal Naru bildirib ki, idarəetmə sistemində bir prinsip var ki, iqtisadçılar əldə olan vəsaiti hesablamalıdırlar. Siyasətçilər isə iqtisadçıların təqdim etdikləri rəqəmlərin düzgün idarəsini həyata keçirməlidirlər. Bu vəsait düzgün sərf edildikdə dövlət və cəmiyyət ortaq qazanc əldə etməlidir.

Avstraliyanın Kvinslend Universitetinin professoru Adil Xan qeyd edib ki, dövlət qulluğunda çalışarkən əsas məqsəd cəmiyyətə düzgün xidmət olmalıdır. Əməkdaşlıq şəraitində çalışdıqda problemlərin qarşısını almaq asan olur.

Finlandiyanın Sosial Təlim və İnkişaf Mərkəzinin direktoru Palvi Hirvola rəhbərlik etdiyi qurumun mövzu ilə bağlı reallaşdırdığı layihələr barədə məlumat verib. O bildirib ki, ölkəsində dayanıqlı inkişafla bağlı məsələlərin təbliği işi məktəblərdə aparılır. Bu məsələnin cəmiyyətdə tam yerini tutması üçün gələcək nəsillə iş aparılmalıdır.

Daha sonra seminar müzakirələrlə davam edib.

Ardı 8-ci səh.

# BMT-nin Dövlət Xidmətləri Forumu işini sessiyalarla davam etdirib





Əvvəli 7-ci səh.

## 2030-cu il Gündəliyi kontekstində hökumətin fəaliyyətinin qabaqcıl texnologiyaların gücü ilə əlaqələndirilməsi

BMT-nin Dövlət Xidmətləri Forumu çərçivəsində "Dövlət xidmətlərinin gələcəyi: 2030-cu il Gündəliyi kontekstində hökumətin fəaliyyətinin qabaqcıl texnologiyaların gücü ilə əlaqələndirilməsi" mövzusunda seminarın iyunun 25-də davamı olub.

Seminar çərçivəsində keçirilən sessiyada çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Aparat rəhbəri Azad Cəfərli Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə dövlət idarəetməsi sahəsində həyata keçirilən islahatlar, bu islahatların tərkib hissəsi olaraq "ASAN xidmət"in fəaliyyətə başlaması, habelə e-hökumət, İKTnin və innovativ həllərin dövlət xidmətlərinin göstərilməsi prosesində tətbiqi barədə danışıb. O, "ASAN xidmət"in uğurlu fəaliyyəti nəticəsində BMT-nin Dövlət Xidmətləri Mükafatına layiq görüldüyünü, Azərbaycanın bu brendinin Əfqanıstanda və Monteneqroda tətbiq olunduğunu qeyd edib, Özbəkistanla əməkdaşlığa başlanıldığını diqqətə çatdırıb.

Azad Cəfərli hazırda "ASAN xidmət"in 400-dən çox elektron xidmət göstərdiyini bildirib.

Əfqanıstanın "ASAN xidmət" idarəsinin baş direktoru Məhəmməd Çəmkənay Azərbaycanda "ASAN xidmət"in uğurlu fəaliyyətini qeyd edib, vətəndaşlara yüksək səviyyədə xidmət göstərildiyinin şahidi olduğunu diqqətə çatdırıb. O, Azərbaycanda olduğu kimi, Əfqanıstanda da "ASAN xidmət"in uğur qazanmasına çalışdıqlarını vurğulayıb. Məhəmməd Çəmkənay Əfqanıstanda "ASAN xidmət"in yaradılmasına dəstək verdiyi üçün Azərbaycana təşəkkür edib.

Yeni Zelandiyanın Vellinqton Viktoriya Universitetinin tədqiqatçısı Gisa Futai belə seminarların təşkilinin önəmli olduğunu deyib. Bildirib ki, bu cür müzakirələr hər bir ölkədə təhlükəsizlik və texnologiya sahəsinin inkişafına təkan verir. Qarşılıqlı əməkdaşlıq və səmərəli müzakirələr baxımından belə seminarların verdiyi töhfə böyükdür.

Seminar çərçivəsində keçirilən sessiyalarda "Hökumət üçün innovasiyalar", "Dövlət xidmətlərini təkmilləşdirə bilən texnologiyalar və innovasiyalar", "Ölkələrin dövlət idarəçiliyi, dövlət xidmətlərinin çatdırılması və qabaqcıl texnologiyaları üzrə təcrübələri" mövzularında çıxışlar olub.

## İnnovasiyaların gələcəyi: insan ölçüsünə alternativ olacaqmı?

BMT-nin Dövlət Xidmətləri Forumu çərçivəsində "İnnovasiyaların gələcəyi: insan ölçüsünə alternativ olacaqmı?" mövzusunda sessiya təşkil olunub.

Sessiyada Elektron Hökumətin İnkişafı Mərkəzinin Strateji inkişaf və kommunikasiya departamentinin rəhbəri Soltan Bayramov, "Ledgerstate" kompaniyasının yaradıcısı Jandricek Damir, Keyfiyyətə Nəzarət üzrə Amerika Cəmiyyətinin üzvü Sunil Thavani, "Third Millennium Governance" təşkilatının rəhbəri Jeremi Millard, Tailandın Dövlət Sektorunun İnkişafı Komissiyasının baş katibinin müavini Areepan Çaroensuk və başqaları çıxış edərək innovativ texnologiyaların imkanlarından, innovativ sistemlərin tətbiq olunmasının üstünlüklərindən danışıblar.

Sessiya müzakirələrlə və sual-cavabla davam edib.

## Yerli səviyyədə xidmətlərin səmərəli göstərilməsinin təkmilləşdirilməsi: çağırışlar və innovativ yanaşmalar

Forum çərçivəsində "Yerli səviyyədə xidmətlərin səmərəli göstərilməsinin təkmilləşdirilməsi: çağırışlar və innovativ yanaşmalar" mövzusunda sessiya təşkil olunub.

Tədbir Afrikanın Birləşmiş Şəhərlər və Yerli Hökumətlər Təşkilatının Afrika Yerli Hökumətlər Akademiyasının direktoru Nəcəf Zərrukun moderatorluğu ilə keçirilib.

ISESCO-nun Rabat ofisinin xarici əlaqələr və əməkdaşlıq üzrə idarəsinin direktoru Aycan Smaylova çıxış edərək Qazaxıstanda yaradılmış uğurlu elektron hökumət sisteminin təcrübəsi barədə məlumat verib. O, elektron hökumət çərçivəsində yaradılan portal vasitəsilə Qazaxıstan vətəndaşlarına bir çox dövlət xidmətlərinin rahat şəkildə göstərildiyini bildirib. Qeyd edib ki, Qazaxıstanın tətbiq etdiyi elektron hökumət sistemi Dünya İqtisadi Forumu və BMT-nin keçirdiyi bir çox sorğularda müsbət dəyərləndirilib və hətta ən uğurlu elektron hökumət sistemlərindən biri kimi mükafatlandırılıb.

Sessiyada Burkina Fasonun, Seneqalın, Uqandanın nümayəndələri də çıxış edərək ölkələrinin təcrübələri barədə danışıblar.

Çıxışlarda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında insan kapitalına sərmayə qoyulmasının önəmi qeyd edilib.

Həmçinin dövlət xidmətlərinin göstərilməsi sahəsində mövcud olan əsas problemlər araşdırılıb və innovativ transformasiya təşəbbüsləri ilə bağlı fikir mübadiləsi aparılıb.

## Forum çərçivəsində Qərbi Balkan ölkələri, Gürcüstan və Azərbaycandan öyrənilmiş təcrübələr müzakirə olunub

BMT-nin Dövlət Xidmətləri Forumu çərçivəsində "Xidmətlərin göstərilməsi, keyfiyyətin idarə olunması və liderlik rolunun əlaqələndirilməsi: Qərbi Balkan ölkələri, Gürcüstan və Azərbaycandan öyrənilmiş təcrübələr" mövzusunda tədbir təşkil olunub.

ReSPA tərəfindən təşkil olunan bu tərəfdaş tədbirdə Qərbi Balkanlarda dövlət xidmətlərinin göstərilməsinin inkişafı məsələsi araşdırılıb.

Tədbirin məqsədi Dayanıqlı İnkişaf Məqsədlərinin lokallaşdırılmasındakı mövcud problemlərin diqqətə çatdırılması, 2030-cu il Gündəliyinin həyata keçirilməsi üçün səmərəli qeyri-mərkəzləşdirilmiş idarəçiliyin necə qurulmalı olduğunun müzakirəsi olub.

Bu tədbir üç sessiyadan ibarət olub. Sessiyalar "Qərbi Balkanlarda dövlət xidmətlərinin göstərilməsi sahəsində vəziyyət", "Dövlət xidmətlərinin göstərilməsində ilhamverici hallar", "Dövlət idarəçiliyində liderlik və peşəkarlıq dövlət xidmətlərinə necə təsir edir?" mövzularında keçirilib.

Sessiyada çıxış edən Elektron Hökumətin İnkişafı Mərkəzinin direktoru Fariz Cəfərov Mərkəzin müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsini təmin etdiyini bildirib. O qeyd edib ki, Mərkəzin fəaliyyət istiqamətləri başlıca olaraq elektronlaşdırılmış dövlət xidmətləri, e-viza verilməsi və rəqəmsal ödəniş sistemləri üzrə xidmətləri əhatə edir. Qeyd olunan sahələrdə xidmət keyfiyyətinin yüksəldilməsi, xidmətdən yararlanmanın asanlaşdırılması və vətəndaş məmnunluğunun artırılması məqsədilə qabaqcıl beynəlxalq təcrübələr araşdırılıb və vətəndaş ehtiyacları nəzərə alınmaqla innovativ yeniliklər tətbiq olunub.

Direktor Elektron Hökumət portalı, "myGov" portalı, "ASAN Viza", "ASAN Ödəniş", "ASAN Finans", "e-Agro" və digər layihələr haqqında da məlumat verib.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov istənilən uğurun əsasında liderlik və peşəkarlığın dayandığını, bunun üçün isə insan resurslarının gücləndirilməsinin vacibliyini vurğulayıb. O bildirib ki, dövlət qulluqçuları üçün təlimlərin keçirilməsi bu istiqamətdə atılan faydalı addımlardandır. Rektor deyib: "2018-ci il Davos Forumunun hesabatında inklüziv inkişaf indeksinə görə Azərbaycan keçid iqtisadiyyatına malik ölkələr arasında 3-cü yerdə qərarlaşaraq, iqtisadi imkanları daha yüksək olan Avropa İttifaqı ölkələrinin çoxunu geridə qoyub. Həmçinin Dünya İqtisadi Forumunun təsisçisi və fəxri prezidenti Klaus Şvabın hazırladığı qlobal hesabatda Azərbaycan dünyanın ən səmərəli sosial siyasət həyata keçirən ölkəsi kimi xarakterizə edilib".

Tədbirdə çıxış edən xarici qonaqlar da öz ölkələrinin bu sahədəki təcrübələrindən danışıblar.

# Azərbaycanda əhaliyə xidmət işi dünyaya nümunə göstərildi

### Rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində BMT-nin xüsusi mükafatı Birinci vitse-prezident Mehriban Əliyevaya təqdim edildi

Əvvəli 1-ci səh.

Həmin vaxt xalqın tələbatlarına şəffaf, əlçatan, səmərəli və rahat şəkildə cavab vermək məqsədilə bir neçə dövlət xidmətləri göstərən qurum bir binaya toplaşdı. "ASAN xidmət" dərhal əhali arasında o qədər populyarlaşdı ki, biz bu uğurun davamı olaraq göstərilən xidmətlərin sayını və növünü çoxaltmaq fikrinə gəldik və "ASAN xidmət" Azərbaycanın rayonlarında da açılmağa başladı.

Nisbətən az müddət ərzində "ASAN xidmət"in insanların tələbatlarını həll etməkdə dövlət xidmətləri sahəsində yeni mədəniyyəti təqdim edən milli brendə çevrildiyini deyən Birinci vitse-prezident hazırda 10 "ASAN xidmət"in rayonlarda, 5-nin isə Bakıda fəaliyyət göstərdiyini bildirdi. Bu ilin sonuna qədər əlavə 5 "ASAN xidmət"in rayonlarda, 2-sinin isə Bakıda açılacağını diqqətə çatdıran Mehriban xanım Əliyeva dedi: "Görülmüş işlərin həcmi baxımından sizə bir rəqəmi təqdim edəcəyəm. 2013-cü ildən etibarən ASAN mərkəzlərində ölkə üzrə 30 milyondan artıq ərizəyə baxılmışdır. Bu gün həmin mərkəzlərdə 320 dövlət və özəl xidmət göstərilir. 12 müxtəlif dövlət qurumu və bir qrup özəl şirkətlər bir bina daxilində "ASAN xidmət"də təmsil olunurlar. Çox qısa müddət ərzində "ASAN xidmət" dövlət ilə vətəndaş arasında münasibətlərdə mərkəzi yeri tutdu".

"Vətəndaş rəyinin daimi monitorinqi bu layihənin uzun perspektivdə uğuruna xidmət edir" deyən Birinci vitse-prezident bu nailiyyətin digər səbəbinin gənclərimizin fəal və geniş şəkildə iştirakı ilə bağlı olduğunu söylədi. Mehriban xanım Əliyeva qeyd etdi ki, 2013-cü ildən başlayaraq 19 mindən artıq könüllü ASAN-ın işində iştirak edib. Onlardan 1100 nəfəri müxtəlif "ASAN xidmət"lərdə tam ştatlı işlə təmin olunmuşdur.

Birinci vitse-prezidentin çıxışında qeyd edildiyi kimi, ölkəmizin müsbət təcrübəsi beynəlxalq ictimaiyyətin də diqqətini cəlb etmişdir. Bu ilin əvvəlində birinci bənzər mərkəz Kabildə açılıb, Əfqanıstandan olan 100-dən çox ekspertə Azərbaycanda "ASAN xidmət" tərəfindən təlim keçirilib. İndiyədək ASAN-la müxtəlif ölkələr və beynəlxalq təşkilatlar arasında 10 anlaşma memorandumu imzalanıb. Bundan başqa, insanlara proaktiv elektron xidmətlərin göstərilməsi üçün Asan "myGov" portalı yaradılıb.

2016-cı ildə ölkəmizdə "ASAN xidmət"ın uğurlu davamı olaraq ABAD adı altında digər sosialyönümlü xidmət fəaliyyətə başlamışdır. ABAD Azərbaycanın regionlarında kiçik ailə təsərrüfatı bizneslərinə yardım etmək və kiçik sahibkarlığı inkişaf etdirmək məqsədini daşıyan publik hüquqi şəxsdir. Bu layihənin reallaşmasında məqsəd ölkənin sosial və iqtisadi inkişafına vətəndaşların daha fəal və yaradıcı şəkildə cəlb edilməsidir. 400-ə yaxın üzvü olan ABAD regionlarda işsizlik məsələsinin həlli üçün mühüm bir vasitədir.

Tədbirdə BMT Baş katibinin iqtisadi və sosial məsələlər üzrə müavini Liu Cenmin Azərbaycanın dünya birliyinə, dünya ictimaiyyətinə nümunə göstərilən iş təcrübəsindən söhbət açdıqdan sonra ölkəmizdə rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində BMT-nin xüsusi mükafatını Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya təqdim etdi.

Forumda Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, daha sonra İndoneziya Respublikasının Qunadarma Universitetinin rektoru və Özəl Universitetlər Assosiasiyasının vitse-prezidenti, professor xanım Eko Sri Margianti və digərləri vurğulamışlar ki, Azərbaycanda əhaliyə xidmət işi beynəlxalq ictimaiyyətin başlıca hədəflərindən birinə çevrilib.

**Rəhman SALMANLI,**
**"Azərbaycan"**

# AŞ PA-da azərbaycanlı mülki girovların məsələsi müzakirə olunub



Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) yay sessiyası çərçivəsində Ermənistan tərəfindən girov götürülmüş azərbaycanlı mülki şəxslər məsələsinə həsr edilmiş "İki azərbaycanlı mülki şəxsin humanitar məsələsi: Dilqəm Əsgərov və Şahbaz Quliyev" adlı tədbir keçirilib.

Azərbaycanın Ermənistan tərəfindən 1993-cü ildə işğal edilən Kəlbəcər rayonuna beş il əvvəl doğmalarının qəbrini ziyarətə getmiş mülki şəxslər Dilqəm Əsgərov və Şahbaz Quliyev erməni hərbçilər tərəfindən girov götürülüb, Həsən Həsənov isə qətlə yetirilib. Bu şəxslər Ermənistanın Azərbaycan torpaqlarında apardığı etnik təmizləmə siyasətinin qurbanlarıdır.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov tədbiri açaraq məsələ ilə bağlı məlumat verib. Nümayəndə heyətinin üzvü Ülviyyə Ağayeva, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov, Azərbaycanın Avropa İnsan Haqları Məhkəməsindəki (AİHM) səlahiyyətli nümayəndəsi Çingiz Əsgərov, Beynəlxalq Dialoq və İnkişaf Alyansının sədri Nüşabə Məmmədova çıxış ediblər.

Natiqlər doğmalarının qəbrini ziyarətə getmiş iki mülki azərbaycanlının girov götürülmə şəraiti, onların girovluqdakı vəziyyətləri, səhhətləri ilə bağlı ətraflı məlumat veriblər. Ermənistan tərəfindən 1949-cu il Cenevrə Konvensiyasının, ona əlavə protokolların müddəalarının, eləcə də beynəlxalq öhdəliklərin kobud şəkildə pozulduğunu bildiriblər.

Qeyd ediblər ki, D.Əsgərov və Ş.Quliyev girovluqda işgəncələrə məruz qalırlar. Onlar qanunsuz məhkəməyə gətiriləndə gözləri bağlı şəkildə silahlı hərbçilərlə müşayiət olunublar. Bütün bunlar İşgəncə və digər qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının kobud şəkildə pozulması deməkdir.

Tədbirdə Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzündən, nəticədə bir milyon azərbaycanlının tarixi doğma torpaqlarından didərgin düşdüyü diqqətə çatdırılıb. Qaçqın və məcburi köçkünlərlə bağlı həyata keçirilən dövlət proqramlarına, onlar üçün yaradılan infrastruktura baxmayaraq, bu insanların doğma yurdlarına qayıtmaq ümidi ilə yaşadıqları bildirilib.

Avropa Şurasının, onun Parlament Assambleyasının bu məsələyə laqeyd münasibətinə toxunularaq, azərbaycanlı girovların səhhətlərindəki problemlər nəzərə alınaraq təcili tədbir görülməsi ilə bağlı çağırışlar edilib.

Girov D.Əsgərovun oğlu Kürdoğlu Əsgərov atasının girov götürülməsindən, işgəncələrə məruz qalmasından, 2 ilə yaxındır ondan heç bir xəbər olmamasından danışıb. O, atasının səhhəti ilə bağlı ciddi problemlər olduğunu bildirərək, beynəlxalq təşkilatlara, Avropa İnsan Haqları Məhkəməsinə müraciət edərək atasının işi ilə bağlı tezliklə qərar qəbul etməyə çağırıb, əks-təqdirdə bu işə baxmağın gec olacağını bildirib.

Sonra Ermənistanın azərbaycanlılara qarşı apardığı etnik təmizləmə, eləcə də azərbaycanlı mülki girovlarla bağlı film nümayiş olunub.

Tədbir iştirakçıları insan hüquqları, demokratiya və qanunun aliliyi prinsipləri uğrunda mübarizə aparmağa çağırış ediblər. Bütün beynəlxalq təşkilatları, eləcə də Avropa Şurası və onun Parlament Assambleyasını girovlara yardım etməyə, separatizmə son qoymağa səsləyiblər.

Sonda azərbaycanlı girovlarla bağlı hazırlanmış və imzalanmış bəyanatın Avropanın bütün aidiyyəti institutlarına göndəriləcəyi bildirilib.

# Səməd SEYİDOV: "Etnik təmizləmə aparan, monoetnik ölkə demokratiyadan danışa bilməz"

"Bu gün həqiqətən də dialoqa, qarşılıqlı anlaşmaya ehtiyac var. Başa düşmək lazımdır ki, kommunikasiyasız Avropada, bu təşkilatın nəzdində və dünyada dostluq mühiti yaratmaq mümkün olmayacaq. Nifrətlə, etimad və hörmət olmadan, dəfələrlə bu zalda gördüyümüz bəzi lüzumsuz davranışlarla dostluq mühiti yaratmaq mümkün deyil".

Bu fikirləri Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov AZƏRTAC-a bildirib.

Səməd Seyidov qeyd edib ki, Azərbaycan dialoq, qarşılıqlı anlaşma sahəsində çox yaxşı bir nümunə ola bilər. Xalqlar, konfessiyalar arasında dialoqun təşkil olunması sahəsində zəngin təcrübəmiz var. Nümayəndə heyətinin rəhbəri bu yaxınlarda 10 illiyi qeyd edilən "Bakı Prosesi"nin əhəmiyyətini qeyd edib, onun dialoq sahəsində çox yaxşı platforma olduğunu diqqətə çatdırıb.

Səməd Seyidov müxtəlif dinlərin nümayəndələrinin bir araya gəlib bu tədbirdə gələcək münasibətlərini müzakirə etdiklərini vurğulayaraq, assambleyada da eyni yanaşmanı qəbul etməyin vacibliyinə toxunub: "Təəssüf ki, burada bəzi manevrlərin, çox təhlükəli çıxışların, saxta məlumatların, qeyri-real yanaşmaların şahidi oluruq. Bu təşkilatda belə davranışları dayandırmalıyıq. Bir az əvvəl qonşu ölkənin nümayəndəsi blokadadan, tədrisin əlçatmaz olmasından və digər amillərdən danışdı. Amma heç kim bu problemin yaranması məsələsinə toxunmadı. Bu problem Azərbaycan ərazilərinin işğalı, xalqımıza qarşı aparılan etnik təmizləmə nəticəsində yaranıb. Bu gün işğal altında olan ərazilərdə azərbaycanlılar və digər etnik qrupların nümayəndələri yoxdur. Bununla belə, hələ demokratiya yaratmaq istəyirlər, bu, qətiyyən mümkün deyil. Etnik təmizləmə, həqiqətlərin saxtalaşdırılması ilə deyil, müxtəliflik, dialoq, qarşılıqlı anlaşma sayəsində həqiqətə nail olmaq mümkündür", - deyə Səməd Seyidov vurğulayıb.

# Düşmən təmas xəttinə yaxın olan yaşayış məntəqələrini daim atəş altında saxlayır

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç, Saymon Tiller və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun (YSPQ) nümayəndəsi polkovnik-leytenant Harri Okonnor iyunun 25-də Ağdam rayonunda olub.



AZƏRTAC xəbər verir ki, Ağdam Rayon İcra Hakimiyyətində keçirilən görüşdə ermənilərin yaşayış məntəqələrini atəşə tutması nəticəsində yaranan problemlər, cəbhə xəttində yaşayan dinc əhalinin üzləşdiyi çətinliklər barədə məlumat verilib. Ağdam Rayon İcra Hakimiyyəti başçısı Vaqif Həsənov bildirib ki, Ermənistan silahlı birləşmələri rayonun təmas xəttinə yaxın olan yaşayış məntəqələrini daim atəş altında saxlayır, dinc əhalinin təsərrüfat işləri ilə məşğul olmasına mane olur.

Diqqətə çatdırılıb ki, sonuncu monitorinqin keçirildiyi fevralın 27-dən indiyədək mülki əhalinin yaşadığı ərazilərdə 161 dəfə atəşkəs pozulub. İyunun 20-də Ermənistan silahlı qüvvələrinin Ağdam rayonunun işğal altında olan Baş Qərvənd kəndində törətdiyi yanğınlar təmas xəttini keçərək Mirəşelli kəndi ərazisinə yayılıb. Yanğın nəticəsində Mirəşelli kənd qəbiristanlığı tamamilə yanıb.

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun nümayəndəsi səmimi qəbul və ətraflı məlumat üçün təşəkkür ediblər.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## İsrailə biyan ixrac ediləcək

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "Azexport.az" portalı daha bir qeyri-ənənəvi Azərbaycan məhsulunun xarici bazarlara ixracı istiqamətində uğura imza atıb.

"Azexport" portalının dəvəti ilə İsrailin ən böyük biyan və ekstraktı idxalçısı, həmçinin bu sahədə dünya üzrə ilk onluqda yerləşən "F&C Licorice Group" şirkətinin nümayəndələri Bakıda səfərdə olub. Qonaqların İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində Azərbaycandan biyan ixrac edən şirkət nümayəndələri ilə görüşü təşkil olunub.

"Azexport" portalının meneceri Ayxan Qədəşov bildirib ki, görüşdə Azərbaycandan növbəti mövsüm illik müqavilə üzrə 2,5-3 min ton yüksəkkeyfiyyətli biyan məhsulunun İsrailə ixrac olunması haqqında ilkin razılıq əldə olunub. Həmçinin İsrail nümayəndələrinə Azərbaycanın münbit investisiya mühiti barədə məlumatlar, eləcə də gələcəkdə birgə əməkdaşlıq çərçivəsində biyan qəbulu və emalı məntəqələrinin yaradılması üçün təkliflər təqdim edilib.

Qeyd edək ki, Azərbaycanda bir il ərzində oxratoksin A göstəricisi 20-dən aşağı olan 6-7 min ton qurudulmuş və preslənmiş yüksəkkeyfiyyətli biyan məhsulu əldə olunur. Əldə edilən məhsul əsasən Çin, Sinqapur, Hindistan, İsrail və İran kimi ölkələrə ixrac olunmaqla yanaşı, daxili tələbatın ödənilməsi məqsədilə də istifadə olunur.

"Azexport" portalı sadalanan texniki və keyfiyyət göstəricilərinə uyğun gələn biyan kökü məhsulunun ixracında maraqlı olan sahibkarlara müraciət edərək bildirir ki, "Azexport" portalı vasitəsilə "F&C Licorice Group" və digər aidiyyəti beynəlxalq şirkətlərin əlaqə vasitələrini əldə edə bilərlər.

## Bakı-Tbilisi-Qars dəmir yoluna maraq artır

Rusiyanın paytaxtı Moskvada Azərbaycan və Rusiya dəmir yolları idarələrinin nümayəndələri arasında görüş keçirilib.

"Azərbaycan Dəmir Yolları" QSC-nin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən xəbərə görə, görüşdə Rusiya ərazisindən keçməklə Çin, Yaponiya və Koreya Respublikasından yüklərin Transsibir magistralı ilə Azərbaycana, buradan isə Bakı-Tbilisi-Qars dəmiryol xətti ilə Türkiyə istiqamətində daşınması məsələsi müzakirə edilib. Tərəflər daşıma mexanizmləri, həmçinin Bakı-Tbilisi-Qars dəmiryol xətti ilə daşınan yüklərin həcminin artırılması məsələsini diqqət mərkəzində saxlayıblar.

## Neftin qiyməti Yaxın Şərqdəki proseslər fonunda bahalaşır

Dünya birjalarında neftin qiyməti Yaxın Şərqdəki proseslər fonunda artır. Xəbəri AZƏRTAC yayıb.

Bildirilir ki, İran-Birləşmiş Ştatlar gərginliyi fonunda ABŞ Prezidenti Donald Trampın İrana genişmiqyaslı əlavə sanksiyalar tətbiq ediləcəyini açıqlaması "qara qızıl"ın qiymətinin 2016-cı ilin sonlarından indiyədək ən böyük həftəlik artım tempini göstərməsinə səbəb olub.

Qeyd edək ki, iyunun ortalarında neftin qiyməti son 5 ayın ən aşağı səviyyəsinə düşmüşdü. Lakin son bir həftədə "qara qızıl"ın qiyməti 3-4 dollar/barel bahalaşıb.

Hazırda "Brent" markalı neftin bir bareli Londonun ICE birjasında 65,27 dollara, "Light" neftinin bir bareli isə Nyu Yorkun NYMEX birjasında 57,87 dollara satılır.

## Azərbaycan fermerləri, birləşin!



Dünyanın inkişaf tarixinə nəzər yetirdikdə görürük ki, əkinçilik mədəniyyəti sivilizasiyanın ilk dövrlərindən formalaşmağa başlamışdır. Antik dövrdə əkinçiliyi inkişaf etdirmək üçün uzaq məsafələrdən su kanalları çəkilmiş, əkinçilik alətləri tədricən təkmilləşdirilmişdir. Bununla belə, kənd təsərrüfatı uzun müddət öz inkişafına görə sənayedən çox geri qalmışdır. Sənayedə yüksək texnika və texnologiyaların tətbiqi daim diqqət mərkəzində olsa da, aqrar sektorda bu, müşahidə edilməmişdir. Lakin XX əsrin ikinci yarısından aqrar sektorda yüksəksəviyyəli texnika və texnologiyalardan istifadəyə üstünlük verilməyə başlanıldı.

Bu gün dünyada kənd təsərrüfatında yüksək texnologiyaların tətbiqi sayəsində məhsuldarlıq ildən-ilə artır. Belə texnologiyaların tətbiqi nəticəsində sudan israfçılığın qarşısı alınır, torpaqların mühafizəsi gücləndirilir, məhsuldarlıq artır. Məsələn, taxılçılıqda bu gün məhsuldarlıq Danimarka və Çexiyada 50-55, Almaniya və Fransada 60-65 sentnerdir. Müqayisə üçün bildirək ki, Azərbaycanda orta ümumi məhsuldarlıq 30 sentnerdir. Bununla belə, müasir texnika və texnologiyalardan istifadə edilən iri fermer təsərrüfatlarında və aqroparklarda bu rəqəm 50 sentnerə çatıb. Deməli, mütərəqqi texnologiyaların tətbiqi məhsuldarlığın artmasında başlıca şərtdir.

Heyvandarlıqda da yüksək texnologiyaların tətbiqi özünün müsbət nəticəsini verir. Məsələn, bu hesaba Latviya, Estoniya və Almaniyada hər inəkdən il ərzində 5000-7000 kiloqram süd sağıldığı halda, Azərbaycandakı fərdi təsərrüfatlarda 1000-1100 kiloqramdan çox olmur. Müasir texnologiyaların tətbiqinin əhəmiyyətini sübut edən digər fakt: bir şərti mal-qara hesabı ilə Azərbaycanda illik ət istehsalı 50-52, Danimarkada 230, Baltikyanı ölkələrdə 150-160 kiloqramdır. Onu da qeyd edək ki, ölkəmizdə son dövrlər kənd təsərrüfatının müasir texnika və texnologiyalarla təmin edilməsində dövlət mühüm addımlar atır. "Aqrolizinq" ASC vasitəsilə fermerlərə güzəştli şərtlərlə belə avadanlıqlar satılır və ya xidmət göstərilir.

Dünyada aqrar sektorda yeni inkişaf üsullarından da istifadə edilir. Məsələn, inkişaf etmiş ölkələrdə fermerlərin kooperativləşməsi kənd təsərrüfatının inkişafında ən güclü amil hesab olunur. ABŞ-da, Kanadada, Yaponiyada və Avropa İttifaqı ölkələrində dövlət belə kooperativlərin inkişafına dəstək verir. Kooperativlərə güzəştli kreditlər verilməklə yanaşı, əlverişli vergilər tətbiq edilir, dövlət hesabına onların təkmilləşdirilməsinə aid müxtəlif proqramlar maliyyələşdirilir. Bununla fermerlərə məxsus geniş emal və ticarət müəssisələrinin şəbəkəsi yaradılaraq inkişaf etdirilir. Həmçinin belə ölkələrdə torpaq bankları, kredit və sığorta kooperativləri fəaliyyət göstərir, onlar fermerləri illik 8-10 faizlik kreditlə təmin edirlər. Bunlardan əlavə, aqrar sahənin inkişafı üçün kənd təsərrüfatı maşınları, yem, gübrə, dərman preparatlarının istehsalı üçün müxtəlif kooperativlərin assosiasiyaları, həmçinin elmi-tədqiqat kooperativləri yaradılır.

İnkişaf etmiş Qərb ölkələrində kənd təsərrüfatı kooperativlərinin iqtisadi mövqeyi və imkanları genişdir. Məsələn, Şimali Avropa ölkələrində kooperativlər heyvandarlıq məhsullarının satışına üstünlük verir. Həmin ölkələrdə ət məhsullarının və diri heyvanların 80, yumurtanın 65-75 faizi kooperativlər tərəfindən satılır, Norveç və Finlandiyada süd məhsullarının hamısı və qida sənayesinin 55 faizi onların nəzarətindədir. İsveçdə süd və süd məhsullarının 100, yumurtanın 75 faizini kooperativlər ixrac edir. Kooperativlərin aqrar sektorda belə yüksək nailiyyətlər qazanmasında mühüm rol oynayan amillərdən biri də onların birliyi sayəsində ortada olan vasitəçilərin bazardan sıxışdırılaraq çıxarılması, məhsulların satılmasından və emalından əldə olunan gəlirlərin özlərində qalmasıdır.

İnkişaf etmiş ölkələrdə fermer kooperativləri əmtəə istehsalçılarının inteqrasiya əlaqələrini geniş şəkildə formalaşdırmışdır. Bəzi hallarda bu inteqrasiyadan daha səmərəli istifadə etmək üçün tərkibində sənaye və ticarət müəssisəsi olan bir neçə iri kooperativ yenidən birləşərək güclü şəkildə bazara daxil olur. Bununla belə, bir sıra ölkələrdə kooperativlər yerli və regional olaraq müxtəlif sahələr üzrə ixtisaslaşmış şəkildə fəaliyyət göstərir.

Kənd təsərrüfatının gəlirlə işlədiyi ölkələrdə dövlət siyasətinin əsas məqsədi daha az torpaqdan səmərəli istifadə etməklə məhsul istehsalını artırmaqdır. Fermerlərin Yaponiyada 97, İtaliyada 76, Belçikada 33, Hollandiyada 28 faizi 5 hektardan az torpaq sahəsindən istifadə edir. Fransada isə 5 hektardan az torpaq sahəsi olan fermer yoxdur. Həmin ölkədə torpaq sahəsi 10 hektardan çox olan fermerlərin xüsusi çəkisi 80 faizdir. İsveçdə bu rəqəm 69, Hollandiyada 58, Belçikada 52, Danimarkada 84, Yeni Zelandiyada 79, İtaliyada 12 faiz təşkil edir.

Dünyada fermer təsərrüfatlarının inkişafında ümumi dəyərlərlə yanaşı, milli xüsusiyyətlərin də rolu var. Yaponiyada ötən əsrin 40-cı illərindən başlayaraq aparılan islahatlar nəticəsində torpaqlar kəndlilərə verilmiş və bununla aqrar sahədə bazar münasibətləri formalaşmışdır. İri kənd təsərrüfatı müəssisələrinin yaradılması üçün göstərilən bütün təşəbbüslər nəticəsiz qalmışdır. Bu onu göstərir ki, yapon fermerləri fərdiliyə üstünlük verirlər. Burada bütün fermer təsərrüfatları üzrə torpaq sahəsi orta hesabla 1,2 hektardır. Hətta bəzi hallarda bu torpaq sahəsi də bir neçə yerə bölünərək xırda təsərrüfatlara ayrılır.

Lakin bütün hallarda kooperasiya üzrə 150 illik dünya təcrübəsi sübut etmişdir ki, birləşmək və birgə fəaliyyət göstərmək fermerlərin işini asanlaşdırır, gəlirlərin artmasını təmin edir. Fermerləri kooperativlərdə yaxından iştirak etməyə vadar edən əsas səbəb gəlirlərini daha da artırmaq istəyidir. ABŞ-da bütün təsərrüfatların 50, İsveçdə 90 faizi müxtəlif kooperativləridə birləşib. ABŞ-da həm də kənd təsərrüfatları kooperativlərinin çoxu səhmdarlar kimi formalaşıb. Lakin kooperativlərin səhmləri alver obyekti deyil və fond birjalarında satılmır.

Avropa İttifaqı ölkələrində son illər müxtəlif xidmətlər göstərmək üçün ixtisaslaşmış kooperativlərin şəbəkəsi xeyli genişlənib. Almaniyada kooperativlər kənd təsərrüfatını istehsal vasitələri ilə təmin etməkdə mühüm rol oynayır. Burada bütün istehsalçılar, fermerlər kənd təsərrüfatı texnikasından birlikdə istifadə etmək üçün kooperativlərdə birləşirlər. Böyük Britaniyada tədarük və təchizat kooperativləri fermerləri yem, gübrə və digər zəruri istehsal vasitələri ilə təmin edir. Bu ölkədə maşın və texnika almaq, eləcə də birlikdə istifadə etmək üçün 2-20 nəfəri birləşdirən sindikatlar da fəaliyyət göstərir. Onlar 4 il müddətində geri qaytarmaq şərti ilə maşın və mexanizmlərin dəyərinin 80 faizi qədər kredit almaq hüququna malikdirlər. Texnikanın alınmasına qoyulan vəsait kooperativ üzvləri arasında becərilən torpaq sahəsinə və fermanın ölçüsünə mütənasib olaraq bölüşdürülür. Texnikanın saxlanması, təmiri və sığortalanmasına çəkilən xərclər də həmin qayda üzrə bölüşdürülür.

İsveçrədə fermer kooperativlərinə məxsus olan dövriyyənin 30-35 faizi satış və təchizat fəaliyyətinə sərf olunur. Bu ölkədə istehsal üçün zəruri vasitələrin 60 faizini kooperativlər təmin edir, əmtəəlik südün 98, taxılın 80, mal-qaranın və quşların 75 faizinin satışını onlar həyata keçirir. Süd sənayesinin hamısına, ət sənayesinin 80 və un sənayesinin 54 faizinə kooperativlər nəzarət edir. İsveçdə tədarük və təchizat kooperativlərinin fəaliyyəti kompleks xarakter daşıyır. Ölkənin hər yerində anbarlara, elevatorlara və təmir emalatxanalarına malik olan kooperativlər fermerləri istehsal vasitələri, habelə xidmətlərlə təmin edir. İsveçrədə isə satış kooperativləri həm də təchizat fəaliyyəti ilə məşğul olur. Bu ölkədə südçülük kooperativləri üzv təsərrüfatları sağım qurğuları, seperator və soyuducularla təmin edir. İsveçrədə 1988-ci ildə qəbul edilmiş müvafiq qanuna görə, gəlir müəyyən edilən maliyyə ehtiyatını formalaşdırmaq üçün lazım olan vəsaitdən artıq olduqda ondan 52 faiz vergi tutulur. Yeri gəlmişkən, Azərbaycanda fermerlər torpaq vergisindən savayı, bütün növ vergilərdən azad ediliblər.

Danimarkada da istehsal və emal edilən südün 91, mal ətinin 65, quşçuluq məhsullarının 51, meyvə-tərəvəz məhsullarının 60, qarışıq yemin 48, gübrələrin 47 faizi kooperativlərə məxsusdur. Burada kooperativlər konkret sahələr üzrə ixtisaslaşmışdır. 6 ay ərzində kooperativlərin xidmətindən istifadə etməyən fermer direktorlar şurasının qərarı ilə üzvlükdən azad olunur. Kooperativlər vergi güzəştlərindən istifadə edir və adi təsərrüfatlarda tətbiq edilən 52 faizlik gəlir vergisi onlar üçün cəmi 20 faizdir.

Fermer kooperativləri ölkənin siyasi həyatına da ciddi təsir göstərir. Aqrar siyasətin hazırlanmasında və qiymətlərin müəyyən edilməsində kooperativlərin rəyi nəzərə alınır. İstehsalçıların subsidiyalaşdırılması, kreditləşdirilməsi, xırda təsərrüfatlara kömək, ixracın subsidiyalaşdırılması və digər məsələlər birlikdə həll olunur.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

### Dünyanın neft regionlarında



## Özbəkistan: bir cüt quyudan nəhəng komplekslərədək

Özbəkistan Respublikası neft-qaz və onlardan hazırlanan məhsulların iri ixracatçılarındandır. Son illərdə ölkənin neft-qaz sənayesində müasir infrastruktur yaradılıb. Bir sıra nəhəng və strateji cəhətdən vacib istehsalat qurğuları, o cümlədən Şurtan və Üsttəpə qaz-kimya kompleksləri, Qandım Qaz Emalı Zavodu, Özbəkistan-Çin transmilli qaz kəmərinin üç qolu istifadəyə verilib.

Özbəkistanda sənaye üsulu ilə neft hasilatının 135 ilə yaxın tarixi var. Belə ki, 1885-ci ildə Fərqanə vadisi rayonunun Çimion qəsəbəsi yaxınlığında iki quyudan neft çıxarılmağa başlanıb. 1904-cü ildə bu ərazidə ciddi kəşfiyyat işləri aparılıb və 278 metr dərinlikdən neft fontan vurub.

1906-cı ildə Fərqanə vilayətində ahəngdar işləyən ikihissəli bir qurğudan ibarət neftayırma zavodu istifadəyə verilib. O zaman neft mədəndən buraya arabalarla daşınırdı. Yanacağın keyfiyyəti termometr və areometrlərlə müəyyən edilirdi. Müəssisənin əsas məhsulları - kerosin işıqlandırma, mazut istilik üçün istehsal olunurdu. Benzin zavodun hüdudlarından kənarda, quyularda yandırılırdı. Yalnız 1915-1916-cı illərdə Orta Asiyada daxiliyanma mühərrikli avtomobillər peyda olandan sonra benzin də öz istifadəsini tapdı. Neft məhsulları Əfqanıstana və Çinə dəmir yolu və arabalarla ixrac olunurdu.

1907-ci ildə zavodu Nobel qardaşları əldə etdilər və onun mərhələlərlə təmirinə başladılar. Elə həmin il Çimion mədənindən zavodadək uzanan 4 düymlük neft kəməri istifadəyə verildi və çən parkı tikildi. İllər keçdikcə burada elmi laboratoriyalar işə düşdü, texnoloji proseslər təkmilləşdirildi.

1940-cı ildə ölkədə neft hasilatının həcmi 176 min tona çatdı.

Özbəkistanda ilk qaz isə 1953-cü ildə Qızılqum səhrasındakı "Sətalantəpə" yatağından çıxarılıb. 1962-ci ildə nəhəng "Qazlı" yatağı istifadəyə veriləndən sonra Buxara-Ural və Orta Asiya-Mərkəz qitələrarası qaz kəmərləri çəkilib.

Bütövlükdə indiyədək Özbəkistanın neftli-qazlı regionlarında 270-dən çox karbohidrogen yatağı kəşf olunub. Onlardan yarıya qədərinin kəşfi ölkənin müstəqillik dövrünə təsadüf edir. Belə ki, 1991-2018-ci illərdə 134 yataq açılıb.

Ölkənin neftli-qazlı ərazilərinə Üstyurd, Buxara-Xivə, Cənub-Qərbi Qissar, Surxandərya və Fərqanə regionları daxildir. Xarəzm, Sırdərya əraziləri isə perspektiv sahələr hesab olunur.

Dövlət müstəqilliyin ilk illərində yanacaq-enerji təhlükəsizliyinin yaradılmasını qarşıya məqsəd kimi qoydu. Nəticədə duru karbohidrogenlərin hasilatı artdı və bu, ölkənin həm daxili tələbatı ödəməsində, həm də xarici bazara məhsul göndərməsində özünü göstərdi.

1992-ci il mayın 3-də ölkə prezidenti "Özbəkneftqaz" Dövlət Neft və Qaz Sənayesi Konserninin yaradılması haqqında" fərman imzaladı. Həmin il dekabrın 23-də prezidentin növbəti fərmanı ilə konsern milli korporasiyaya çevrildi. Altı il sonra qurum dövlət başçısının fərmanı ilə milli holdinq şirkəti adlandırıldı. Nazirlər Kabineti holdinq şirkətinin təşkili və fəaliyyəti haqqında qərar verdi.

1996-cı ilin sonunda Şurtanda böyük qaz-kimya kompleksinin tikintisinə başlandı. Beş il davam edən tikinti işləri başa çatandan sonra kompleksin rəsmi açılış mərasimi keçirildi. Buxara Neft Emalı Zavodu isə 1997-ci ildən fəaliyyət göstərir. Bu müəssisə Fransanın "TEKNİP" şirkətinin layihəsi əsasında tikilib. Zavodun texnoloji proseslərinin formalaşdırılmasında Fransanın Neft İnstitutunun, Amerikanın "Merikem" və Hollandiyanın "Komprimo" şirkətlərinin lisenziyalarından istifadə olunub.

Tərəfdaşlardan söz düşmüşkən, Özbəkistan neft-qaz sahəsində bir sıra layihələri dünyanın aparıcı şirkətləri, məsələn, Rusiyanın "Qazprom" və "LUKoyl", Çinin CNPC International, Cənubi Koreyanın KNOC şirkətləri ilə birgə reallaşdırır. Keçən il ölkədə ümumi dəyəri 1 milyard 582 milyon dollara yaxın olan istehsalat qurğuları və obyektləri istismara verilib. Bu il isə 15 investisiya layihəsinin həyata keçirilməsi nəzərdə tutulub.

Hazırda indiyə qədər az öyrənilən və geoloji strukturları mürəkkəb olan bloklarda geoloji kəşfiyyat işləri aparılır. Burada da Özbəkistan neftçiləri xarici şirkətlərlə tərəfdaşlıq edirlər. Bunlar "Total" (Fransa), KNOC (Cənubi Koreya), SOCAR (Azərbaycan), "British Petroleum" (Böyük Britaniya), "Qazprom", "LUKoyl", "Tatneft" (Rusiya), "Mubadala Petroleum" (Birləşmiş Ərəb Əmirlikləri), ONGC Videsh (Hindistan) şirkətləridir.

Yaxın gələcəkdə Özbəkistanın neft-qaz sənayesində yeni mühüm layihələrin gerçəkləşdirilməsi nəzərdə tutulur. "Qandım" yataqlarında, Qandım Qaz Emalı Zavodunda tikinti işlərinin 2020-2029-cu illəri əhatə edən ikinci mərhələsi həyata keçiriləcək. Şurtan Qaz-Kimya Kompleksində yeni istehsalat sahəsi inşa edilir və burada işlərin gələn ilin ortalarında başa çatacağı gözlənilir.

Özbəkistanın azad iqtisadi zonalarında hazırda "Özbəkneftqaz"ın 9 müəssisəsi fəaliyyət göstərir. Onlardan 6-sı Nəvai, 3-ü Anqren azad iqtisadi zonalarındadır. Burada 4 yeni layihə reallaşdırılacaq. Görüləcək işlər sırasında Buxara Neft Emalı Zavodunun mövcud qurğularının genişləndirilməsi və modernləşdirilməsi, "Qazlı" kompleksində hasilatın və ixracın artmasına, qış mövsümündə istehlakçılara qazın sabit şəkildə çatdırılmasına yönəldilən tədbirlərin həyata keçirilməsi də var. Buraya Üstyurdda istehsalı mənimsənilən və kütləvi buraxılışı Şurtanda planlaşdırılan ətirli karbohidrogenlərin istehsalına başlanması da daxildir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Dünya Neft Konqresinə səsvermədə Azərbaycan ikinci olub



Sankt-Peterburqda keçirilən Dünya Neft Şurasının iclasında 2023-cü ildəki 24-cü Dünya Neft Konqesinə evsahibliyi edəcək ölkə müəyyənləşib. Energetika Nazirliyinin yaydığı xəbərə görə, Dünya Neft Şurasının 41 üzv ölkəsinin iştirakı ilə keçirilən səsvermədə Azərbaycandan yalnız 1 səs fərqi ilə Kanada seçilib. Azərbaycanla yanaşı, Kanada, Argentina, Birləşmiş Ərəb Əmirlikləri və Qazaxıstanın mübarizə apardığı səsvermə 4 mərhələdə keçirilib. Final mərhələsinə qalan Azərbaycan 20, Kanada isə 21 səs toplayıb.

Azərbaycan nümayəndə heyətinə rəhbərlik edən energetika naziri Pərviz Şahbazov bildirib ki, ilk dəfə namizədliyini irəli sürmüş ölkə olaraq Azərbaycanın belə yüksək səslə finala qədər gəlməsi Dünya Neft Şurası tarixində nümunə sayılacaq hadisədir.

"Təcrübə göstərir ki, Dünya Neft Konqresinə evsahibliyi hüququ bir neçə dəfə namizədlik cəhdindən sonra əldə edilir. Türkiyə, ABŞ məhz üç dəfə namizədliklərini irəli sürdükdən sonra seçiliblər. Azərbaycandan fərqli olaraq, Qazaxıstan, Kanada, Birləşmiş Ərəb Əmirlikləri və Argentina bir neçə dəfə namizəd kimi mübarizəyə qatılıblar. Dünya Neft Şurasında uzun illərdir təmsil olunmalarına və aktiv fəaliyyətlərinə baxmayaraq, bu ölkələrlə müqayisədə Azərbaycan ilk dəfədən belə bir səs çoxluğu qazana bildi", - deyə nazir əlavə edib.

Energetika naziri kifayət qədər güclü namizədlər arasından ölkəmizə belə bir münasibəti Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət sayəsində Azərbaycanın artan beynəlxalq nüfuzu, enerji təhlükəsizliyinin etibarlı təminatçısı kimi güclənən strateji mövqeyi ilə izah edib.

"Bütün bu reallıqlara bugünkü prosesdə iştirak edən ölkələrin münasibətində bir daha şahid olduq", - deyə nazir bildirib.

O qeyd edib ki, səsvermə prosesində namizəd kimi iştirak Azərbaycana daha bir təcrübə qazandırıb. Yanvardan aparılan kampaniya ölkəmizin dünya miqyasında bir daha tanıdılmasına, dəyərlərimizin təbliğinə xidmət edib. Eyni zamanda, Dünya Neft Şurası üzvləri ilə əməkdaşlıq əlaqələrimiz daha da möhkəmlənib.

Qeyd edək ki, Dünya Neft Şurası tarixində ilk dəfə olaraq səsvermə prosesi 5 namizədlə 4 mərhələdə keçirilib. Səsvermədən əvvəl ölkələrin təqdimatları dinlənilib.

Tədbirdə energetika naziri P.Şahbazov çıxış edib. Neft ölkəsi kimi Azərbaycanın tarixi və müasir inkişafından bəhs edən videoçarx və təqdimatlar nümayiş etdirilib. Həmçinin Dünya Neft Şurası üzvlərini ölkəmiz barəsində daha ətraflı məlumatlandırmaq məqsədilə Azərbaycan xüsusi stendlə təmsil olunub.

1933-cü ildə yaradılan, 62 üzvdən ibarət Dünya Neft Şurasına Azərbaycan 2005-ci ildə üzv seçilərək "Milli Neft Komitəsi" İB-i təsis edib və indiyə kimi bu mötəbər qurumun tədbirlərində fəal iştirak edib.

Dünya Neft Şurasının mühüm platforması kimi üç ildən bir keçirilən Dünya Neft Konqresi neft-qaz sahəsində baş verən proseslərin qlobal miqyasda müzakirəsi və yeni çağırışların birgə dəyərləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

1949 *Sumqayıt - 70* 2019

# Əfsanələrlə zəngin şəhər

Qədim bir əfsanədə belə deyilir: "Sum boz çöllərlə irəliləməkdə davam edirdi. Taqətinin qalmadığı atdığı addımlarından açıq-aydın görünürdü. Bir qədər gedir, dayanır, əlini gözünün üstə qaldırıb önə baxırdı. Bir tərəfi bataqlıq, digəri kiçik iynəyarpaqlı ağaclar arasından keçərək irəliləyirdi. Qartal baxışlı, iri cüssəli bu gənc məxsus olduğu qəbilənin son ümidi idi. Yaşayış yerinin su hövzəsi yaxınlığında tapılmasını ona tapşırmışdılar. Qaya parçası görüb addımlarını gücləndirdi. İstidən cadar olmuş sifətinə dəniz havası toxundu. Elə bil gəncin ruhuna güc gəldi. Bir qədər sonra qarşısında Quzğun dənizini (Xəzər) gördü. Sevincindən gözləri yaşardı. Sumun dodaqları arasından sakitcə bu sözlər çıxdı:



- Xilas olduq! Ceyran buraları görsəydi, yaxşı olardı. İndi qalır geri qayıtmaq.

Su dolablarını doldurub çiyninə aldı. Boz torpaqları ayaqlayaraq geriyə addımladı. Sevinci yerişindən də görünürdü. Çünki qəbiləsinin ona verdiyi tapşırığı yerinə yetirmişdi".

Elə o zamanlardan insanlar bura ayaq açaraq binə qurdular. Yaxınlıqdakı gölə də Ceyranbatan dedilər.

Tarix ötən illərin xronikasıdır. Sumqayıtın indiki əraziləri bir çox hadisələrin, şəxsiyyətlərin, böyük orduların köç yolu olub.

Sumqayıt Abşeron yarımadasının şimal-qərbində, Xəzər sahilində, Sumqayıtçayın mənsəbindəki düzənlikdə yerləşir. Onu paytaxt Bakıdan 31 kilometr məsafə ayırır. Dəniz səviyyəsindən 26 metr yüksəklikdə yerləşən ərazi iqlim baxımından quru subtropik, relyefi düzənlik, yarımsəhra, bitki örtüyü seyrəkdir, şimaldan xəzri, cənubdan gilavar küləkləri xarakterikdir. Hazırda şəhərin ərazisi 94,17 kvadrat kilometrdir.

Ədəbiyyatda toponimiyanın "Suqayıt", "Sumqay", "Sukait" variantları məlumdur. XIII əsr yazarı Fəzlullah Rəşidəddin yazırdı: "Sumqayıt sözü XIII əsrdə Yaxın Şərqin monqollar tərəfindən fəthi zamanı buraya gəlmiş sukait türk-monqol tayfalarının adından əmələ gəlmişdir".

1580-ci ildə ingilis səyyahı Xristofor Berrou Qafqaza həsr etdiyi monoqrafiyasında Sumqayıtın adını çəkmişdir. O öz yol qeydlərində "Sumqayıtçay"ın və çayın üzərində salınmış taxta körpünün varlığını xüsusilə qeyd etmişdir.

Miladdan əvvəl II əsrdən etibarən Çinin Sinan şəhərindən başlayaraq Şərq ölkələrindən keçən Böyük İpək yolunun bir qolunun orta əsrlərdə Xəzər dənizinə yaxın olan Sumqayıtın ərazisindən keçdiyini inamla deyə bilərik. Bu ərazidə yeganə su mənbəyi olmuş Sumqayıtçay öz başlanğıcını Baş Qafqaz silsiləsinin cənub yamacından, Dübrar dağının zirvəsindən götürür. Yağış, sel suları ilə çoxalan Sumqayıtçayın mühüm qolları Çigil və Kəndadır. Yuxarı axınında Quzduçay, Qozluçay, Cəngiçay adlanan bu çayın uzunluğu 198 kilometrdir.

XVIII əsrin 30-cu illərində alman səyyahı İ.Lerx özünün yol qeydlərində bu ərazidən axan çay və onun üzərində salınmış daş körpü haqqında məlumat verib. Bu fikir çay üzərində salınmış taxta körpünün sonralar daşla əvəz olunması fikri ilə üst-üstə düşür. XIX əsrin ortalarında rus səyyahı İvan Berezin yol qeydlərinə Sumqayıtçay haqqında bu fikirləri yazmışdır: *"Bəzən bu çaya Suqayıt deyərdilər..."*

Yaxın Şərq ölkələri ilə Qərbi Avropa arasında ticarət əlaqələri quran tacirlər Sumqayıtçayın hər iki sahilində salınmış, əsrlərin yadigarı karvansaralarda dincəlirdilər. XVI-XVII əsrlərə aid edilən karvansaralardan birinin özül daşlarının qalıqları Xızının (əvvəllər Abşeronun) Giləzi kəndində aşkarlanmışdır. 1938-1939-cu illərdə tədqiqatçı alimlər N.Mel, E.Paxomov digər karvansaranın qalıqları üzərində tədqiqat apararaq, qədim tikililərin orta əsrlərə deyil, daha uzaq keçmişə aid olduğunu bildirmişlər.

Məşhur fransız yazıçısı Aleksandr Düma 1858-ci ildə Qafqaza səyahət edərkən özünün yol qeydlərinə bu sətirləri də yazmışdır: *"Dənizdən iki kilometr aralıda azərbaycanlıların çadır düşərgəsi yerləşirdi. Düşərgə artıq xarabalığa çevrilmiş karvansaranın yanında, düzənliyin ortasında salınmışdı. İlk olaraq karvansara haqqında məlumat toplamağa çalışdıq. Bəlli oldu ki, karvansaranı Şah Abbas tikdirib..."* Karvansaradan əlavə, o, Sumqayıt poçt məntəqəsinin də adını çəkir. Yazıçının yol qeydləri əsasında tərtib olunmuş "Qafqaz səfəri" kitabında karvansaranın xarabalıqları yanında su ovdanının da varlığı diqqətdən yayınmır. Xanım Əliabbasqızının müəllifi olduğu "Corat. Tarixin bir parçası" kitabında da bu fikrə rast gəlinir: "Şah Abbas su ovdanları da tikdiribmiş. Bu gün onlardan biri superfosfat zavodunun arxasında qalmaqdadır..." Etnoqraf Əli Hüseynzadənin "Abşeron yarımadasının etnik toponimiyaları haqqında: Corat, Saray, Sumqayıt" məqaləsindən aydın olur ki, Abşeronda Sumqayıt adında 4 müxtəlif obyekt olmuşdur: poçt məntəqəsi, mayak, çay, dəmiryol stansiyası. Şəhərin adı bu çayla bağlıdır.

Əvvəl







İndi







Sumqayıta yaxın yaşayış məskəni olan Coratın yaşı iki min ilə yaxındır. Yerli yazarların "Sumqayıtın İçərişəhəri" adlandırdığı Corat sözünün tarixi mənbələrdə etimoloji baxımdan bir neçə mənası var. Belə ki, bəzi mənbələr bu sözün "cürət" sözündən yarandığını iddia edirlər. Burada yerləşən qalanın "Cürət qalası" kimi tarixə düşməsi ehtimalı var. Bu qalanın Simu pəhləvan tərəfindən mühafizə olunması haqqında rəvayətlər çoxdur. Bəzi mənbələrdə bu söz "çor at" yəni "tor at" anlamını verir. Bu fikir yerli sakinlərin balıqçılıqla məşğuliyyətindən yaranmışdır. "Çor at" ifadəsinin digər anlamı ətraf yerlərdə salınmış üzüm bağlarına düşən "çor" xəstəliyi ilə izah olunur. Corat sözünün curyat tayfalarının adından əmələ gəlməsi ilə bağlı fərziyyələr də mövcuddur. Mənbələr göstərir ki, Sumqayıt coratlıların bağ-bostan sahələrinin yerində salınıb. Bağların bir ucu Pirəkəşkülə, o biri ucu Şurabada gedib çıxır. Ola bilsin ki, həmin ərazilərdən kənarda yaşayan insanlar bura balıq tutmaq üçün gəlirdilər. Səhərdən-axşama kimi balıq vətəgələrində, bəy torpaqlarında işləyən kəndlilərə cüzi əməkhaqqı verilirdi. Bəylərin torpaqları boyunca karvan yolu uzanırdı. İndiki şəhərin ərazisində evlərin salınmaması işçi qüvvəsinin kənardan gələrək axşamlar evlərinə qayıtmaqları ilə bağlı olmuşdur. Ətraf kəndlərin əhalisi üçün bura dolanacaq yeri idi. Həmin dövrlərdə kəndlilər Şamaxıya dəvə və eşşəklərlə tuluqlarda Xəzərdən çıxardıqları nefti, torbalarda duzu, qurudulmuş balıqları aparıb satardılar.

Tarixi mənbələr Coratda yeddi karvansaranın mövcud olduğunu göstərir: Hacı Əmrulla bəy karvansarası, Hacı Güləhməd karvansarası, Hacı Hümbət karvansarası, Kərbəlayı Baladayı karvansarası, Hacı Zair karvansarası, Sahibcan karvansarası, Hacı Kiçikbəy karvansarası. Coratda inşa edilmiş dörd məscidin ikisi 1937-ci ildə dağıdılıb. Coratlılar məscidləri dağıdan adamların hamısının müxtəlif xəstəliklərdən öldüyünü bildirirlər. Elə bu səbəbdən yerli hakimiyyət orqanları digər dini ocaqlara toxunmaqdan ehtiyat edirlər. Sakinlər arasında qadın məscidi kimi tanınan məscidlərdən biri Hacı Kiçikbəyin adı ilə bağlıdır. Cümə və Gülxatın məscidləri bu günə kimi qalmaqdadır. Bir hissəsi pir olan Cümə məscidi hicri təqvimilə 409-cu ildə (988-ci il) Hacı Əli adlı bir şəxs tərəfindən inşa olunub. Xanım Kərbəlayı Gülxatına məxsus ev hal-hazırda Gülxatın məscidi (XVIII əsr) kimi tanınır. Ümumiyyətlə, Kərbəlayı Gülxatının sahibəsi olduğu torpaq sahəsini əhatə edən qəbiristanlıqdakı sərdabalar, qəbirüstü yazılar, kitabələr Coratın elə tarix qədər qədimliyindən xəbər verir.

Corat qəsəbəsindəki Hacı Məcid hamamı XVI əsrin memarlıq nümunəsidir. Kükürdlü suyu ilə məşhur olmuş hamam hazırda yeraltı abidə kimi qorunur. Əmrulla bəyin sifarişi ilə tikilən ikinci hamamın tarixi XVII əsrdən hesablanır. Xeyirxah əməl sahibindən yadigar qalan bu hamam günbəzşəkilli olub dövlət tərəfindən mühafizə edilən abidələr siyahısındadır.

Hacı Zeynalabdin Tağıyev qəsəbəsi Bakı şəhərindən 40 kilometr şimalda, Xəzər dənizi və Böyük Qafqaz dağlarının şərq yamacları ilə əhatə olunan düzənlikdə yerləşir. Onu Sumqayıt şəhərindən 10 kilometr məsafə ayırır. Burada ilk yaşayış məskəni vaxtı ilə "Təkə qumu" kimi tanınmış Pirəkəşkül kəndi olmuşdur. Əvvəlki adı "Nasoslu" olan qəsəbənin adı 7 fevral 1991-ci il tarixdən etibarən dəyişdirilərək məşhur neft maqnatı Hacı Zeynalabdin Tağıyevin adı ilə adlandırılmışdır.

XX əsrin əvvəllərində H.Z.Tağıyev Bakı və ətraf rayonlarda əhalinin sürətli artımı ilə əlaqədar yaranan su problemini aradan qaldırmaq üçün Şollar su kəmərinin tikintisinə şəxsi büdcəsindən pul ayırmışdır. Avropa ölkələrinə səyahət edərkən o, Almaniyanın Frankfurt-Mayn şəhərində müasir standartlara cavab verən su təchizatının rəhbəri Vilyam Lendleyn ilə tanış olmuş, Azərbaycanda da bu layihənin həyata keçirilməsi üçün onu Bakıya dəvət etmişdir. 1903-cü ildən tikintisinə başlanan Şollar su kəmərinin bir hissəsi H.Z.Tağıyev qəsəbəsindən keçir. Üzərində 1916-cı il tarixi göstərilən, Şərq memarlığının təcəssümü olan nasos su qurğusu tarixi abidə kimi bu gün də mühafizə olunur.

Sumqayıt şəhərinin məhz belə bir ərazidə salınmasının tarixi ötən əsrin 30-cu illərinə təsadüf edir. Sovet dövləti kollektivləşmədən sonra sənayeləşmə siyasətini həyata keçirirdi. 1934-cü ildə SSRİ Ağır Sənaye Xalq Komissarlığının kollegiya iclasında kimya, qara və əlvan metallurgiya müəssisələrinin yerləşdirilməsi üçün ərazi seçmək məsələsi müzakirə olunur. İstilik elektrik stansiyası və digər sənaye müəssisələrinin yerləşdirilməsi üçün münasib seçilən ərazi Bakıdan 40 kilometr aralı, Sumqayıt dəmiryol stansiyasından çox da uzaq olmayan bir məsafədə torpaq sahəsinin ayrılması məqsədəuyğun sayılır. Eyni zamanda, dəniz səviyyəsindən yüksəkliyi nəzərə alınaraq burada pansionat tipli sanatoriyaların salınması da araşdırılır. Bakı-Rostov-Moskva dəmiryol xəttinin yaxınlığı bu ərazinin sənaye sahəsi üçün seçilməsinə zəmin yaratmış olur. Burada respublikanın sənaye sahələri ilə texnoloji əlaqə yaratmaq, Azərbaycanda kimya və metallurgiya sənayesini inkişaf etdirmək qərara alınır. Yeni şəhərin yaranması paytaxt Bakının daha da inkişafına təkan verəcəkdi.

1936-1938-ci illərdə şoran düzəngahda taxta tikililər - baraklar meydana gəldi. Lənkəran, Astara, Şəki, Zaqatala, Gəncə, Qazaxdan, həmçinin Moskvadan, Novosibirskdən, Vladivostokdan, Ukraynanın Dnepropetrovsk, Belarusun Mogilyov şəhərlərindən gəlmiş gənclər inşaat işlərinə cəlb olundular. 1939-cu ildən etibarən yeni işlənmiş plan əsasında Sumqayıtın sənaye müəssisələrinin tikintisi başlandı. İlk quruculardan olan Aslan Osmanov, Məzahir Abdullayev Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldülər.

1939-cu ildən dünyada gedən proseslər, Böyük Vətən müharibəsinin başlanması inşaat işlərini yarımçıq qoydu. İşləməyə gələn insanların yarıdan çoxu müharibəyə çağırıldı. Onlardan biri tikintidə bənna işləyən, Tambov vilayətindən olan Yakov Sinyov döyüşlərin birində 30-dan çox alman əsgər və zabitini məhv etmiş, 1943-cü ilin aprelində Krımsk uğrunda vuruşmada qəhrəmancasına həlak olmuşdur. Düşmənin atəş nöqtəsini susdurmaq üçün sinəsini pulemyot lüləsinin qabağına verərək qəhrəmancasına həlak olan Yakov Sinyovun ölümündən sonra ona Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. Krımsk şəhərindəki qardaşlıq qəbiristanlığında 40 nəfər azərbaycanlı döyüşçü ilə birgə sumqayıtlı Sovet İttifaq Qəhrəmanı Yakov Sinyov da uyuyur.

Müharibə illərində minlərlə alman əsir Sumqayıta gətirilir və burada quruculuq işləri ilə məşğul olurlar. Hazırda Sumqayıtda həmin əsirlərin qəbiristanlığı var. Sonradan onların çoxu Almaniyaya qayıdır. Bir çox əsirlər sonrakı xatirələrində Sumqayıtla bağlı xoş sözlər söyləmiş, bu şəhərin sakinləri barədə öz həmvətənlərinə danışmışlar. Bəlkə də elə bu səbəbdəndir ki, Sumqayıt beynəlxalq aləmdə xoş imic qazanmışdır.

Sumqayıtın ilk müəssisəsi - istilik elektrik stansiyası hələ müharibə başlamamışdan əvvəl ilk məhsulunu vermişdi. 1941-ci il fevral ayının 13-də müəssisənin I generatoru Bakının neft sənayesinə ilk elektrik cərəyanı verib.

Müharibə illərində də İES tam gücü ilə işləmiş, müəssisə müharibə illərində özünün qəzasız, fasiləsiz işinə görə dəfələrlə mükafatlandırılmışdır. Müharibə illərində Sumqayıt ərazisində tikinti işləri davam etdirilmiş, 1943-cü ildə M.Əzizbəyov adına Sumqayıt Kimya Zavodunun təməli qoyulmuşdur. 1944-cü ildə isə istilik elektrik stansiyasının tikintisi davam etdirilərək "İnşaat - montaj" hərbi hissəsi yaradılmış, 1947-ci ildə isə müəssisə "Zaqsənayeinşaat" tresti adlandırılmışdı.

Müharibədən sonra nəhəng sənaye müəssisələrinin - boruyayma, sintetik kauçuk zavodlarının tikintisinə başlanılmışdı. Bakı, Gəncə, Neftçala kimi mərkəz rolunu oynayan şəhərlər sırasına 1945-ci ildən qoşulan Sumqayıt liderlik zirvəsinə ucala bilmiş, kustar üsulla fəaliyyət göstərmiş "Tuqzavod" əsasında işə düşən ilk kimya zavodunda - "Ozero"da həmin ilin aprel ayında kaustik soda alınmışdı. Sonralar Səthi Aktiv Maddələr Zavodu kimi tanınan müəssisə,1952-ci ildə ilk məhsulunu vermiş Sumqayıt sintetik kauçuk zavodu (1960-cı ildən sintez kauçuk zavodu kimi tanınıb) ilə bir sırada dayanmışdı. Sovetlər birliyində ilk dəfə olaraq sintetik etil spirtinin bu müəssisədə alınması ilə Sumqayıt daha bir ilkə imza atmışdı. Hələ müharibə illərində A.Hitler özünün məşhur "Barbarossa" planına Bakının neft mədənləri ilə yanaşı, Sumqayıtın sintetik kauçuk zavodunun da zəbt olunmasını daxil etmişdi. Çünki zavodda dünyada ilk dəfə olaraq Lebedev üsulu ilə sintetik kauçuk alınacaqdı. Şin, konveyer lentlərinin və digər rezin məmulatların hazırlanması üçün sintetik kauçuk vacib xammal idi. Zavodun idarə olunması üçün hətta Hitler Xayo Eylers adlı bir şəxsi direktor da təyin etmişdi.

1946-1949-cu illərdə sənayenin aparıcı müəssisəsi hesab olunan boruyayma zavodunda (1960-cı ilədək Bakı Prokat Zavodu, 20 aprel 1969-cu il tarixli fərmana əsasən V.İ.Lenin adına Azərbaycan Boru Prokat Zavodu adlanmışdır, indiki "Azərboru" ASC) 3 əsas sex (marten, boru - yayma və yayma), habelə köməkçi sexlər (tökmə, buxar-güc, oksigen, mexaniki-təmir) istifadəyə verilmişdir. 20 yanvar 1949-cu ildə zavodda ilk çuqun ərintisi alınmışdı. Həmin ildə əlvan metallurgiyanın ilki - Sumqayıt Alüminium Zavodunun tikintisi başlandı. Sənaye müəssisələrinin tikintisi Sumqayıt rayonunu o qədər genişləndirdi ki, 22 noyabr 1949-cu ildə Azərbaycan Respublikası Ali Sovetinin fərmanı ilə Sumqayıt respublika tabeliyində olan şəhərlər kateqoriyasına daxil edildi.

İnsanın gücü bir də onun məskən salmaq bacarığındadır. Həmişə insanlar bir yerə yığışaraq çətinlikləri dəf etdikləri kimi, bir yerdə yaşamağı da vacib sayırlar. 82 xalqın nümayəndəsinin məskunlaşdığı bu şəhərdə əgər 1939-cu ildə 6400 nəfər yaşayırdısa, 1949-cu ildə bu rəqəm 17200 olmuşdur. O cümlədən, şəhərin ilk sakini olan ailə Sumqayıtın birinci kompensasiya alan adamı olmuşdur. Şəkildə görünən evin sakinini başqa əraziyə köçürmək məqsədilə həmin ailəyə pul ayrılmışdır. O günlərdən qalan bu yadigar şəkil tarixin bir səhifəsinə çevrilmişdir.

1949-cu ildən başlanan ömür yolu müxtəlif pillələri ötərək irəliləməyə başladı. SSRİ-nin hər tərəfindən minlərlə gənc bu şəhərə yol aldı. Beləcə, bu gün öz inkişaf tempinə görə Cənubi Qafqazın iri sənaye şəhəri olan Sumqayıt böyüdü.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Hollandiya təkcə qızılgüllər diyarı deyil

## Avropanın bu kiçik ölkəsi kənd təsərrüfatı məhsullarının ixracında dünya ikincisidir



Son dövrlər dünyada kənd təsərrüfatının inkişafına maraq xeyli artıb. Bunun bir neçə səbəbi var. İlkin səbəb əsrlərboyu torpaqlardan səmərəli istifadə edilmədiyi üçün məhsuldarlığını itirməsi, həmin səbəbdən məhsuldar torpaq sahələrinin azalmasıdır.

Digər tərəfdən, dünya əhalisi sürətlə artdığından kənd təsərrüfatı məhsullarına olan tələbat çoxalıb. Yəni tələb və təklifi uyğunlaşdırmaq üçün məhsul istehsalının artırılması zərurəti yaranıb.

Bütün bunların fonunda dünyada neft və qazdan sonra ərzaq məhsulları da siyasi təzyiq vasitəsinə çevrilib. Xüsusilə ən çox tələbat olan taxıl satışından bu "qara" məqsəd üçün istifadə edilməsinə başlanıb. Bununla enerji resursları kimi, ərzaq məhsullarının da strateji əhəmiyyəti artıb. Odur ki, bütün ölkələr özünün ərzaq təhlükəsizliyinin qeydinə qalaraq zəruri tədbirlər görür.

Dünyada kənd təsərrüfatı məhsulları istehsalının artırılması üçün intensiv şəkildə müasir texnika və texnologiyalardan istifadə edilir. Bu yolla məhsuldarlıq artırılır, maya dəyəri aşağı salınır ki, istehsal edilən məhsul gəlirli olsun. İnkişaf etmiş ölkələrdə bu sahədə böyük nailiyyətlər qazanılıb.

Hollandiyanın ərazisi 42 min kvadratmetrdir. Üstəlik, Avropanın şimalında yerləşdiyindən iqlimi kənd təsərrüfatı üçün əlverişli deyil. Lakin bu ölkə aqrar sektorda müasir texnika və texnologiyalardan istifadə edərək yüksək məhsuldarlığa nail olur. Kiçik ölkə olan Hollandiya aqrar sektordan ildə 100 milyard dollar gəlir əldə etməklə kənd təsərrüfatı məhsullarının ixracına görə dünyada ABŞ-dan sonra ikinci yeri tutur.

Hazırda Hollandiyada kənd təsərrüfatı sektorundakı müəssisələrin sayı 65 mindən çoxdur. Ölkənin ən böyük 5 aqrar ixrac məhsulunun ümumi dəyəri 34,8 milyard avrodur. Hollandiya bəzək bitkiləri və tərəvəz məhsulları ixracında dünyada liderdir, ət ixracında 4-cü, süd və süd məhsulları ixracında 3-cü, maye və qatı yağ ixracında 4-cü yerdədir. Müqayisə üçün deyək ki, bu, ərazisi bir neçə dəfə Hollandiyadan böyük olan Türkiyənin ixracatından 5 dəfə çoxdur.

Ölkə üzrə yüksək nailiyyətlər bununla bitmir. Avropanın bu kiçik ölkəsi həmin qitədən ixrac olunan kənd təsərrüfatı məhsullarının dörddə birinə sahibdir. Dünyanın ən böyük qida və içki şirkətlərindən 4-ü məhz bu ölkədədir. Ölkə quşçuluq və qırmızı ət emalı, çörək və pendir istehsalında qlobal bazarda da liderdir.

Digər fakt: aqrar sektorda məhsuldarlıq Hollandiyada Avropanın digər ölkələrindən 5 dəfə yüksəkdir.

Bəs Hollandiya buna necə nail olur? İlk növbədə uğurlu və məqsədyönlü aqrar siyasət sayəsində. Elm və texnologiyanın inkişafı nəzərə alınaraq bu sektorda innovativ məhsul və xidmətlər daim inkişaf etdirilir. Ötən onilliklər ərzində Hollandiya kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq üçün məqsədyönlü istehsal zəncirinin yeniləşməsinə davamlı investisiya qoyaraq beynəlxalq rəqiblər üzərində liderliyini qoruya bilir. Yəni davamlı şəkildə aqrar sektora qoyulan investisiya onun rəqabətqabiliyyətliliyini artırır və bazarda mövqeyini möhkəmləndirir. Bununla holland fermerlər kənd təsərrüfatı istehsalı zəncirindən tam və effektli şəkildə faydalanırlar. Qeyd edək ki, bu üsul Hollandiyanın aqrar sektorda uğur qazanmasının ən əsas səbəblərindən biridir. Çünki istehsal zəncirinin məqsədi aqrar sektorda yenilikçi, sosial məsuliyyətli və davamlı üsullardan istifadə edərək daha səmərəli qiymət və keyfiyyət göstəriciləri ilə məhsul istehsal etməkdir.

Hollandiyada hər növ kənd təsərrüfatı və qida məhsullarından səmərəli istifadə etmək üçün yüksək emal sənayesi yaradılıb. Burada müasir dövrün tələblərinə cavab verən avtomatlaşdırılmış avadanlıqlardan istifadə edilir. Ölkə təkcə bu texnologiyalardan istifadə etməklə kifayətlənmir, eyni zamanda, onların istehsalını və ixracını da həyata keçirir.

Bu ölkədə kənd təsərrüfatının inkişafında aqrar sahə də mühüm rol oynayır. Bu baxımdan dünyanın ən yaxşı kadrları da Hollandiyada hazırlanır. Həmin kadrlar kənd təsərrüfatı sahəsində dünyanın ən uğurlu təhsil müəssisəi sayılan Hollandiyanın Wageningen Universitetinin yetirmələridir. Məhz belə kadrlar sayəsində ölkədə torpaq qıtlığı nəzərə alınaraq, dünyada ilk dəfə su üzərində üzən fermer təsərrüfatları yaradılacaq. "Floating Farm" adı verilən təsərrüfatların birində 40 inək, digər təsərrüfatda 6 min toyuq yetişdiriləcək.

Bizim ölkədə də aparılan uğurlu aqrar islahatları sayəsində məhsul istehsalı ildən-ilə artır. Çalışılır ki, dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsindən istifadə olunaraq uğurlar daha da artsın. Bu istiqamətdə yeni bir fakt: Azərbaycan Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyası ilə Azərbaycan-Hollandiya İşgüzar Mərkəzi (Business Hub) arasında əməkdaşlıq barədə Anlaşma Memorandumu imzalanıb. Məqsəd elmi əsaslara söykənən birgə layihə və proqramların ölkəmizdə həyata keçirilməsidir. Azərbaycan kənd təsərrüfatı sahəsində zəngin təcrübəyə, mükəmməl idarəetmə sisteminə, müasir texnika və texnologiyalara sahib olan Hollandiya ilə əməkdaşlıq etməklə aqrar sektorda qazanılan uğurları daha da artıra bilər.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***




Azərbaycan xalqını

# 26 İyun - Silahlı Qüvvələr Günü

münasibətilə təbrik edir, firavan gələcək arzulayır!




## II Avropa Oyunları

# Bir qızıl və üç bürünc medal şansı









Güləş ölkəmizdə ən populyar idman növlərindən biri olmaqla yanaşı, kütləvilik baxımından da ön sıralarda dayanır. Bu, həm tarixi-ənənəvi köklərlə, həm də bu gün ölkəmizdə idmana, o cümlədən güləşə olan münasibətlə bağlıdır. Güləş Azərbaycanda hər vaxt ənənəsini qoruyub. Azərbaycan güləş məktəbinin yetirmələri olan olimpiya, dünya, Avropa çempionları iştirak etdikləri bütün yarışlarda rəqibləri üçün ən ciddi idmançılar sayılırlar. Yəni pəhləvanlarımız iştirak etdikləri istənilən turnirin favoritidirlər.

Belarusun paytaxtı Minskdə keçirilən II Avropa Oyunlarında medal gözlənilən idman növlərindən biri də güləşdir. Dünən "Minsk-2019"da güləş yarışlarına start verilib. İlk olaraq mübarizəyə sərbəst güləşçilər başlayıblar. Pəhləvanımızın hər biri yarışa 1/8 final mərhələsindən qoşulub.

57 kq çəki dərəcəsində çıxış edən Mahir Əmiraslanov mübarizəyə boqarıstanlı Georgi Vangelova qarşı görüşlə başlayıb. Gərgin mübarizədən 6:5 hesablı qələbə ilə ayrılan pəhləvanımızın 1/4 finaldakı rəqibi Vladimir Yeqorov (Şimali Makedoniya) olub. Təmsilçimiz qələbə seriyasını davam etdirərək rəqibini 4:0 hesabı ilə məğlub edib və yarımfinala vəsiqə qazanıb. Finala gedən yolda Mahirin rəqibi Rusiya təmsilçisi Zavur Uğuyev olub. Rəqibinə qalib gələn Mahir çempionluq üçün həlledici görüşdə bu gün serbiyalı Stevan Miçiç ilə qarşılaşacaq.

74 kq çəki dərəcəsində yarışan Hacımurad Hacıyevin 1/4 final yolunu Türkiyə güləşçisi Soner Demirtaş kəsib - 3:4. Rəqibi finala qədər yoluna davam etdiyi üçün Hacımurad təsəlliverici görüşlərə qatılmaq hüququ qazanıb. "Bürünc yolu"nda onun ilk rəqibi bu gün yunanıstanlı Kirillos Binenpaum olacaq.

86 kq çəki dərəcəsində yarışan Aleksandr Qostiyev ilk görüşündə Belarus təmsilçisi Denis Balaura göz açmağa imkan verməyib - 7:1. Onun növbəti mərhələdəki rəqibi gürcüstanlı Sandro Aminaşvili olub. Güləşçimiz bu mərhələdə də ənənəsinə sadiq qalaraq rəqibini 6:2 hesabı ilə məğlub edib. Təmsilçimizin final yolunda rəqibi Dauren Kuruqliyev (Rusiya) olub. Aleksandr bu gün bürünc medal uğrunda güləşəcək.

125 kq çəki dərəcəsində yarışan Camaləddin Məhəmmədov 1/8 finalda Belarus güləşçisi Vitali Pyasnyakdan üstün olub - 6:0. Dörddəbir finalda macarıstanlı Daniel Ligetini çətinliklə mübarizədən kənarlaşdıran (6:5) Camaləddin yarımfinalda gürcüstanlı Givi Matkaraşvili ilə üz-üzə gəlib. Rəqibinə 2:4 hesabı ilə məğlub olan idmançımız bu gün bürünc medal uğrunda mübarizə aparacaq.

### Üç boksçumuz 1/4 finalda

Dünən II Avropa Oyunlarında boks yarışlarının beşinci gününə start verilib. "Uruçye Arena"nın rinqinə əvvəlcə 60 kq çəki dərəcəsində mübarizə aparan kişi boksçular çıxıb. Onlar 1/8 final mərhələsində qüvvələrini sınayıblar. Azərbaycan yığmasının üzvü Cavid Çələbiyev də növbəti döyüşünü keçirib. Dünya çempionumuz Moldova təmsilçisi Dorin Buksa ilə qarşılaşıb. 5:0 hesablı qələbə qazanan təmsilçimiz 1/4 finala yüksəlib.

Sonra 81 kq çəki dərəcəsində çıxış edən boksçular 1/4 finala çıxmaq uğrunda yarışıblar. Azərbaycan yığmasının üzvü Alfonso Dominqes belaruslu Mixail Dauhalyavetslə üz-üzə gəlib. 5:0 hesabı ilə qalib gələn təmsilçimiz növbəti mərhələyə yüksəlib.

Alfonso Dominqes (81 kq), Cavid Çələbiyev (60 kq) və Lorenso Sotomayor (69 kq) bu gün yarımfinala çıxmaq uğrunda mübarizə aparacaqlar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən açıq tender metodu ilə Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə fərdi evlərin tikinti işlərinin satın alınması ilə əlaqədar satınalma müsabiqəsinin qalibi "Avalon-12" MMC olmuşdur.

***Tender komissiyası***

## Avadanlığın satın alınması ilə əlaqədar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti

***açıq tenderə dəvət edir***

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (əlaqələndirici şəxs - Tender komissiyası (012) 596 32 73) ünvanından ala bilərlər.

**İştirak haqqı: 200,0 (iki yüz) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti**
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/HESABI: AZ18CTRE00000000000004788202**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*10. Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **30 iyul 2019-cu il tarixdə saat 17:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **07 avqust 2019-cu il saat 17:00-dək** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **08 avqust 2019-cu il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Bakı Şəhər İcra Hakimiyyəti Mənzil-Kommunal Təsərrüfatı Departamenti

*açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, aşağıda göstərilən LOT üzrə tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı şəkildə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

LOT-2. Kommunal və inşaat təyinatlı mal-materialların və məmulatların alınması.

Tender iştirakçılarının ixtisas göstəricilərinin müqayisəsi zamanı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.2 maddəsində göstərilən meyarlara üstünlük veriləcək. Tenderdə iştirak etmək istəyənlər LOT üçün 100 manat məbləğində iştirak haqqını sifarişçinin bankdakı hesablaşma hesabına köçürdükdən sonra göstərilmiş ünvandan tenderin əsas şərtlər toplusunu ala bilərlər. Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

İştirak haqqı aşağıdakı hesaba köçürülməlidir.

Təşkilat: Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamenti
Beynəlxalq Bankın Nərimanov filialı

| | |
|---|---|
| Kod: | 805540 |
| VÖEN: | 9900001881 |
| M/h: | AZ03NABZ01350100000000002944 |
| SWIFT: | BIK IBAZAZ2X |
| H/h: | AZ14IBAZ38060019449887596206 |
| VÖEN: | 1500116861 |

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək istəyənlər 30.07.2019-cu il saat 17:00-dək aşağıdakı sənədləri Tender komissiyasına təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair öhdəliklərin olub-olmaması barədə arayışlar;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanı tərəfindən təsdiq edilmiş maliyyə hesabatları;*
*- analoji işlərin yerinə yetirilməsinə dair iddiaçının potensial imkanları haqqında məlumat;*
*- göstərilən işlərin yerinə yetirilməsi üçün FHN tərəfindən verilmiş razılıq (lisenziya) sənədi;*
*- tender təklifi zərflərin açıldığı gündən sonra azı 30 bank günü müddətində qüvvədə olmalıdır;*
*- tender təklifinə onun ümumi dəyərinin 1 faizi məbləğində bank zəmanəti ilə təminat verilməlidir. Həmin təminat zərflərin açıldığı gündən sonra azı 60 bank günü müddətində qüvvədə olmalıdır.*

İddiaçılar LOT üzrə tender təkliflərini 06.08.2019-cu il saat 17:00-a qədər aşağıda göstərilən ünvana təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender proseduru 07.08.2019-cu il saat 16:00-da Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamentinin binasında (Ceyhun Hacıbəyli küç. 220, (keçmiş N.Yusifbəyli küç. 73)) keçiriləcəkdir.

Tenderlə əlaqədar məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: Tamella Nağıyeva, telefon: 465-62-29.

Tender komissiyası

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatı yerli orqanları və tabeliyində olan sosial xidmət müəssisələri tərəfindən istifadə ediləcək dəftərxana və təsərrüfat mallarının satın alınması ilə əlaqədar

*açıq tenderə dəvət edir*

**Tender 2 LOT üzrə keçirilir:**

**LOT 1:** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatı və yerli orqanları tərəfindən istifadə ediləcək dəftərxana və təsərrüfat mallarının satın alınması.

**LOT 2:** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun tabeliyində olan sosial xidmət müəssisələri tərəfindən istifadə ediləcək dəftərxana və təsərrüfat mallarının satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Həsənbəy Zərbadi, 80 (əlaqələndirici şəxs: Tender komissiyası (012 530-29-03)) ünvanından ala bilərlər.

**İştirak haqqı:**
**LOT 1** -1000.00 (bir min) manat
**LOT 2** - 600.00 (altı yüz) manat

**VÖEN: (DSMF) 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**

| | |
|---|---|
| **H/h:** | **AZ46CTRE00000000000007018504** |
| **M/h:** | **AZ41NABZ01360100000000003944** |
| **VÖEN:** | **1401555071** |
| **Kod:** | **210005** |
| **SWIFT:** | **CTREAZ22** |

| | |
|---|---|
| **Büdcə gəlirlərinin təsnifat kodu:** | -142319 |
| **LOT 1. Büdcə səviyyəsinin kodu :** | - 4 |
| **LOT 2. Büdcə səviyyəsinin kodu :** | - 7 |

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddəti bitdikdən sonra 30 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **29 iyul 2019-cu il saat 17:00-a,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **07 avqust 2019-cu il saat 17:00-dək** Bakı şəhəri, Yasamal rayonu, Həsənbəy Zərdabi, 80 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **08 avqust 2019-cu il saat 16:00-da** Bakı şəhəri, Yasamal rayonu, Həsənbəy Zərdabi, 80 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 23.07.2019-cu il tarixdə keçirilməsi nəzərdə tutulan 1 LOT - müxtəlif növ kondisioner və məişət avadanlıqlarının satın alınması üzrə açıq tender prosedurunun davamından imtina edilir.

***Tender komissiyası***

## Gədəbəy Rayon İcra Hakimiyyəti Gədəbəy şəhərində abadlıq işlərinin yerinə yetirilməsini kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (022) 326-01-47 telefon nömrəsi ilə əlaqə saxlaya bilər.

Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 03 iyul 2019-cu il saat 17:00-a kimi qəbul olunur.

**Ünvan: Gədəbəy rayonu, M.C.Paşayev küçəsi, 3.**

***Tender komissiyası***

## "Azərsu" Açıq Səhmdar Cəmiyyəti

*Təkrar*

Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilmiş 15.01.2019-cu il tarixli 890 saylı sərəncama əsasən "Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması, su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması, tikintisi, sayğacların quraşdırılması və ekoloji vəziyyətin yaxşılaşdırılması tədbirləri" çərçivəsində Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu üçün (investisiya xərcləri) nəzərdə tutulan vəsait bölgüsü hesabına Səbail rayonu, Badamdar qəsəbəsinin (3-cü massiv ərazisi) su və kanalizasiya şəbəkəsinin yenidən qurulması işlərinin satın alınması üzrə

*açıq tender elan edir*

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsindən (əlaqələndirici şəxs: Tağıyev İlqar Rauf oğlu, telefon: + 99412 431-47-67/87 - daxili: 1033 e-mail: i.tagiyev@azersu.az və Novruzov İntizam Cəmil oğlu, telefon: + 99412 431-47-67/87 - daxili: 3019, e-mail: intizam.novruzov@azersu.az) ala bilərlər.

**Tenderdə iştirak haqqı: 500.00 (beş yüz) AZN**

**"Azərsu" Açıq Səhmdar Cəmiyyəti**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kodu: 200112**
**VÖEN: 9900003611**
**Yerli valyutada hesab nömrəsi: AZ65AIIB33070019441100216111**
**Xarici valyutada hesab nömrəsi: AZ55AIIB33170018401100216111**
**M/h: AZ37NABZ01350100000000001944**
**SWIFT: AIIBAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı ilkin uyğunluq sənədlərini təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün ərizə;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra 30 bank günü ərzində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü ərzində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanının arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti;*
- *iddiaçının son 3 ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi rekvizitləri;*
- *iddiaçının son 3 ildə oxşar iş ilə bağlı yerinə yetirilmiş ən azı 1 (bir) müqavilə haqqında məlumat;*
- *iddiaçının işçi heyəti, avadanlığı və texnikası barədə məlumat;*
- *Azərbaycan Respublikası dövlət standartlarına uyğun olaraq I və II məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üzrə verilmiş xüsusi razılıq (lisenziya) və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **18 iyul 2019-cu il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **29 iyul 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Tenderlərin Təşkili və İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İştirakçıların təklifləri Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətində **30 iyul 2019-cu il saat 16:30-da** açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

## Rusiya AŞ PA-ya qayıtdı



Avropa Şurası Parlament Assambleyası (AŞ PA) özünün sanksiya mexanizminin məhdudlaşdırılması barədə qətnamə qəbul etmişdir. Bu, Rusiya nümayəndə heyətinin AŞ PA-ya qayıtmasına imkan yaradır. Nümayəndə heyəti artıq Strasburqdadır. Qətnamə AŞ PA-nın üzvü Petra de Sutterin məruzəsi müzakirə edildikdən sonra qəbul olunmuşdur. Qətnamənin lehinə 118 deputat, əleyhinə 62 parlamentar səs vermiş, 10 nəfər bitərəf qalmışdır.

Ötən ayın 17-də Avropa Şurası Nazirlər Komitəsinin qəbul etdiyi bəyanata əsasən, bütün nümayəndə heyətləri Avropa Şurası baş katibinin seçkiləri keçiriləcək iyun iclasında iştirak edə biləcək. Nazirlər qeyd etmişdilər ki, AŞ PA-nın büdcəsinə üzvlük haqqının ödənilməsi üzv-dövlətlərin əsas öhdəliklərindən biridir. Rusiya üzvlük haqqı ödəmir. O, Krımın ilhaqı və Ukraynada vəziyyətə görə 2014-cü ilin aprelində AŞ PA-dakı səlahiyyətlərindən məhrum olunmuşdur.

İndi assambleyanın iclasında qəbul olunmuş qətnamə AŞ PA-nın reqlamentinə dəyişikliklər edir və Avropa Şurası Nazirlər Komitəsinin təklif etdiyi kimi, hansısa nümayəndə heyətinin səs hüququndan məhrum olunmasına yol vermir.

## Qazaxıstanda döyüş sursatı anbarında partlayış



Qazaxıstanın Türküstan vilayətində yerləşən hərbi hissənin ərazisində döyüş sursatı anbarında partlayışlar baş vermişdir. Bu barədə TRT telekanalı xəbər verir.

Qazaxıstan Səhiyyə Nazirliyindən verilən məlumata görə, Arıs şəhərində Müdafiə Nazirliyinin döyüş sursatları saxlanılan anbarında partlayışlardan sonra baş vermiş yanğın nəticəsində 2 nəfər həlak olmuş, 165 nəfər yaralanmışdır. 40 minə yaxın sakin qonşu rayonlara köçürülmüşdür.

Hadisədən sonra partlayışların səbəbini araşdırmaq üçün xüsusi komissiya yaradılmışdır. Müdafiə Nazirliyi bildirmişdir ki, anbardakı döyüş sursatlarının təxminən yarısı partlamışdır.

## Çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsinə dair fərmanın icrası davam etdirilir

Azərbaycan Respublikası Prezidentinin növbəti humanist addımı olan "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" 2019-cu il 19 fevral tarixli fərmanın icrası ilə əlaqədar Fövqəladə Hallar Nazirliyi (FHN) və digər aidiyyəti dövlət qurumları tərəfindən zəruri tədbirlər həyata keçirilməkdədir.

FHN-dən AZƏRTAC-a bildiriblər ki, görülmüş tədbirlər nəticəsində ötən dörd ay ərzində ümumilikdə 167 girişi, 11 min 872 mənzili olan, 1 milyon 128 min 190 kvadratmetr sahəni əhatə edən 70 binaya (kompleksə) dair müsbət rəy verilib. Altmış səkkizi Bakıda, biri Abşeron rayonunda, biri isə Gəncə şəhərində yerləşən bu binalara dair sənədlər komplektləşdirilib. Onların istismara hazır olması barədə müvafiq qaydada rəy tərtib edilərək aidiyyəti üzrə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, Abşeron Rayon və Gəncə Şəhər İcra hakimiyyətlərinə təqdim olunub.

Aparılmış müayinələr nəticəsində aşkarlanan çatışmazlıqların aradan qaldırılması üzrə işlərin fərmanla müəyyən olunmuş vaxtda başa çatdırılmasının təmin edilməsi, bu istiqamətdə qarşıya çıxan məsələlərin operativ həlli üçün birgə fikir mübadiləsinin aparılması məqsədilə mayın 23-də və iyunun 13-də FHN-in Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin inzibati binasında aidiyyəti dövlət qurumlarının rəhbər şəxslərinin iştirakı ilə növbəti müşavirələr keçirilib. Müşavirələrdə aidiyyəti üzrə görülmüş işlər barədə məlumat verilib, müayinə nəticəsində aşkarlanan çatışmazlıqlar, mövcud problemlər və onların həlli yolları barədə müzakirələr aparılıb, görüləcək tədbirlərə dair müvafiq tapşırıqlar verilib.

Fərmandan irəli gələn məsələlərin icrası davam etdirilir və görülən işlər dövlət başçısının nəzarəti altındadır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı İqbal Məmmədova atası
**NƏRİMAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycanın görkəmli alimi və mətbuat tədqiqatçısı, Prezident təqaüdçüsü, Bakı Dövlət Universitetinin professoru
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli, komitənin üzvləri və əməkdaşları Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyevaya atası
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyevaya atası, Bakı Dövlət Universitetinin professoru
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin kollektivi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyevaya atası
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Abid Şərifov, Nadir Əhmədov, İbrahim Mustafayev, Nüsrət Əliyev, Vaqif Cəlilov, Tərlan Məmmədov, İlham Hacıyev, Natiq Şirinzadə, Rafiq Hüseynov və Şahid Şərifov Azərbaycanın görkəmli alimi və mətbuat tədqiqatçısı, Prezident təqaüdçüsü, Bakı Dövlət Universitetinin professoru
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyevaya atası, Azərbaycanın görkəmli alimi və mətbuat tədqiqatçısı, Prezident təqaüdçüsü, professor
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Bakı Dövlət Universitetinin professoru
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyevaya atası, professor
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin kollektivi iş yoldaşları Eldar Mahmudova bacısı
**TAMİLƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva, universitetin Həmkarlar İttifaqı Komitəsi və professor-müəllim heyəti Adil və Fərəh Əliyevlərə professor
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Aviasiya Akademiyasının prorektoru Şəmsəddin Axundov, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov və kitabxananın kollektivi kitabxananın fəal oxucusu, Azərbaycanın görkəmli alimi və mətbuat tədqiqatçısı, Prezident təqaüdçüsü
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı İqbal Məmmədova atası
**NƏRİMAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Bakı Dövlət Universitetinin professoru
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova və komitənin kollektivi Bakı Dövlət Universitetinin professoru
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Ombudsman Elmira Süleymanova Azərbaycanın görkəmli alimi, Prezident təqaüdçüsü, Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının professoru
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət İqtisad Universitetinin rəhbərliyi və kollektivi Bakı Dövlət Universitetinin professoru
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyevaya atası, professor
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektorluğu, professor-müəllim heyəti Azərbaycanın görkəmli alimi və mətbuat xadimi, Ali Media Mükafatı laureatı, Prezident təqaüdçüsü, Bakı Dövlət Universitetinin Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının professoru
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov və institutun kollektivi iş yoldaşları
**İSRAFİL SÜLEYMAN OĞLU MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev Azərbaycanın görkəmli alimi və mətbuat tədqiqatçısı, Prezident təqaüdçüsü, professor
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Rövşən Bağırov və Lerik Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Milli Məclisin deputatı İqbal Məmmədova atası
**NƏRİMAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektorluğu və kollektivi Bakı Dövlət Universitetinin professoru, respublikanın görkəmli alimi, mətbuat tədqiqatçısı
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Aybəniz Əliyeva-Kəngərli Ülkər Hüseynovaya professor
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyevaya atası, görkəmli alim və mətbuat tədqiqatçısı, Prezident təqaüdçüsü, professor
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, xalq artisti, professor Azər Paşa Nemətov və ittifaqın İdarə Heyəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyevaya atası, Azərbaycanın görkəmli alimi, professor
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruzəli Aslanov Bakı Dövlət Universitetinin professoru
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Milli Məclisin deputatı Xanlar Fətiyev və Tələtüm Quliyev Milli Məclisin deputatı İqbal Məmmədova atası
**NƏRİMAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının kollektivi Ülkər Hüseynovaya və Fərəh Əliyevaya əzizləri
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyevaya atası, professor
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Lənkəran Dövlət Universitetinin rektoru vəzifəsini icra edən professor Natiq İbrahimov Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyevaya atası, görkəmli alim və mətbuat tədqiqatçısı, Prezident təqaüdçüsü, professor
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gədəbəydən Allahverdi Səfərov Nazim Rəcəbova qohumu
**RÜFƏT OCAQVERDİZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının bədii rəhbər-direktoru Azər Paşa Nemətov və teatrın kollektivi Fərəh Əliyevaya və Lalə Hüseynovaya əzizləri, Bakı Dövlət Universitetinin professoru, Azərbaycan mətbuat tarixinin görkəmli tədqiqatçısı
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi görkəmli alim, professor
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Qubadlı rayon prokuroru Ceyhun Bayramova anası
**SİTARƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sumqayıtdan Zakir Fərəcov Azərbaycanın görkəmli alimi və mətbuat tədqiqatçısı, Prezident təqaüdçüsü, Bakı Dövlət Universitetinin professoru
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi görkəmli alim
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov Səhiyyə Nazirliyinin Maliyyə-iqtisadiyyat şöbəsinin müdiri Azad Vəliyevə atası
**NƏRİMAN MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mahmud Məmmədov Azərbaycanın görkəmli alimi və mətbuat tədqiqatçısı
**ŞİRMƏMMƏD AĞAMƏMMƏD OĞLU HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetinin rektorluğu və professor-müəllim heyəti Yusif Hüseynova əzizi, professor
**ŞİRMƏMMƏD HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun baş həkimi və əməkdaşları institutun direktoru professor Nəsib Quliyevə və ailə üzvlərinə əzizləri
**ŞURA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9053
Sifariş 2094
Qiyməti 40 qəpik